GÜLAYƏ RZAYEVA

# VƏFADARLIQ

*Akademik Ramiz Mehdiyevin elmi-nəzəri araşdırmaları kontekstində*

ADİLOĞLU
Bakı - 2012

Redaktor: **Sərvaz Hüseynoğlu**
*Azərbaycan Yazıçılar Birliyi*
*Aran bölməsinin sədri*

**Rzayeva Gülayə**
**"Vəfadarlıq"**
"ADİLOĞLU" nəşriyyatı, Bakı 2012. 228 səh.

*Kitabda görkəmli filosof, Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin çoxşaxəli fəaliyyətinin müəyyən məqamlarından bəhs olunur, onun dahi siyasətçi, ümummilli lider Heydər Əliyev siyasi kursuna, şəxsiyyət böyüklüyünə vəfadarlığı dərin qədirbilənliklə təqdir edilir.*
*Ehtiva olunur ki, Vətənə, müstəqil Azərbaycan dövlətçiliyinə sədaqət hissi R.Mehdiyevin mənalı ömür yolunun başlıca qayəsidir.*

4722110018 / 121 - 2012 qrifli nəşr

© "ADİLOĞLU", 2012

***"Bu gün mənim üçün ən başlıcası dövlətçiliyimizi və milli istiqlaliyyətimizi möhkəmləndirmək işinə xidmət etməkdir."***

***Akademik Ramiz Mehdiyev***

***"Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdir... Belə adamların həyat tarixi, gücünün dəyəri, görünməmiş dərinliklər fəth etməsinə imkan yaradan şəxsi mülkiyyəti müqəddəsdir..."***

***KARLEYL TOMAS (1795-1881)***
***İngilis tarixçisi və filosofu***





## *Müəllifdən*

Siyasətçi və tarixçi deyiləm. Sadə, eyni zamanda da vətənini, xalqını, bu xalqa xidmət edən hər bir vətən övladını sonsuz məhəbbət hissi ilə sevən, qəlbən tərənnüm edən bir qələm adamıyam.

Bu kitabı qəlbimin səsi ilə yazdım. Düşündüklərimin şəkli olaraq ərsəyə gətirdim. Yazdıqca da tarixçi və siyasətçi olmamağımın dərin təəssüfünü yaşadım. Eyni zamanda da təsəlli tapdım ki, dünya ədəbiyyatının şah əsərlərindən birinin – "Tom dayının daxması"nın müəllifi olan Biçer Stou da çox sadə, adi evdar qadın olmuşdur.

Görkəmli rus yaşıçısı Konstantin Simonov insan iradəsinin, dözümünün və əqlinin necə fövqəladə qüvvəyə malik olduğunu ən incə detallarına qədər ədəbi müstəvidə əks etdirə bilən, dünya şöhrətli romanlar müəllifi Ernest Heminqueyin "Əcəl zəngi" əsərindən bəhs edərkən xüsusi olaraq vurğulayırdı ki, bir çox mübahisəli mətləblərinə baxmayaraq "Əcəl zəngi" müəllifin ispan xalqına, bu xalqın müstəqillik uğrunda apardığı mübarizəsinə böyük məhəbbət və sevgi duyğusu ilə qələmə alınıb.

Eyni fikir ucalığı ilə demək istəyirəm ki, oxucu diqqətinə təqdim etdiyim bu kitabı uzunmüddətli müşahidələrimin mənə təlqin etdiyi xoş qənaətin, müstəqil Azərbaycanımızın baş memarı və qurucusu, ulu öndər Heydər Əliyevin layiqli silahdaşı, akademik Ramiz Mehdiyevin xarakter bütövlüyünə olan vətəndaş marağımın ifadəsi kimi qələmə aldım.

"Böyük bir insanın fikrini sistemli şəkildə izləyib, dərk etməyin özü ən maraqlı bir elmdir..." Bu fikir A.S.Puşkinin "Böyük Pyotrun zəncisi" əsərinin epiloqundan götürülüb. Və indiki halda mənim R.Mehdiyev fenomeninə olan münasibətimi daha dolğun şəkildə əks etdirir. Belə ki, oxucu diqqətinə təqdim edilən bu kitabın hər bir səhifəsi zəngin ömür yolu keçmiş, müstəqil dövlətçiliyimizin qorunub-





saxlanılmasında fövqəladə fədakarlıq göstərmiş ümummilli lider Heydər Əliyevlə bərabər çalışmış və hal-hazırda Azərbaycan Prezidenti cənab İlham Əliyevlə bərabər çalışan, vətənimizə, xalqımıza xidmət göstərmiş akademik Ramiz Mehdiyevin mənalı ömür yolunu öyrənmək, təqdir etmək istəyimin bəhrəsidir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsimi yaradıcılığından bəhs edərkən xalq şairi Rəsul Rza yazırdı ki, Nəsimi irsinin tədqiqi möhtəşəm bir sarayın, yenilməz bir qalanın bünövrəsinə daş qoymaq kimidir. Bu özülə, bu möhtəşəm bünövrəyə bir daş qoyanın da, yüz daş qoyanın da çiynimizdə eyni dərəcədə haqqı var.

Çox dəyərli münasibətdi. Və bütün səmimiyyətimlə qeyd edirəm ki, xalqımızın tarixi müstəqillik savaşından qalib çıxması yolunda bu möhtəşəm istəyin gerçəkləşməsinə böyük inam və sədaqətlə əmək sərf etmiş hər bir insanın bir vətəndaş olaraq boynumda haqqı var. Sıravi vətəndaşdan tutmuş ən nüfuzlu dövlət xadiminə qədər öz xalqı yolunda hər cür fədakarlığa hazır olan insanların haqqı mənim üçün çox əzizdir.

Bu kitabın bir ehtiram, minnətdarlıq ərməğanı olaraq araya-ərsəyə gəlməsinin ilk dəstəkçisi də təbii

ki, elə həmin o böyük haqqı etiraf etmək ehtiyacı, zərurəti oldu. Dahilərin inkaredilməz həqiqətidir: "Etirafı o yerdə et ki, səni başa düşürlər".

Xalqımın bəsirət gözü həmişə haqq anlayışına açıq olduğundan bu səmimi etirafları oxucularla bölüşməyi zəruri bildim.

İnsan dünyaya bir kərə doğulur. Amma bir ömür boyu öz əməlləri ilə özü-özünü yenidən dünyaya gətirir, yenidən yaradır. Bu kitab üzərində işləyərkən müstəqil dövlətçiliyimiz, azadlığımız yolunda sədaqətlə çalışmaqla əslində özü öz dolğun portretini yarada bilmiş. Görkəmli bir filosofun həyat həqiqətlərinə ayna tutmağa çalışmışam.







## *Ön söz*

## *Müasir Azərbaycanşünaslığın ünvanı*

Qarşımda şeirlərini sevə-sevə oxuduğum və bədii yaradıcılığına yüksək dəyər verdiyim şairə Gülayə Rzayevanın «Vəfadarlıq – Akademik Ramiz Mehdiyevin elmi-nəzəri araşdırmaları kontekstində» adlı dərin məzmunlu tədqiqat kitabı var. Əsər müəllifin ciddi elmi, tarixi və fəlsəfi araşdırmasının nəticəsi hesab oluna bilər. Lakin kitabın kifayət qədər samballı elmi-fəlsəfi məziyyətlərindən daha çox məni adı və bütün yadadıcılıq boyu müəllifin sərgilədiyi səmimiyyət heyran etdi.

Vəfalılıq, etibarlılıq, vəfa anlayışları bəşər

cəmiyyətinin bütün inkişaf mərhələlərində yüksək dəyərləndirilən, yaşadılan, qorunaraq inkişaf etdirilən və cəmiyyətdəki sosial proseslərin təməlinə qoyulan əsas məhək daşlarından biri sayılmışdır. Hər bir xalqın, etno-sosioloji birliyin həyatında "vəfalılıq" və "etibarlılıq" kimi dəyərlərin üstünlük təşkil etməsi, nəticədə bu birliklərin daxili həyatının milli-mənəvi, sosial-siyasi, iqtisadi və s. sahələrində təzahür edir, milli yaddaşının formalaşmasında, inkişafında, millətin tarixin sərt sınaqlarından üzüağ çıxmasında böyük rol oynayır.

Həm də "vəfalılıq" və "etibarlılıq" anlayışları şəxsi «mən»lərin fikir və ya rəy prizmasını aşaraq milli yaddaş, geniş anlamda ictimai minnətdarlıq hissini formalaşdırır. Bu proseslərin baş verməsi üçün həm də tarixi və taleyüklü hadisələr zamanı millətin həyatında fövqəladə rol oynan tarixi şəxsiyyətlərin meydana çıxması, yetişməsi vacib şərtdir. Mənə görə tarixin müxtəlif millətlərə bəxş etdiyi böyük şəxsiyyətlər həmin millətlərin həyatında zəruri hadisələri yaratmaq, onları çətin sınaqlardan qurtarmaq üçün Tanrı tərəfindən göndərilir. Məhz Tanrının bəxş etdiyi bu şəxsiyyətlər öz millətinin, bütöv insanlığın taleyüklü məsələlərini «olum və ya ölüm» məqamında çiyinlərinə götürür və həlledici proseslərin bəşəri qəhrəmanına çevrilirlər. Onlar həmin anda bütün





mübarizə məqamlarının çətinliklərini – öz dərin ağılları, qlobal düşüncələri, sistemli yanaşmaları, operativlikləri ilə, siyasi çeviklik nümayiş etdirməklə, həyatlarını mənsub olduqları xalq və böyük ideyalar yolunda qurban verməklə tarix səhnəsinə daxil olur və tarixə qovuşur, siyasi ustalıqları və intellektlərinin hüdudsuzluğu, möhkəm milli iradələri ilə bütün sınaqlardan üzüağ çıxaraq Ümummilli liderə çevrilirlər.

"Ümummilli lider kimdir və bu mənəvi zirvəni tarixdə kimlər fəth edib?» sualına cavab olaraq Azərbaycan xalqının xilaskarı, müdrik və dahi siyasətçi, əvəzolunmaz ÜMUMMİLLİ LİDER Heydər Əliyevin həyat və fəaliyyətinə nəzər salmaq kifayətdir.

Heydər Əliyev sağlığında Azərbaycan xalqının canlı əfsanəsinə çevrildi. Onun siyasəti bütün siyasilərdən, iqtisadiyyatı iqtisadçılardan, hərbi təfəkkürü və biliyi hərbçilərdən, incəsənət və mədəniyyət duyumu bu sahənin mütəxəssislərindən, millət və cəmiyyət haqqındakı bilikləri və təsəvvürü cəmiyyətşünaslıqla məşğul olanlarınkından daha mükəmməl idi. O, bütün qeyd olunan sahələrin ən sanballı mütəxəssislərinə belə inkişaf məsələləri üzrə məsləhət və tövsiyələr vermək qüdrətində idi. Ulu öndər Heydər Əliyev sözün əsil mənasında LİDER idi. Unikal intel-

lekt və yaddaşı, təkrarolunmaz əzmi və iradəsi, özünəməxsus milli dəyanət və liderlik keyfiyyətləri ilə Heydər Əliyev milli liderlik zirvəsini fəth etdi və həmin zirvədə əbədi yaşayacaq!

G. Rzayevanın akademik Ramiz Mehdiyevin elmi-fəlsəfi araşdırmalarından çıxış edərək Ulu Öndərin zəngin siyasi irsini tədqiq etməsini də təsadüf hesab etmək olmaz. Azərbaycan siyasətşünaslığında bir elm sahəsi olaraq – Əliyevşünaslığın əsasını qoyan və bu sahəni inkişaf etdirən əsas simalardan biri məhz akademik Ramiz Mehdiyev olmuşdur. Onun Heydər Əliyev haqqında çoxsaylı elmi, siyasi və fəlsəfi tədqiqatları mövcuddur.

Ramiz Mehdiyevin həm sanballı elmi-fəlsəfi, siyasi-nəzəri bilikləri, həm uzun illər Ulu Öndərin rəhbərliyi altında işləməsi, xüsusən müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasında həyata keçirilən milli dövlət quruculuğu proseslərinin bütün sahələrində onunla çiyin-çiyinə çalışması, əsas hadisələrin iştirakçısı olması, fikrimizcə onun Heydər Əliyev haqqındakı əsərlərinin dəyərini artırır. Müəllifin sözləri ilə ifadə etsək: «Əliyevşünaslığın akademik səviyyədə ilk yaradıcısı Ramiz Mehdiyevdir». Bununla yanaşı, bir silahdaş, sədaqətli, vəfalı və səmimi insan kimi – Heydər Əliyev haqqındakı





minnətdarlıq dolu etirafları və xatirələri Ramiz Mehdiyevin özü haqqında da əsl ziyalı, mərd azərbaycanlı obrazı yaradır və bu nümunəni gələcək nəsillərə ərməğan edir.

Kitabda Ramiz Mehdiyevin əsərlərindən gətirilmiş nümunələrlə, müəllif Heydər Əliyev siyasətinin mahiyyəti, fəlsəfəsi, ümummilli dəyərlərin qorunub saxlanması və yaşadılması sahəsindəki xidmətləri, ümumxalq məhəbbətinin Ulu Öndərə gətirdiyi məsuliyyətin onun tərəfindən liderlik səviyyəsində dərki, gərgin fəaliyyət meydanında həmin məsuliyyətin ona verdiyi enerji və s. kimi ideyalar ardıcıllıqla təhlil olunaraq oxuculara çatdırılır.

G. Rzayeva Ramiz Mehdiyevin "Əliyevşünaslıq" sahəsinə daxil olan elmi məqalə və iri həcmli əsərlərinin təhlili zamanı Azərbaycan mediasında, ayrı-ayrı ziyalıların, ictimai-siyasi xadimlərin məqalələrində əks olunan fikir və mülahizələrə də müraciət edir ki, bu da oxucunu ondan öncə bu mövzuda yazılan əsərlərlə tanış edir.

Ulu Öndər Heydər Əliyevin bütün dövlət idarəçilik fəaliyyəti və siyasi baxışlarının elmi-siyasi təhlilini verməyə çalışan müəllif, Ramiz Mehdiyevin tutarlı fikirlərini sitat gətirərək, öz mülahizələrinin daha düzgün, məzmunlu olmasına nail olur. Məsələn,

«Deyirlər ölkələr də insanlar kimidir. Tale onları bəzən sevincdən, səadətdən məhrum edir, sərt sınaqlara çəkir. Ölkələr məzlum vəziyyətə düşür, xalqlar təhqir və həqarətin acısını dadır, məhvedici parçalanma mərhələsinə daxil olur, hansı səmtə gedəcəyini bilmir... Belə bir siyasi durumun məngənəsində çabalayan Azərbaycan Ulu Öndər Heydər Əliyevin yenilməz iradəsi, zəkası sayəsində dünyaya günəş kimi doğdu».

Ramiz Mehdiyevə məxsus bu fikir belə nümunələrdən sayıla bilər. ( Bax: R.Mehdiyev «Əsil vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr. Bakı, Azərnəşr).

Yaxud, yenə də həmin əsərdən başqa bir fikri olduğu kimi qeyd edərək, müəllif Ramiz Mehdiyevin – Heydər Əliyevlə hər gün iş prosesində görüşən, tapşırıqlar alan, birgə çalışan etibarlı bir silahdaşın dili ilə Ulu Öndəri belə dəyərləndirilir: «Franklın Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi Heydər Əliyev də sağlığında canlı əfsanəyə çevrilmişdi".

Gülayə xanımın əsərində oxucuda nəinki ümummilli liderin siyasi portreti haqqında müfəssəl fikir yaradır, eləcə də Azərbaycan xalqının müstəqillik yolunu, azadlıq mübarizəsini, azad, demokratik dövlət quruculuğu prosesi Heydər Əliyevin respublikaya





rəhbərliyi fonunda təhlil edilir, onun ayrı-ayrı mərhələlərinin xarakteristikası verilir. Müəllif Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünü akademik Ramiz Mehdiyevin yazdıqlarından çıxış edərək milli tariximizin yeni bir epoxası adlandırır və bu fikrini əsaslı, tutarlı, elmi, fəlsəfi faktlarla izah edir. Müəllifin fikrincə Heydər Əliyev epoxası tək Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində quruculuq və inkişafla məhdudlaşmır, həm də dövrünün əsl azərbaycanlı obrazını, milli iradəli vətəndaşını, azad düşüncəli, demokratik fikirli şəxsiyyətini, mübariz düşüncə nümunəsini formalaşdırdı. Bu epoxanı Ramiz Mehdiyev Heydər Əliyev epoxası adlandırmışdır.

Ön sözün girişində qeyd etdiyim kimi, (Gülayə xanım özü bu kitabın ərsəyə gəlməsində fikrini çox səmimi izah etmişdi) kitabın müəllifi çox istedadlı bir şairədir.

Özünün dediyi kimi, nə siyasətçidir , nə də tarixçi. Amma məsələlərə dərin təhlillərlə yanaşması siyasi hadisələrə ardıcıllıqla , məntiqlə münasibət bildirməsi onu siyasətçi və tarixçi kimi təqdim edir. Kitabın səmimiyyəti və həm də yeri gəldikcə bədii notlara keçməsi onun şair səmimiyyətinin bəhrəsi kimi kitabı daha dəyərli etmişdi. Səmimiyyətinin arxasında böyük ziyalılıq, vətəndaşlıq, hadisələrin şərhinə dərin

intuisiya ilə yanaşması imkan verdi ki, mən bu qənaətə gəlim; bundan əvvəl və sonralar da R.Mehdiyevin əsərlərində Əliyevşünaslığı və Azərbaycan dövlət quruculuğu məsələlərini araşdırıblar və araşdıracaqlar, amma ola bilsin ki, onların heç biri "vəfadarlıq" terminini işlətməyəcəkdir. Çünki bu təhlilləri qələmə alan müəllif ilk olaraq milli irsimizdə kişiliyin, mərdliyin, qəhrəmanlığın simvolu olan etibarı, vəfanı, siyasi müstəvidə araşdırır. Bu dəyərlər itəndə cəmiyyətdə də, dövlətdə də, tarixdə də hərc-mərclik baş qaldırır, xaos hökm sürür. Ən böyük cəza Tanrıdan gəlir – qədirbilməzliyin cəzası !

Müəllif "Vəfadarlıq" kitabında beş müstəvidə Milli dəyərlər sistemimizin əsasında duran vəfa, etibar, qədirbilənlik, minnətdarlıq və onun tarixi ənənəyə çevrilməsi məsələsinin izah etməyə çalışıb:

- Ulu öndər H.Əliyevin Azərbaycan xalqı, milləti, dövləti, qarşısında tarixi xidmətlərini elmi şəkildə araşdıran sahəsinin – Əliyevşünaslığın yaranması;

- Əliyevşünaslığın ilk elmi yaradıcısı olan Ulu Öndərin yaxın silahdaşı akademik R.Mehdiyevin özünün araşdırmalar apararaq tarixi-fəlsəfi münasibətlərinin toplumu kimi geniş tarixi əsərlər mənbəyinin yaranması;



-Çagdaş ictimai-siyasi quruculuq fəaliyyətində R.Mehdiyevin dəsti-xətti ilə tarixi minnətdarlıq, qədirbilənlik, unutmamaq, özündən əvvəlki, siyasi irsə dərin ehtiram anlayışlarının fəlsəfi tədrisinə başlamaq;

-Unutqanlığın, nankorluğun, mənəmliyin siyasi fəaliyyətdə özünü məhvə gətirməsi mesajının verilməsi;

-Vəfadarlığın cəmiyyətin, dövlətin, insanlığın böyük tarixini yazmaq üçün fəlsəfi düşüncə anlayışı səviyyəsinə ucaldılması.

Əsərlə tanışlıq belə qənaətə gəlməyə əsas verir ki, bir şairənin – Gülayə Rzayevanın Azərbaycanın ümummilli lideri, Ulu Öndər Heydər Əliyev haqqında, Ramiz Mehdiyevin – bir ictimai-siyasi və dövlət xadiminin fikirləri əsasında qələmə aldığı və ərsəyə gətirdiyi, elmi-siyasi təhlil xarakteri daşıyan bu kitab müəllifin səmimiyyətinin, əsl vətəndaş mövqeyinin, ümummilli liderə dərin sevgi və ehtiramının ifadəsi kimi böyük alqışa layiqdir.

**Sona Vəliyeva,**
***Filologiya elmləri üzrə fəlsəfə doktoru***

*"Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyalarını başa düşmək lazımdır!"*

***Akademik RAMİZ MEHDİYEV***



Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Ümummilli lider Heydər Əliyevin parlaq şəxsiyyəti və fəaliyyətinin tədqiqi ictimai-siyasi, humanitar fikir tariximizdə yeni bir sahənin – Əliyevşünaslıq səhifəsinin var olmasına rəvac verib. Danılmaz həqiqətdir ki, ədəbi sahədə Nizami, Füzuli, Vaqif, Sabir, Mirzə Cəlil, Səməd Vurğun, Rəsul Rza və s. məktəbləri olduğu kimi, çağdaş ictimai-siyasi fikir tariximiz zəngin və çoxşaxəli Heydər Əliyev məktəbi müstəvisində öz zənginləşmə mərhələsinə qədəm qoyub. Cəmiyyətimizdə Əliyevşünaslıq elmini əxz etməyə böyük zərurət yaranıb. Tam məsuliyyət hissilə demək olar ki, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev bu yeni elm sahəsinin – Əliyevşünaslığın ən mükəmməl, eyni zamanda da aka-

demik səviyyədə ilk yaradıcısıdır. Ulu öndərin şərəfli ömür yolunu "Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır" mövqeyindən tədqiq edən akademik Ramiz Mehdiyevin Ümummilli liderlə işləmək şansı əldə etməsinə görə taleyinə minnətdarlıq etməklə yanaşı, bu dahi şəxsiyyətin dolğun fəaliyyətinin panoramını ictimaiyyətə bütün incəlikləri ilə bir arada çatdırmaq istəyi böyük razılıq doğurur. Təbii ki, akademik Ramiz Mehdiyevin yazdığı kimi, "Mirzə Fətəli Axundzadədən başlayaraq Hüseyn Cavidə və Səməd Vurğunadək Azərbaycan xalqının görkəmli nümayəndələrinin yaradıcılığında ümummilli dəyərlər və ən müqəddəs sahələr haqqında təsəvvürlərin mahiyyətini təşkil etmiş hər şey Heydər Əliyevin fəlsəfi görüşündə dövlət quruculuğunun konkret konsepsiyasında öz ifadəsini tapmışdır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyalarını başa düşmək lazımdır".

Mübaliğəsiz demək olar ki, şanlı Əliyevşünaslıq elmimizin ilk tədqiqatçısı, akademik Ramiz Mehdiyevin dərin məzmunlu elmi-nəzəri araşdırmalarının özü də bu qiymətli xəzinənin tədqiqi sahəsində düşərli bir açar rolu oynayır.





* * *

Doğru qənaətdir ki, məsuliyyət hissi və əxlaqi cavabdehlik insanları bir-birinə və cəmiyyət həyatına bağlayan qırılmaz tellərdir. "Bu tellər möhkəm olduqca cəmiyyətin mənəvi dayaqları da möhkəm olur. Məsuliyyət hissi və əxlaqi cavabdehlik vətəndaşlıq hissinin də əsasını təşkil edir. Tarixi inkişafın gedişində, mədəni tərəqqinin ayrı-ayrı mərhələlərində vətəndaşlıq hissinin inkişafına həmişə böyük ehtiyac duyulmuşdur" (Z.Göyüşov, "Fəzilət və qəbahət" kitabı, səh.157).

Mübaliğəsiz demək olar ki, müstəqil dövlət quruculuğu yolunda öz dahi ustadının parlaq ideyalarının gerçəkləşməsində inamla əmək sərf edən akademik Ramiz Mehdiyevin ən başlıca portret cizgilərini onun cəmiyyət qarşısındakı məsuliyyət hissi şərtləndirir. Ramiz müəllim xarakter bütövlüyündən

irəli gələn bir ciddiyyətlə dövlət qanunlarının həyata keçirilmləsi prosesində fövqəladə iradə və bacarıq, xüsusi səriştəliliyilə iştirak edib. Təbii ki, ciddiyyət, qətiyyət əsl insan üçün zəruri fəzilətdir. İradə qüvvəsi yeni enerji mənbəyidi və bu durum görkəmli akademikin ömür yolunu sistemli şəkildə izləməkdədir. Fəzilət sahibliyinin bir əsas tərəfi də ciddi iradə daşıyıcısı olmaqdan keçir. Təsadüfi deyildir ki, Konfusti mükəmməl xarakteri həyatın dörddə üçünə bərabər tuturdu.

Müstəqil dövlətçiliyimiz, elmi nailiyyətlərimizin daha da irəli aparılması yolunda sərf etdiyi mənalı ömür yolunu bütövlükdə göz önünə gətirməli olsaq, səmimiyyətlə deyə bilərik ki, akademik Ramiz Mehdiyevin dövlətə, xalqa, Azərbaycan elminə göstərdiyi sədaqətli xidmətin arxasında onun kamil xarakteri, bütöv əqidəsi dayanır. Sanki məhz onun kimi insanlar haqqında deyilmişdir ki, "səadəti məqsədlərinizdə deyil, energiyanızda axtarın" (Aristotel).

Bütün əxlaqi nəsihətnamələrdə "iradən qüvvətli olsun, vəzifəni icra edərkən heç bir zaman tərəddüd göstərmə!" deyimi ehtiva olunub. Akademik Ramiz Mehdiyevin mənalı ömür yolunun əsl mahiyyəti bu yüksək fikir ucalığının prizmasından daha şəffaf və aydın görünür. Təkcə ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin və taleyinin mahiyyətini





dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq, onun ideyalarını cəmiyyətə lazımınca çatdırmaq istiqamətində Ramiz Mehdiyevin yorulmadan gördüyü işləri göz önünə gətirmək bəs edər deyək ki, onun fəaliyyəti tərəddüdsüz, sözün həqiqi mənasında vəfadarlıq və sədaqət hissindən qaynaqlanan bir fəaliyyətdir.

***

Eradan əvvəl VI əsrdə yaşamış qədim Çin filosofu Lao Tszı yazır ki, ölkənin içində hərc-mərclik, anarxiya başlayanda hər cür "meydan qəhrəmanları", ən müxtəlif məqsədlərə xidmət edən siyasətbazlar meydana çıxır.

Mən hər dəfə bu dahi filosofun məlum deyimlərini, fəlsəfi düşüncələrini xəyal edib, yaddaşımda təzələdikcə akademik Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" ("Dünyanı heyran qoyan insan", Bakı, "Azərnəşr, 2004, səh.5) əsərində önə çıxardığı həqiqətləri bir daha xatırlayıram: "Deyirlər ki, ölkələr də insanlar kimidir. Tale, bəzən onları sevinc və səadətdən məhrum edir, sərt sınaqlara çəkir. Ölkələr məzlum vəziyyətə düşür, xalqlar təhqir və həqarətin





acısını dadır, məhvedici parçalanma mərhələsinə daxil olur, hansı səmtə gedəcəyini bilmir.

Bu deyilənlər sanki Azərbaycanın ən yeni tarixinin səhifələrindən köçürülmüşdür".

Lap yaxın tariximizdə məhz belə bir siyasi durumun məngənəsində çabalayan Azərbaycan ulu öndər Heydər Əliyevin yenilməz iradəsi, zəkası sayəsində dünyaya günəş kimi doğdu. Yenə də hörmətli akademikin təbirincə desək, "Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özünə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur".

Akademik Ramiz Mehdiyev "Frannklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi, Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir" fikriylə əslində bütün dünya azərbaycanlılarının, o cümlədən, dünyanın ən görkəmli dövlət xadimlərinin, siyasətçilərin münasibətini ümumiləşdirilmiş şəkildə ifadə edir. Bu baxımdan ki, həqiqətən də "Heydər Əliyev 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Liderdir" (Mehriban xanım Əliyeva).

Təbii ki, belədir. Bu, danılmaz bir haqdır. O da danılmaz bir haqdır ki, Heydər Əliyev epoxası təkcə

dövlət quruculuğu, iqtisadi-siyasi inkişaf, qlobal layihələrin gerçəklikləriIə tarixiləşmədi, Heydər Əliyev epoxası daha çox Azərbaycan insanının daxili müvazinətini, şəxsiyyət bütövlüyünü formalaşdırdı. Heydər Əliyev epoxası Azərbaycanın milli kadr potensialını formalaşdırdı. Onun siyasi məktəbinin yetirmələri bu dahi şəxsiyyətlə çiyin-çiyinə, xüsusi bir əzmkarlıqla yeni, müstəqil Azərbaycanın inkişaf etdirilməsinə böyük əmək sərf etdilər, ulu öndərin yaxın, etibarlı silahdaşları kimi dövlətçiliyimizə sədaqətli oldular.

Təbii ki, bu sırada akademik, Azərbaycan Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin xüsusi, tarixi yeri var. Möhkəm iradəsi, dönməz siyasi əqidəsi, idarəetmə peşəkarlığı ilə xüsusi maraq doğuran şəxsiyyət kimi onun fəaliyyətinin tarixi əhəmiyyəti var. Bütün bu keyfiyyətlərin ümumi məcmusunu, görkəmli akademikin portret cizgisini bircə sözlə ifadə etmək mümkün olsa, təbii ki, yada düşən ilk söz "sabitlik" və "vəfadarlıq" olar.

Eradan əvvəl VI əsrdə yaşamış qədim çin filosofu Konfutsi belə şəxsi keyfiyyətin formalaşma mərhələsini xarakterizə edərək yazırdı: "İnsan əsrini aydın dərk edəndə onda əhvali-ruhiyyə sabitləşir. Əhvali-ruhiyyə sabitləşəndə ürəkdə dinclik qərar tutur... Ürəkdə dinclik olanda insan öz işini həyata keçirməyə qadir olur..."





Bütün fəaliyyəti dövründə ulu öndərin fundamental siyasi məktəbinin böyük dərsini parlaq, yetkin düşüncə ilə əxz edən, sabit və dönməz idarəetmə qanunlarını əsas götürən akademik Ramiz Mehdiyevin ən başlıca keyfiyyətini öz əsrini aydın dərk etmək bacarığı təşkil etməsi mübahisəsizdir. Məhz bu yüksək keyfiyyətinə görə, Lao Tszın sözümüzün əvvəlində istinad etdiyimiz fikrində deyildiyi kimi, dövlətin içində hərc-mərclik, anarxiya yarandığı məqamlarda siyasi meydanı dolduran hər cür hakimiyyət hərislərinin əksinə olaraq Ramiz Mehdiyev dövlətçiliyimizin başı üstünü ən müxtəlif səviyyələrdə təhlükə aldığı məqamlarda gəmini sonacan tərk etməyən kapitanın – ulu öndər Heydər Əliyevin yanında qala bildi, öz müdrik ustadının ideallarının gerçəkləşməsinə ürəkdən dəstək verdi.

Danılmaz bir reallıqdır ki, akademik Ramiz Mehdiyev Heydər Əliyev idarəetmə sisteminin yetişdirdiyi ən aparıcı, fenomen şəxsiyyətlərindən biri olaraq həmişə radikal müxalifətin daha çox göz altına aldığı, hədəf seçdiyi siyasi fiqur olmuşdur. Hakimiyyətdaxili münasibətləri siyasi intriqalar müstəvisinə çəkmək istəyən radikal müxalifət müstəqillik dövrümüzün ayrı-ayrı məqamlarında məqsədli olaraq Ramiz Mehdiyev faktoru üzərinə daha qabarıq şəkildə yerimiş, onun siyasi portretini kölgələmək cəhdində olmuşlar. Jurnalist Nailə Mütəllimovanın "Azadlıq"

qəzetinin 19 fevral 2000-ci il tarixli sayında çap edilən, sonralar "İlham Əliyev bu günün və gələcəyin uğur faktorudur" toplusunda yer alan məqaləsi bu dediklərimizi bütün aydınlığı, eyni zamanda da qabarıqlığı ilə ifadə etməkdədir. Məqalə müəllifi yazır: "Müşahidəçilər hesab edirlər ki, Ramiz Mehdiyev açıq olmasa da hakimiyyət mübarizəsinə başlayıb. Belə olan halda hesab etmək olar ki, o, həm də hakimiyyətə hazırlaşan İ.Əliyevlə mübarizəyə girişib. Prezident Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovsa belə hesab etmir. Onun fikrincə İ.Əliyev – R.Mehdiyev münasibətlərinin gərginliyi barədə deyilən və yazılanlar jurnalist təxəyyülünün məhsuludur. "Deyilənlərin əsası yoxdur". Ə.Həsənov deyir ki, komandanı parçalamaq üçün əvvəlcə adamları bir-birindən şübhələndirirlər: "Ramiz Mehdiyevin adı da ona görə hallandırılır". Ə.Həsənov söhbətə xeyli optimist notlarla son vurdu: "Hakim komanda arasında nifaq salmaq müxalifətə nəsib olmayacaq".

Tarix Əli Həsənovun bu dəqiq və qəti mülahizəsini yüzdə-yüz təsdiq etdi. Aradan keçən tam 12 il vaxt müddətindən sonra ulu öndərin anadan olmasının 89-cu ildönümünə həsr edilmiş konfransdakı çıxışı zamanı hörmətli akademikin diqqətə çatdırdıqları eyni dərəcədə də Əli Həsənovun cənab İlham Əliyev və Ramiz Mehdiyev münasibətlərinin şəffaflığı barəsində söylədiklərini bütün parametrləri ilə sübut





edir. Həmin çıxışdan gətirilən ayırmalar bu şəffaf münasibəti bir daha göz önünə gətirir: "Heydər Əliyev öz xalqının taleyində müstəsna rol oynayan, Vətənin ağır günündə onun imdadına yetişən, müqəddəs xilaskarlıq və quruculuq missiyasını üzərinə götürərək çətin və keşməkeşli mücadiləsini qələbə ilə başa vuran siyasət dahilərindən biridir. Bu böyük şəxsiyyətin adı Azərbaycan tarixinə, xalqımızın yaddaşına haqlı olaraq, milli xilaskar kimi əbədi həkk olunmuşdur. Azərbaycanın dövlət müstəqilliyinin və unitar dövlət varlığının qorunub saxlanması, xalqın gələcək taleyini təhdid edən təhlükələrin siyasi uzaqgörənliklə aradan qaldırılması ümummilli liderin danılmaz tarixi xidmətidir. Azərbaycan xalqına öz milli dövlətində əmin-amanlıq şəraitində, azad və müstəqil yaşamaq haqqını təmin etmiş Heydər Əliyev siyasi kursunun bu gün birmənalı şəkildə dəstəklənməsi də, ilk növbədə, bu amillə bağlıdır.

Heydər Əliyev siyasi fəaliyyətində və dövlət idarəçiliyində klassik və müasir anlamda dövlət quruculuğunun təməl prinsiplərinə, eyni zamanda, zəngin şəxsi təcrübəyə əsaslanırdı. Kritik situasiyaların doğru-düzgün qiymətləndirilməsi və çevik siyasi qərarların qəbul edilməsi, dövlət həyatının bütün sahələrini əhatə edən prioritetlərin və strateji hədəflərin müəyyənləşdirilməsi, daxili-xarici amillərin milli maraqlara uyğun məqsədyönlü idarə olunması, göz-

lənilən təhdid və təhlükələrin, dünyada gedən mürəkkəb geosiyası proseslərin proqnozlaşdırılaraq düzgün taktika və strategiyanın seçilməsi Heydər Əliyev dövlətçilik məfkurəsinin başlıca siyasi, ideoloji və nəzəri əsaslarını təşkil edirdi.

Ümummilli lider qısa müddət ərzində xalqın quruculuq enerjisini mədəni-intellektual potensialı, milli mənəvi dəyərləri, təbii-iqtisadi sərvəti milli ideyanın və dövlət maraqlarının reallaşdırılması naminə səfərbər edə bildi. Ölkədə siyasi zərurətə çevrilmiş ictimai-siyasi sabitlik 90-cı illərin ortalarından etibarən təmin edildi ki, bununla da gələcək uğurların əsası qoyuldu. Azərbaycan dövlətinin milli-siyasi suverenliyini qoruyub saxlaması, xarici və daxili siyasət sahəsində inamlı addımlar atması onun beynəlxalq mövqelərinin güclənməsinə və xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunmasına təkan verdi.

1994-cü ilin sentyabrında "Əsrin kontraktı" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin və Heydər Əliyev siyasətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi. Məlumdur ki, əvvəlki hakimiyyətlərin dövründə də Azərbaycan neftinin dünya bazarına çıxarılması təşəbbüsləri olmuş, lakin son dərəcə problematik xarakterli bu məsələnin çözülməsi üçün edilən cəhdlər bəlli sonluqla fiaskoya uğramışdı. Beynəlxalq güclərin regionda kəsişən və toqquşan si-





yasi, iqtisadi maraqlarının uzlaşdırılması, daxili və xarici təxribatların, təzyiq və basqıların siyasi çevikliklə dəf edilməsi, mürəkkəb və ziddiyyətli geosiyasi vəziyyətin Azərbaycanın milli maraqları xeyrinə dəyişdirilməsi yalnız Heydər Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində mümkün oldu. Bu taleyüklü hadisə ölkəmizin dünyada nüfuzunun göstəricisi olmaqla, Azərbaycanın dövlət müstəqilliyinin özünütəsdiq faktı və beynəlxalq təhlükəsizliyinin etibarlı qarantı kimi qiymətləndirilməlidir.

"Əsrin müqaviləsi" ilə reallaşdırılmağa başlayan yeni neft stategiyası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, hazırda Azərbaycan sərmayəsi ilə tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi strateji layihələr bölgədə və dünyada yeni coğrafi-siyasi mənzərənin yaranmasını, beynəlxalq enerji və nəqliyyat sistemində Azərbaycanın mühüm oyunçulardan birinə çevrilməsini təmin etdi. Bununla da milli müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında 90-cı illərin ortalarından növbəti tarixi mərhələ - iqtisadi islahatlar və yüksəliş dövrü başlandı. Qeyd edilməlidir ki, bu gün qlobal transmilli layihələrin reallaşdırılması, bölgədə və dünyada enerji təhlükəsizliyinin təminatı Azərbaycanın iştirakı olmadan mümkün deyildir və bu, ilk növbədə, Heydər Əliyev tərəfindən əsası qoyulan və hazırda da davam

etdirilən neft strategiyasının uğuru kimi qəbul olunmalıdır.

Məhz bu siyasi kursun davamı olaraq 2003-cü ildən etibarən Azərbaycanda yeni inkişaf strategiyası həyata keçirilir. Prezident İlham Əliyevin daxili və xarici siyasəti nəticəsində son 10 ilə yaxın bir müddətdə ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda ciddi yeniliklər və nailiyyətlər əldə olunmuş, Azərbaycan bir çox parametrlər üzrə sürətlə inkişaf edən ölkəyə çevrilmişdir".

Bu deyilənlərlə tanış olduqca görkəmli akademikin Heydər Əliyev dühasına heyrət ediləcək dərəcədə dərin bələdçiliyi, bu dahi siyasətçinin siyasi irsinə və layiqli varisinə göstərdiyi ehtiramı bütün aydınlığı ilə göz önünə gəlir. Xüsusi rəğbət doğuran cəhət ondan ibarətdir ki, R.Mehdiyev bu dediklərini, siyasi sədaqətini, insani münasibətini sabit, şəffaf, dəyişməz fəaliyyəti ilə ortaya qoyur. Bütün məqamlarda onun şəxsi təmkini, dözümlülüyü danılmaz fakt olaraq qalır.

Çin filosofu Yan Çj nəql edir ki, bir nəfər həkimin yanına gəlib xəstələndiyini bildirir. Həkim xəstəliyin əlamətlərini soruşur. Həmin adam cavabında bildirir ki, öz icmamda tərifi şöhrət, tənəni təhqir hesab etmirəm. Heç bir müvəffəqiyyət və ya uğursuzluq məni dəyişmir və s.





Həkim qarşısındakı adamı diqqətlə dinlədikdən sonra deyir: "Siz ən böyük müdrikliyi xəstəlik sayırsınız!"

Tam səmimiyyətilə demək olar ki, bütün siyasi opponentləri akademik Ramiz Mehdiyevin sabit, dəyişməz mövqeyinin, idarəetmə prosesindəki dözümlü, ardıcıl, təmkinli durumunun son dərəcə vacib, zəruri mahiyyətini fəhm edə bilmədikləri üçün yeri gəldi-gəlmədi onun bu üstün cəhətlərinə kölgə salmağa cəhd ediblər.

***

"İdrak üçün fəlsəfə, fəaliyyət üçün fəzilət həmişə, bütün məsələlərdə və bütün şəraitlərdə mənim ən vacib hesab etdiyim komponentlərdir" fikrini görkəmli filosof Mişel Montenin yazdıqlarından oxumuşam, eyni dərəcədə də bu zəruri komponentlərin dahi ictimai-siyasi xadim, akademik Ramiz Mehdiyevin fəaliyyətini dolğun şəkildə əhatə etdiyinin fərqində olmuşam. İstər çalışdığı mühüm dövlət vəzifəsi sahəsində müşahidə edilən səbr və sabitliyinin, istərsə də ən aktual, elmi-nəzəri əhəmiyyət kəsb edən problemlərlə bağlı vaxtında (məhz vaxtında) irəli sürdüyü, nəzəri əsaslarını ortaya qoyduğu fikirlərinin fundamentallığı fikir yürütməyə imkan verir ki, bu görkəmli filosofun zəngin ömür yolunu əxz edib, ondan faydalanasan. Hesab edirəm bu gərəkli faydalanma müstəvisində nail oluna biləcək ilk mənfəət səbrli və səbatlı olmaq





zənginliyinə sahiblənmək olacaq.

"Səbir"in Allahın adlarından biri olması gerçəkliyi islam dinində dönə-dönə təsbit olunub. Görkəmli filosof Ziyəddin Göyüşov səbr və səbat anlayışlarının zəruri məqamlarını incələyərkən haqlı olaraq yazırdı ki, səbir və səbat baş vermiş xüsusi şəraiti təmkinlə təhlil edə bilmək, bu və ya digər hərəkətin mümkün nəticələrini qabaqcadan ölçüb-biçə bilmək qabiliyyətidir.

Bu vacib qabiliyyət akademik R.Mehdiyevin ömür yolunun ana xəttini təşkil edir. Bütövlükdə belə demək mümkündür ki, bu müdrik insan, görkəmli dövlət xadimi öz səbrinin və səbatının bir arada ortaya qoyduğu abidədir. Bu abidə ilk baxışdan bir qədər soyuqqanlı, sabit görünə bilər, ilk baxışdan bu şəxslə aranda dəfolunmaz bir sədd-sərhəd keçilməzliyi dayandığını fəhm edə bilərsən... Ancaq onun zəngin, mənalı tərcümeyi-halını daban-dabana izləyən dövlətə və dövlətçiliyə sədaqətlilik faktına nəzər yetirdikcə, dərin fəlsəfi görüşlərinin ifadəçisi olan kitablarını oxuduqca, tutarlı elmi və fəlsəfi dəlillərlə əsaslandırılan məqalələrinə nəzər yetirdikcə üz-üzə dayandığın reallığın diqtəsini nəzərə almaya bilmirsən. Sanki qədim Şərq mütəfəkkirlərindən birinin söylədiyi bu fikirlər məhz akademik R.Mehdiyevin dilindən səsləndirilib: "Mənim ruhum hava ilə dolu bir şüşəyə bənzər. Bu şüşə heç zaman həyat mənbəyi olan oksigendən

məhrum qala bilməz. Şüşənin içindəki havanı müxtəlif vasitələrlə istədiyiniz qədər boşaltmağa çalışın. Yenə içərisində bir az oksigen qalır. Ruhumun canına can verən mənəvi oksigen də ümiddir. Ruhumu nə qədər boşaltsanız da içində bir az ümid qalar. Ətrafında nə qədər boğucu rüzgarlar əsirsə əssin, bu ruzigarlar içərisində böyük fırtınalar gizləyən qasırğalar nə qədər şiddətli olursa olsun, bu sərt rüzgarları birər-birər ruhumdan keçiriniz. Heç birisi orada işıldayan ümid çırağını söndürə bilməz... Ümid ruhumun zəruri ehtiyaclarındandır ki, bir bitki necə ki, qidasız, işıqsız və havasız yaşaya bilməz, mənim ruhum da ümidsiz yaşaya bilməz!"

İstisnasız demək olar ki, həmişəyaşıl ağaclar fəsillərin aramsız dəyişən ahənginin necəliyindən asılı olmayaraq dəyişmədikləri kimi, akademik Ramiz Mehdiyev bütün dönəmlərdə istər dövlət idarəçiliyi sahəsində, istərsə də zəngin elmi-fəlsəfi fəaliyyəti zəminində həmişə öz səbr və səbat hücrəsinə sadiq qalıb, özünəməxsus təmkinini hifz edə bilib, müdrikliyini qoruyub. Hər bir türk insanının fəlsəfi fikir babalarından biri sayılan Mövlanə Cəlaləddin Ruminin "Ya olduğun kimi görün, ya göründüyün kimi ol!" kəlamının əsl mahiyyəti bu görkəmli alimin həyat və fəaliyyət durumunu bütün anlamıyla qapsayır.

Göründüyün kimi olmağın təsdiqi əslində "olduğun kimi görün"məyin tərs üzüdü. Yəni, göründüyü





kimi olmayanlar olduğu kimi də görünə bilməzlər. Bu əksilik, əslində əksiklik hər an, elə ilk baxışdaca istehza doğuracaq bir çılpaqlıqla ortada qala bilər. Olduğun kimi görünə bilməyin, görünə bildiyin qədər olmağın böyük, aydın yolu iradə möhkəmliyindən keçir. Qədim dövrün əxlaq nəzəriyyəçisi Epiktetin fikri isbatlayır ki, iradənin hürriyyətinə Yupiter belə müdaxilə edə bilməz. "Əsl hürriyyət budur!.. Özünə inan və özündə olanı ara..."

İnanmaq xidmət göstərməyin, silahdaşlıq etməyin kökündə dayanan özül kimidi. Ramiz Mehdiyevin parlaq fəaliyyəti bu inamdan qaynaqlanır. Ona görə ki, o sistemli, dönməz şəkildə həmişə inamlı, qətiyyətli şəxsiyyətlərə arxalanıb, onların yanında olub, daha dəqiq desək, "zəmanəmizin yetişdirdiyi nadir dövlət xadimlərindən biri olan, Azərbaycanın ən çətin anlarında Vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş" (İhsan Doğramacı) ulu öndər Heydər Əliyev həqiqətlərinə qəlbən inanıb, bu həqiqətlərin gerçəkləşməsi istiqamətində biliyini, təcrübə və sədaqətini səfərbər etməkdən usanmayıb. Akademik Ramiz Mehdiyevin qəti inamıdır ki, məhz "Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməli və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi, şəkkakların əksinə olaraq, o, bəyan etdi ki, biz bu tənəzzüldən çıxacağıq, ümumi böhrana son qoyacağıq, milli müstəqilliyi və

dövlət müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəyik, ölkə iqtisadiyyatını qaldıracağıq, hüquqi dövlət və demokratik cəmiyyət quracağıq. Azərbaycanın sivilizasiyalı və çiçəklənən ölkə olacağına onun bəslədiyi sarsılmaz inama indi dövlətimizin bütün layiqli vətəndaşları şərikdirlər".

Milli düşüncə, əxlaq salnaməmizin "mürşid – mürid" vəfadarlığını etibarlı şəkildə özündə ehtiva edən çox dəyərli örnəklər var. Şəms Təbrizi – Mövlanə Cəlaləddin Rumi, Fəzlullah Nəimi – Seyyid İmadəddin Nəsimi yaşamı tarixin "mürşid – mürid" bağlılığına olan ibrətamiz ehtiramının simvolu kimi qiyaslandırılır. Bu mənada son dövr tariximizin yaddaş kitabından dahi siyasətçi, fenomen şəxsiyyət Heydər Əliyevin ustad siması bütün əzəməti ilə keçir. Ustad dərsini ulu öndərdən alan, onun zəngin təcrübəsini, idarəetmə ənənəsini fəaliyyətlərinin bünövrəsində məhək daşı bilən dövlət xadimləri sırasında akademik Ramiz Mehdiyevin daim öndə olan, görünən yeri var. Bunu gündəlik fəaliyyətlərinin sabitliyindən görür, elmi-nəzəri fikirlərindən əxz edir, oxuyuruq: "Heydər Əliyev... ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi və bununla da Azərbaycan tarixində öz misilsiz yerini bəri başdan müəyyənləşdirdi. Həmin taleyüklü günlərdə onun tükənməz enerjisi, nikbinliyi və milli amallara sadiqliyi – bütün bu şəxsi keyfiyyətləri, əslində, milli





dirçəliş konsepsiyasının həyata keçirilməsi üçün tam səfərbər olunmuşdu".

Sözügedən tarixi dövrdə "zaman və hadisələr, həyatın özü tələb edirdi ki, kimsə öz xalqına inamı qoruya, ölkəni viranedici fəlakətdən xilas edə bilsin" və akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi məhz öz məqamında "Heydər Əliyev ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi".

Bu deyilənlər Azərbaycanın çağdaş idarəetmə müstəvisində xüsusi yeri olan, böyük idarəetmə təcrübəsinə malik, müdrik bir siyasətçinin təkzibedilməz fikirləridir. Eyni zamanda da bütün münasibətlərin, fikir ucalığının iç dünyasında etibarlı silahdaşını, ustad-yetirmə haq-sayından qaynaqlanan ehtiram hissi qabarıq görünməkdədir. Akademik Ramiz Mehdiyev doğru qeyd edir: "Heydər Əliyev dövrünə müraciət edən istənilən tədqiqatçı belə bir suala cavab tapmalıdır ki, dövlətçiliyimizin çoxəsrlik tarixində nə üçün məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəsna yer tutur..."

Təbii ki, hörmətli akademik hələ 2004-cü ildə çap etdirdiyi "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı çox dəyərli təhlili məqaləsində xüsusi olaraq vurğulanan "belə bir suala" tutarlı dəlillərlə cavab verir, Heydər Əliyevin müasir Azərbaycan adlandırdığımız bir

məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilməsinin konkret məqamları üzərində peşəkarlıqla dayanır. Qeyd edir ki, "Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı... Heydər Əliyevin siyasətinin öncül qayəsi ümummilli dəyərlərin bərqərar edilməsidir... Heydər Əliyev, ilk növbədə, milli özünüdərki sovet ideologiya sisteminin buxovlarından xilas edə bilmişdi... Heydər Əliyev başa düşürdü ki, millətin siyasi müstəqilliyinin əsasını onun iqtisadi azadlığı şərtləndirir... Heydər Əliyev həmişə bu fikirdə olmuşdur ki, konkret işlər nəzəri mülahizələrdən qat-qat vacibdir" və s.

Heydər Əliyevi yeni tipli siyasi lider kimi dəyərləndirən Ramiz Mehdiyev 2004-cü ildə işıq üzü görən bu əhatəli və məzmunlu məqaləsində ifadə etdiyi fikirləri cəmiyyətə təqdim etdiyi bir vaxtda ölkənin idarə edilməsi prosesində ulu öndərlə çiyin-çiyinə işləyirdi, ulu öndərin qərar və göstərişlərinin dönməz şəkildə həyata keçirilməsində öz bacarıq və imkanlarını əsirgəmirdi. Bu ideallara qəlbən inanırdı. Hörmət doğuran cəhət odur ki, aradan keçən səkkiz ilə yaxın bir vaxt məsafəsində, hətta ulu öndəri cismən itirdiyimiz reallıq durumunda belə o, ustadın parlaq dövlətçilik siyasətini örnək kimi dəyərləndirir, daha uzaq və uğurlu nəticələrə hesablanmış bu siyasi yolun





davamlı, uğurlu olması üçün yenə də eyni qədirbilənlik, ehtiram hissiylə fəaliyyət göstərir.

Bütün bu deyilənlər böyük bir qədirbilənliyin, vəfadarlığın danılmaz, dərin hörmətə layiq etirafıdır. "Etiraf və vəfa isə ləyaqətin ölçüsüdür".

Bu deyilənlər akademik Ramiz Mehdiyevin bütöv, dəyişməz, birmənalı şəxsiyyət obrazını, "onda da belə idim, belə düşünürdüm, indi də həmin fikirdəyəm, eyni ehtiramın daşıyıcısıyam, dövlətə, dövlətçiliyə, onun rəmzlərinə eyni sədaqətlə xidmət edirəm" məramını bütün aydınlığı ilə ortaya qoyur.

Tarix elmləri doktoru, professor Seyfəddin Qəndilov doğru yazır ki, Heydər Əliyev irsini sistemli şəkildə öyrənmək sahəsində fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin tədqiqatları böyük maraq doğurur və mühüm əhəmiyyət kəsb edir: "Onun 23 may 2003-cü il tarixində "Bakinskiy raboçiy" qəzetində dərc etdirdiyi "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı dərin məzmunlu yeni əsəri bu yolda atılmış növbəti uğurlu addımdır... Əsərin ən dəyərli cəhətlərindən biri və Heydər Əliyev haqqında indiyə qədər yazılanlardan fərqlənməsi ondan ibarətdir ki, müəllif peşəkar filosof təfəkkürü ilə Heydər Əliyevin Azərbaycanın çoxəsrlik tarixində xüsusi yer tutmasının mahiyyətini, onun səbəblərini məharətlə açıb göstərir və bunu konkret faktlarla əsaslandırır. Tam bir

epoxanı özündə təcəssüm etdirən nadir şəxsiyyətin siyasi portretini hərtərəfli açmaq üçün bu çox vacib amildir. Əsərdə buna xüsusi diqqət yetirilmişdir".

Bu dəyərli əsərlə bağlı fikirlərini bölüşərkən "Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov da öz haqlı müşahidələrini xüsusi razılıq hissilə diqqətə çatdırır: "R.Mehdiyev bu əsərdə konkret nümunə əsasında vətəndaşın şəxsiyyətə, sonra isə liderə çevrilməsi prosesini də tədqiq etmiş, elmi cəhətdən əsaslandırmışdır" ("Azərbaycan" qəzeti, 13 iyul, 2003).

Əsər haqqında maraqlı fikir və mülahizələrini çap etdirən İradə Əliyeva, Rafiq Məmmədov, Zeynal Vəfa, Flora Xəlilzadə və başqaları da qeyd edirlər ki, akademik R.Mehdiyev bu maraqlı elmi əsərdə "Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü şərtləndirən mühüm cizgiləri inandırıcı və maraqlı faktlarla oxucuya çatdırır".

Akademik Ramiz Mehdiyev bu əsərdə dərin inamla bəyan edir ki, Heydər Əliyev irsi dünya siyasi elminin qiymətli nailiyyətinə çevriləcək. "Azərbaycan" qəzetinin əməkdaşına 2004-cü ildə verdiyi müsahibəsində (3 yanvar) o, öz inamının qaynaqlandığı mənbəni böyük vətəndaşlıq və vəfadarlıq duyğusu ilə dilə gətirir, vurğulayır ki, "hər bir Azərbaycan vətəndaşını, ailəsini varlı, qayğısız və xoşbəxt görmək Heydər Əliyevin böyük arzusu idi. O, Azərbaycanın





müstəqilliyinin, dönməzliyinin, torpaqlarımızın bütövlüyünün, suverenliyinin təmin edilməsi arzusu ilə yaşayırdı. Bu işlərin görülüb başa çatdırılması bizim hər birimizin mərhum Heydər Əliyevin ruhu qarşısında ən əsas xidməti olacaqdır".

Təsadüfi deyil ki, bu lakonik və proqram xarakterli müsahibə dərc edilən kimi, bir çox tanınmış ziyalılarımız öz fikir və düşüncələrini bölüşmüş, Samir Elmanoğlu, Validə İsmayılova və başqaları sözügedən müsahibədən Heydər Əliyev kursuna növbəti etimad faktının ifadəçisi kimi bəhs etmişlər.

Bütün məqalə, çıxış və müsahibələrindən aydın görünür ki, akademik Ramiz Mehdiyev bir şəxsiyyət olaraq hər cür dönüklüyə, ikifikirliliyə, qeyri-ciddi münasibətlərə qarşı barışmazdır, məsul olduğu, daşıdığı vəzifə başında heç bir iş görməyən, işigücü ora-bura telefon açıb baş girləmək olan başabəla kadrlara Ramiz Mehdiyevin münasibəti Əbdürəhman Vəzirov haqqında olan bir xatirəsində tam aydınlığı ilə özünü büruzə verir: "Vəzirov mənə özü danışırdı ki, Heydər Əliyev onun Pakistanda səfir olmasına necə kömək edib. Vəzirov Kremlə onun qəbuluna gəlib, yalvar-yaxar edib: "Mən Nepaldan başqa yerə dəyişilmək istəyirəm, orada daha işləyə bilmirəm. Əgər mümkünsə, Qromıkodan xahiş edin, məni Pakistana səfir keçirsinlər".

Heydər Əliyev dəstəyi götürüb SSRİ xarici

işlər naziri ilə danışır. Qromıko ona cavabında deyir:

- Mən artıq başqa adamın namizədliyini Siyasi Büroya təqdim etmişəm, bir neçə gündən sonra onu təsdiq etməlidirlər. Bir halda ki, xahiş edirsiniz, fikirləşərəm. onu yanıma göndərin.

Vəzirov deyirdi ki, getdim Xarici İşlər Nazirliyinə, girdim nazirin kabinetinə. Qromıko heç ağzımı açmağa qoymadı:

- Bura bax, sənin barəndə mənə Heydər zəng vurmuşdu. Başa düşdün, Heydər zəng vurmuşdu!

- Bəli, Andrey Andreyeviç, o, mənim yanımda sizə zəng vurmuşdu.

- Deməli, belə. Mən artıq Siyasi Büroya bu vəzifəyə namizəd təqdim etmişəm, ancaq Heydərin zəngindən sonra qərarımı ləğv etdim və təqdimatı geri götürdüm. Öz adamlarıma tapşırmışam, onlar yeni təqdimat hazırlayırlar. Pakistanda səfir vəzifəsinə səni təqdim edəcəyik.

Yeri gəlmişkən, nə vaxtsa Vəzirova xarici ölkəyə konsul kimi getməyə məhz Heydər Əliyev kömək etmişdi. Ümumiyyətlə, onun vəzifə dəyişmələri ayrıca söhbətin mövzusudur. Vəzirovu ÜİLKGİ MK-nın katibi vəzifəsindən azad edəndən sonra o, "göydən asılı" qaldı. Heydər Əliyev danışırdı ki, ona Sov.İKP MK-nın təşkilat şöbəsindən zəng vurub deyirdilər: "Onu öz yanınıza, Bakıya aparın". Heydər Əliyev deyir: "Bura baxın, o uzun illər Moskvada





işləyib, yəni siz ona bir iş tapa bilmirsiniz?" – "Yox, - deyirlər, - götürün onu özünüzə".

Heydər Əliyev Vəzirovla görüşüb onun məsələsini həll edəcəyinə söz verir. Moskvanın belə inadkar xahişindən sonra daha nə etməliydi ki?

Bu görüşün harada baş tutduğu, Bakıda ya Moskvada, yadımda deyil, ancaq məğzi bundan ibarət idi: "Əbdürəhman, sənə Azərbaycanda işləməyi təklif edirlər, Moskvada sən heç bir vəzifə ala bilməyəcəksən. Sənə kömək etməyə çalışdım, ancaq Moskva sənin Azərbaycana keçməyinə təkid edir. Harada işləmək istəyərdin?

- Bakı Şəhər Partiya Komitəsinin birinci katibi olmaq istəyirəm.

Heydər Əliyev təəccüblənir:

- Bizim şəhər partiya komitəsinin katibini dəyişmək fikrimiz yoxdur. Nəsə başqa şey təklif elə.

- Onda Sumqayıta birinci katib.

- Axı, biz orada da katibi dəyişməyə hazırlaşmırıq. Ancaq Kirovabadda rəhbəri dəyişmək vaxtı yetişib, səni oraya şəhər komitəsinin birinci katibi göndərə bilərik...

Onun Gəncədə necə işlədiyini yaşlı nəslin nümayəndələri indiyə qədər gülə-gülə yada salırlar. Arvadı ilə parka rəqs etməyə gəlməsini, kirovbadlılara "şortı" geymək öyrətməsini... Onun ov zamanı adam ölümü ilə nəticələnən bədbəxt hadisədə guya əli ol-

masını da söyləyirdilər. Bir sözlə, ondan ciddi iş bacaran olmadı. Günlərin bir günü o, Heydər Əliyevin qəbuluna gəlib yalvardı:

- Orada daha bacarmıram, mənə Bakıda iş verin.

Qərəz, Büroda məsləhətləşdilər və ona Mərkəzi Komitənin sənaye şöbəsinə müdir vəzifəsi təklif etdilər. Çox məsuliyyətli vəzifədir, özü də respublika sənayesinin qızğın inkişaf etdiyi bir vaxtda. O vaxt Mərkəzi Komitə katibi Həsən Seyidov idi. Vəzirov özünü bu vəzifədə də doğrultmadı. O, bütün günü kabinetində oturub... ingilis dili öyrənməklə məşğul idi. Onun müavini Markina Polina İvanovna adlı sadə, zəhmətkeş qadın idi, işdən başqa həyatında heç bir şeyi yox idi. Əbdürəhman bütün işi onun üstünə atmışdı. Sənayenin, əmək kollektivlərinin problemləri, müəssisələrin inkişaf perspektivləri, bu sahə üçün kadr hazırlanması və s. Bütün bunlar onun əsas işi idi. Lakin o, belə ağır yükün altına girməyə öyrəşməmişdi. Onu daha çox öz yan-yörəsi, moskvalı dostları ilə görüşmək, ingilis dili ilə məşğul olmaq, boş söz-söhbət maraqlandırırdı. Həsən Seyidov narazılığını tez-tez bildirirdi: "O işləmir, bütün günü telefon əlindən düşmür, saatlarla hökumət hesabına Moskva ilə danışır, vaxt öldürür". Nəhayət, Seyidov Vəzirovun şöbə müdiri vəzifəsindən azad edilməsi barədə Heydər Əliyevin qarşısında məsələ qaldırdı. Lakin H.Əliyev





məsələnin həllini uzadırdı, çünki onun karyerasını "sındırmaq" istəmirdi, ümid edirdi ki, nəhayət, ağıllanar və işdən yapışar.

Bir dəfə Vəzirov özü növbəti xahiş üçün birinci katib Heydər Əliyevin yanına gəldi.

- Xarici İşlər Nazirliyi sistemində mənə iş vəd edirlər... Bu məsələdə mənə kömək edin.

Heydər Əliyev mat qaldı:

- Axı niyə dinc otura bilmirsən? MK-da o cür vəzifə tutursan, respublikanın bütün sənayesinə kuratorluq edirsən. Özün də gəlmisən ki, "konsul".

- Bacara bilmirəm, Heydər Əliyeviç, – Əbdürəhman yenə də yalvarmağa başladı. – Diplomatik işə keçmək istəyirəm, Allah xatirinə kömək edin!

Bir sözlə, Heydər Əliyev başa düşdü ki, onu yola gətirmək mənasızdır, heç lazım da deyil; o, respublikanın həyatına uyğunlaşa bilmirdi, yalquzaq kimi gözü meşədə idi. Dildən pərgardır, ancaq həqiqi, ciddi iş görməkdə səriştəsi yoxdur, öyrənməyə də həvəs göstərmir. Vəzirova xas olan yüngüllük, yelbeyinlik ona sanballı, ciddi rəhbər kadr olmağa imkan vermirdi.

Heydər Əliyev SSRİ XİN-i əlaqə yaradıb Vəzirovun diplomatik işə keçməsinə köməklik göstərdi.

Beləliklə, təxminən 70-ci illərin ortalarında Vəzirov Bakıdan getdi. 12 ildən sonra, Qorbaçovun iradəsilə Azərbaycana qayıdan bu fərsiz insan doğma

vətəninə saysız-hesabsız bədbəxtliklər gətirəcəkdi..." (*Elmira Axundova: "Heydər Əliyev, şəxsiyyət və zaman (1982-1990)". Səh – 691-694.*)

Göründüyü kimi, Ramiz müəllim bu kiçik xatirəsi boyunca daşıdığı məsul vəzifənin məsuliyyətini nəzərə almadan dəyişkən münasibəti, hərdəmxəyallığı və qeyri-ciddiliyilə istehza doğuran dövlət məmurunun xarakterini heç bir qeyri-etik ifadəyə yol vermədən təqdim edə bilib. Bu xatirədə şəxsiyyəti təhqir edən hər hansı məqam belə yoxdu, sadəcə olaraq bir məmurun davranış məqamlarının təfərrüatları söylənilib. Bu təfərrüatların məntiqində sözügedən məmurun xarakter özəllikləri kifayət qədər aydınlığı ilə verilib. Ötən əsrin 70-ci illərinin ortalarında Bakıdan gedən, 12 il sonra bədnam Qorbaçovun iradəsilə Azərbaycana qayıdan o fərsiz insanın doğma vətəninə saysız-hesabsız bədbəxtliklər gətirməsi acı kədər hissilə diqqətə çatdırılır. R.Mehdiyev içdən gələn bir həssaslıqla nəzərə çatdırır ki, həqiqi, ciddi iş görməkdə səriştəsi olmayan, öyrənməyə də həvəs göstərməyən, özünəməxsus yüngüllüklə idarəetmə sükanında əyləşən, əslində əyləşdirilən bu cür rəhbərlərin vətəninə və xalqına hədsiz-hesabsız bəlalar gətirəcəyi qaçılmazdır. Öz dövlətinin gələcəyi qarşısında tarixi məsuliyyətini dərk etməyən insanlara, eləcə də dövlət strukturlarında yer tutan şəxslərə qarşı R.Mehdiyevin münasibəti həmişə birmənalı şəkildə





sərt olub.

1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı baş verən durumu əhatəli şəkildə əks etdirən "Qəsd" toplusunda yer alan "Azərbaycanın gələcəyi qarşısında tarixi məsuliyyəti hamı dərk etməlidir" başlıqlı müsahibəyə nəzər salıram. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri R.Ə.Mehdiyev ona ünvanlanan sualları cavablandırdığı bütün məqamlarda diqqəti bir əsas mətləbə yönəldir ki, idarəetmə sistemində gözü olan hər bir şəxsin iddiaları ilə bacarıqları, arzuları ilə imkanları bir-birinə uyğun gəlməlidir, belə olmasa, bunun ağrısını xalq çəkməli olur: "Ciddi, obyektiv, arqumentli söhbətlərdə amillərə istinad etmək cığallıq yolu seçmiş opponentlərin peşəsidir. Belə adamların sınanmış bir prinsipi var – məsələni özünə lazım gələn kimi yazır, yalana həqiqət donu geyindir, sənin yalanlarının yalan olduğu sübuta yetincə bir çoxlarının şüurunda həqiqət kimi qalacaq..."

R.Mehdiyev adıçəkilən müsahibəsində doğru olaraq vurğulayır ki, özündən müştəbeh, hər hansı idarəetmənin ən aşağı pilləsində təcrübə keçməyən şəxslərin hakimiyyəti idarə etmələri sözün ən yumşaq anlamında, taksi sürücüsünün qırıcı təyyarəni və ya kosmik gəmini idarə etmək iddiasına bənzəyir.

Bir anlıq tarixə nəzər salaq – 1994-cü ilin Oktyabr, 1995-ci ilin mart hadisələrinin bədnam "qəhrə-

manları"nın idarəetmə səriştəsi məhz hörmətli akademikin nəzərə çatdırdığı taksi sürücülərinin kosmonavt olmaq arzularının boyuna biçilmişdi.

Əqidə, mövqe dönüklərinin siyasi portretlərini R.Mehdiyev ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışının ilk illərində (1993-1994, oktyabr) Baş nazir vəzifəsində çalışmış Surət Hüseynovun simasında aydın şəkildə təqdim edir: "Surət Hüseynov sərbəst, öz başı öz əlində olan adam deyildi. Xalq arasında "qəhrəman, igid, səxavətli, Azərbaycanı Qarabağ bəlasından qurtara biləcək xilaskar" imici yaradan xarici düşmən qüvvələr onu idarə edirdilər. Surət Hüseynova o qədər "maya" qoyulmuşdu ki, onun hər əmri müti itaətkarlıqla yerinə yetirməkdən başqa heç bir əlacı yox idi. Vətənə, xalqa qarşı satqınlığın nümunəsinə çevrilmiş əldəqayırma "polkovnik"in yeganə bir kişi yolu qalmışdı – intihar. Amma o, üzüqara şəkildə, yeni tapşırıqların kölə icraçısı kimi ağalarının qoltuğuna sığındı..."

Təbii ki, təkcə S.Hüseynov yox, həmin illərdə "Azərbaycana qarşı planlaşdırılmış qəsdlərin icraçıları" olan Ayaz Mütəllibov da, Rəhim Qazıyev də, Vaqif Hüseynov da, Əlikram Hümbətov da məhz bu yolu tutdular. Təbii ki, bu insanların sonradan vahid bir məqsəd ətrafında birləşmələrinin kökündə, R.Mehdiyevin qeyd etdiyi kimi, "milli dövlətçiliyə zidd və antiiqtidar qüvvələrin vaxt qazanaraq səfərbər olunmasına şərait yaratmaq" dayanırdı.





(Yeri gəlmişkən, hələ 28 noyabr 1993-cü il tarixdə Respublika sarayında Azərbaycan Prezidenti Heydər Əliyevin sədrliyi ilə keçirilən Ümumxalq toplantısında çıxışı zamanı akademik Ramiz Mehdiyev 3-4 Oktyabr hadisələrinin obyektiv qiymətini verərək qeyd etmişdir ki, cəmiyyət Oktyabr hadisələrinə birdən-birə gəlib çıxmamışdır: "Şübhəsiz, bu hadisələr cəmiyyətin son illərdə keçdiyi zəngin, mürəkkəb və ziddiyyətli inkişaf kontekstindən kənarda götürülə və qiymətləndirilə bilməz... Oktyabr hadisəələri "Heydər – Xalq, Xalq – Heydər" birliyinin yenilməzliyini bir daha təsdiq etdi... Həmin böhranlı günlərdə Xalq və onun Prezidenti bütün dünyaya nümayiş etdirdilər ki, qədim dövlətçilik ənənələrinə, çoxəsrlik mədəniyyətə malik olan Azərbaycan xarici qüvvələrin əlində oyuncaq deyil. Onun yüksək şüura malik xalqı və böyük siyasi nüfuza malik olan dövlət başçısı var").

R.Mehdiyevin bu müsahibədə səsləndirdiyi aşağıdakı fikirlər onun siyasi yetkinliyini, hadisələrə düzgün münasibətinin çevrəsini bütün aydınlığı ilə göz önünə gətirir. Məlum Oktyabr hadisələri zamanı milli barışıq təklifi ilə çıxış edən ayrı-ayrı sülhsevər ziyalılardan, sıravi vətəndaşlardan fərqli olaraq öz məkrli niyyətləri arxasında gizlənən satılmış qüvvələrin cinayətkar qrupla dövləti danışıqlar aparmağa çağırmaqda hansı məqsədi güdmələri belə aydınlaşdı-

rılır: "Məqsəd aydın idi: dövlətin gücsüzlüyünü və zəifliyini boynuna qoymaq, əhali arasında iqtidarı quldurlarla sövdələşməkdə suçlandırmaq... Fitri istedadı dünyanın siyasi xadimləri tərəfindən dönə-dönə etiraf edilmiş H.Əliyevi belə təzyiqlərlə və belə ucuz gedişlərlə haldan çıxarmaq heç kəsə nəsib olmayıbdır..."

Hələ 17 il bundan əvvəl 1995-ci ilin mart hadisələrinin dolğun siyasi qiymətini verdiyi bu əhatəli, dərin məntiqə söykənən müsahibəsində R.Mehdiyev cəmiyyətə səslənirdi ki, "Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsindən, dərin təfəkküründən, biliyindən, dünyagörüşündən və fitri siyasətçi istedadından istifadə edərək milli dövlətçilik ənənəsinin etibarlı bazasını yaratmalıyıq. Onu da unutmamalıyıq ki, bu mexanizmin paslanmaması üçün dövlətçilik təfəkkürünə malik, mühafizəkarlıq psixologiyasından uzaq olan, dünyada gedən ictimai-siyasi prosesləri milli zəmində qavramağı bacaran kadrlar gərəkdir. Nə qədər çətin və ağır olsa da, bu problemi biz həll etməliyik. Bunun üçün Azərbaycanın gələcəyi qarşısında tarixi məsuliyyəti hamı dərk etməlidir. .."

Hələ 1632-1677-ci illərdə yaşayıb-yaratmış holland filosofu Spinoza Barux öz fəlsəfi görüşlərini ümumiləşdirərək məhz bu qənaətə gəlmişdi ki, ən yüksək fərəh və rifah həqiqəti dərk etməkdir. Görünür, tarixin müəyyən mərhələlərində cəmiyyətin taleyi qar-





şısında məsuliyyət hissilə üz-üzə qalan bütün böyük fikir adamları ən etibarlı istinad nöqtəsi olaraq məhz həqiqəti dərk etmək zərurəti üzərində dayanmış və bu nicat qapısını cəmiyyətin üzünə açmağı özlərinin tarixi missiyaları kimi qəbul etmişlər.

Müxtəlif siyasi, dini əqidəyə, fərqli baxışlara mənsub olan insanları, ümumən bəşəriyyəti yalnız həqiqətin dərki bir araya gətirə bilər. Yalnız həqiqətin dərki insanları bir-birinə bağlaya bilər. Bütün siyasi müttəfiqliyin, siyasi əlaqələrin kökündə eyni həqiqəti qəbul edə bilmək mədəniyyəti, əxlaqı dayanır. Qədim yunan tarixçisi Fukidid (e.ə.460-400-cü illər) də qətiyyətlə "siyasi əlaqələr qohumluq əlaqələrindən möhkəmdir" qənaəti üzərində daha israrla dayanırdı. Bu baxımdan akademik Ramiz Mehdiyev "Azərbaycanın gələcəyi qarşısında tarixi məsuliyyəti hamı dərk etməlidir" səslənişiylə əslində öz böyük ustadından, siyasi yolgöstərənindən – dahi siyasətçi Heydər Əliyevdən əxz etdiklərini, mənimsədiklərini ortaya qoymuş olur, yaranmış vəziyyətdən çıxış yolu aramaqda böyük müəllimiylə həmfikir olduğunu ifadə edir.

Xalq yazıçısı Anarın "Gecə düşüncələri"ndən oxuduqlarımı xatırlayıram: "Bizim ölkəmizdə azadlıq probleminin açılmayan düyününün mahiyyəti hər şeydən əvvəl onda ifadə olunur ki, rus xalqı azad olmasa, say etibarilə azlıq təşkil edən digər xalqlar da

azad olmayacaqdır. Ancaq rus xalqı yalnız o zaman azad olacaqdır ki, digər xalqlar azad olsun. Yadıma gəlir, Portəgizin o zamankı prezidenti Suareş Bakıda "Gülüstan" sarayındakı qəbulda öz tostunda nə qədər sadə və elementar olsa da, çox dərin bir fikir söyləmişdi – Portəgiz totalitar rejimdən Salazarın çökdüyü zaman yox, öz müstəmləkələrindən imtina edəndə qurtuldu". Bu fikri sosializm ideologiyasının fikir babalarından olan Marksın daha əvvəllər, daha anlaşıqlı şəkildə ifadə etdiyi də məlumdur: "Digər xalqları əsarət altında saxlayan xalq özü azad deyil..."

Tam doğru fikirlərdir. Eyni zamanda bu fikirləri bir az dar çərçivədə dövlət idarəetmə sisteminə də şamil etmək olar. Yəni, dövlətin azadlığı onun idarəetmə aparatını təşkil edən komandanın milli və demokratik dəyərlərlə çalışmasından daha çox asılıdı. Dövlət o zaman tam mənasında azad olur ki, onun kadr potensialı bu böyük nemətin dəyərinə hesablanır, kölə, qul psixologiyasına sahiblik edən kadrlara idarəetmə sistemində yer qalmır. Eyni dərəcədə də səbatsız, küt, burnunun ucundan o yanı görə bilməyən, "sürücü ikən təyyarə sürmək arzusuna düşən" siyasi oyunbazlar səhnədən çəkilib gedirlər. Bu zərurəti bütün parlaqlığı ilə önə çıxaran akademik Ramiz Mehdiyev hələ ötən əsrin sonlarında milli dövlətçilik ənənəsinin etibarlı bazasını yaratmaq üçün "bizə dövlətçilik təfəkkürünə malik, mühafizəkarlıq psixo-





logiyasından azad olan, dünyada gedən ictimai-siyasi prosesləri milli zəmində qavramağı bacaran kadrlar lazımdır" fikriylə əslində ən çox vacib, gərək olanı söyləyirdi. Və yaxşı bilirdi ki, bu vacib siyasətin əsasını özünün də dönə-dönə vurğuladığı kimi, "Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payı" olan Heydər Əliyev hələ ötən əsrin ortalarından başlayaraq Azərbaycanın dövlət təhlükəsizliyi orqanlarına rəhbərlik etdiyi, az sonra – 1969-cu ildən başlayaraq ölkəmizdə siyasi rəhbərliyin sükanı arxasına keçdiyi ilk günlərdən qoyub. Ona görə ki, R.Mehdiyevin xüsusi olaraq diqqətə çatdırdığı kimi, "Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü". "Milli oyanış problemləri Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər idi".

Ulu öndərin milli kadr yetişdirmək sahəsində hələ ötən əsrin ortalarından başlayan mücadiləsinin dəyərini xüsusilə qiymətləndirən R.Mehdiyev bu siyasəti "yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünə bilmək" qüdrəti kimi dəyərləndirir: "O, gənclərə çox böyük diqqət yetirilirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi əvvəllər görünməmiş sürətlə gedirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının

yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elm və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi..."

R.Mehdiyev bütün bunlardan dərin qədirbilənlik hissilə, xüsusi ehtiramla söz açır, ulu öndərin hələ Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi kimi fəaliyyətə başladığı ilk illərdən milli oyanışımızla bağlı xüsusi bacarıq və peşəkarlıq, eyni dərəcədə də böyük vətəndaşlıq hissilə həyata keçirdiyi möhtəşəm layihələri yada salır. Vurğulayır ki, qısa vaxt ərzində Heydər Əliyev milli ruhun inkişafına təkan verən ana dilində təhsil almaq ideyasını gerçəkləşdirdi, hələ 1970-ci illərin əvvəllərində respublikada ali məktəblərin sayını 12-dən 17-yə çatdıra bildi, böyük əzmkarlıqla Cəmşid Naxçıvanski adına məktəbi yaratdı, hətta Moskva və Leninqrad jurnallarında çap etdirmək mümkün olmayan "dissident" məlumatlar Bakı mətbuatında işıq üzü görə bildi, məhz Heydər Əliyevin qətiyyəti sayəsində görkəmli siyasi xadim Nəriman Nərimanovun bütün əzəmətilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılması reallaşdı, onun haqqında film ekranlara çıxarıldı, 1972-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyi keçirildi, Bakıda əzəmətli abidəsi ucaldıldı. "Sovet rəhbərliyinin





bəzi dairələrində Azərbaycan SSRİ-nin geridə qalmış ucqar əyaləti olması barədə yaranmış təsəvvürü Heydər Əliyev özünün yorulmaz təşkilatçılıq və siyasi fəaliyyəti ilə qısa müddətdə aradan qaldıra bildi". Məhz onun qayğısı nəticəsində milli ədəbiyyatımızın, dramaturgiyamızın və incəsənətimizin dünyada tanıdılması prosesi geniş vüsət aldı.

Akademik bu tarixi mərhələnin dəyərini əsl vətəndaş heyranlığı və təəssübkeşliyi ilə şərh edir. Bildirir ki, məhz Heydər Əliyevin dönməz fəaliyyəti nəticəsində 1972-ci ilin aprelində görkəmli humanist şair İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsi barədə qərar qəbul edilməsini, elə həmin ildə Azərbaycan Dövlət Konservatoriyasının yarımə-srlik yubileyinin keçirilməsini, üç il sonra dahi bəstəkar Üzeyir Hacıbəyli yubileyinin Bakıda və Moskvada böyük təntənə ilə qeyd olunmasını, eyni zamanda Bakıda təntənəli şəraitdə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənət Muzeyinin açılmasını, Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Aşıq Ələsgərin 150 illiyi münasibətilə möhtəşəm yığıncağın keçirilməsini, 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyinin qeyd edilməsini və s. reallaşdırmaq dövlət rəhbərindən böyük vətəndaşlıq hissi, əzmkarlıq və xüsusi nüfuza malik olmaq istedadı tələb edirdi. Həmin ildə bir çox görkəmli səhnə ustalarımızın SSRİ xalq artisti fəxri adına, bir qrup dilçi alimin Dövlət

Mükafatına layiq görülməsi, az sonra Dilçilik İnstitutunun yaradılması, 1975-ci ildə Bakıda görkəmli şair Səməd Vurğunun ev muzeyinin açılması, 1976-cı ildə Moskvanın böyük Teatrında ustad şairin 70, İttifaqlar Evinin sütunlu salonunda Müslüm Maqomayevin 90, Bakıda Əcəmi Naxçıvaninin 850, bir il sonra görkəmli opera müğənnisi Şövkət Məmmədovanın 80, 1978-ci ildə Qara Qarayevin 60 illik təntənəli yubileylərinin keçirilməsini, Q.Qarayevə elə həmin il Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail olmağı akademik R.Mehdiyev ulu öndərin İttifaq miqyasındakı şəxsi nüfuzu ilə bir arada təqdim edir. Aşağıda deyilənlərə nəzər salmaq kifayət edər ki, Ramiz Mehdiyevin ulu öndər Heydər Əliyevin respublikamıza ilk dəfə rəhbərlik etdiyi illərdə təkcə ədəbiyyat və mədəniyyət sahəsində gördüyü işləri necə yüksək dəyərləndirdiyinin və bu sahəni dərindən bilməsinin şahidi olasan. Görkəmli akademik yazır: "1978-ci ilin sentyabr və oktyabr aylarında Ukraynada və Böyük Britaniyada mədəniyyət və incəsənət xadimlərimizin böyük bir qrupunun iştirakı ilə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1979-cu ilin yanvarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı xüsusi qərar qəbul edilir və geniş tədbirlər planı təsdiq olunur. Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət





ustalarının İsveçdə konsertləri böyük uğurla keçir.

1980-cı ilin fevralında isə böyük Azərbaycan şairi Nizaminin abidəsinin təntənəli açılışı olur...

...1980-ci ilin noyabrında bir qrup Azərbaycan alimi və mədəniyyət xadimi SSRİ Dövlət Mükafatına layiq görülür. Dekabrın sonları Azərbaycanın xalq artisti Qurban Pirimovun anadan olmasının 100 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Bir neçə ay sonra – 1981-ci ilin martında görkəmli aktyor və rejissor Hüseynqulu Sarabskinin anadan olmasının 100 illiyi qeyd olunur. Həmin il iyunun 11-də Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsi, iyulun 21-də isə Hüseyn Cavidin 100 illiyinin qeyd olunması barədə qərarlar qəbul edilir. Avqustda isə Bakının mərkəzindəki ən gözəl binalardan biri milli-mənəvi sərvətlərimizin qorunub-saxlandığı Respublika Əlyazmalar Fonduna verilir.

Elə həmin vaxt, avqustda dahi Nizami Gəncəvinin 840 illik yubileyinin, görkəmli astronom və filosof Nəsirəddin Tusinin anadan olmasının 780 illiyinin və Aşıq Alının 180 illiyinin keçirilməsi haqqında qərarlar imzalanır.

Bir neçə ay sonra tanınmış yazıçı Mirzə İbrahimovun 70 illiyi münasibəti ilə təntənəli yığıncaq olur. Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Nizami Gəncəvinin yubiley gecəsi keçirilir. Noyabrda N.Tusinin 780 illiyinin, dekabrda isə görkəmli maa-

rifçi və ədib Abdulla Şaiqin 100 illiyinin qeyd edilməsi respublikanın o vaxtkı həyatında yaddaqalan hadisələr olur".

Göründüyü kimi, ulu öndərin rəhbərlik dövrünə məxsus tariximizin az qala hər ayına, gününə, ilinə dərin bələdçilik bu yazılanlarda öz geniş əksini tapıb. Təbii ki, görkəmli akademik haqqında söz açılan bu möhtəşəm tədbirlərin demək olar ki, əksəriyyətinin hazırlanması, məlumat toplanması, sistemləşdirilməsi işində aparıcı xidmət göstərib, ulu öndərin göstəriş və sərəncamları əsasında bu işlərin böyük əksəriyyəti bilavasitə onun rəhbərliyi ilə həyata keçirilib. Həmin tədbirlərin belə möhtəşəm, əhatəli keçirilməsində hörmətli akademikin böyük təcrübəsinin, realist münasibət və əməyinin əvəzsiz olması şəksizdi. Təbii ki, bu proseslərin sistemli şəkildə reallaşması üçün ulu öndərin güvəndiyi, etibar etdiyi layiqli çiyindaşlara, onun etimadını layiqincə doğruldan silahdaşlara böyük ehtiyac var idi. Akademik Ramiz Mehdiyevin sədaqətli, güvəniləsi, etibar ediləsi dövlət xadimi, dərin zəkalı filosof, Heydər Əliyev idarəetmə məktəbinin ən mükəmməl yetirmələrindən biri olaraq bu proseslərdə yaxından iştirak etməsi bu gün onun tərcümeyi-halının ən parlaq səhifələri kimi göz önünə gəlir. Bu gün dünya miqyasında yeni tipli siyasi lider kimi qəbul edilən Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərin ən etibarlı, ən məlumatlı ensk-





lopediyası məhz akademik Ramiz Mehdiyevdir desək heç də yanılmarıq.

Tarixçilər, o cümlədən, Sam Mirzə Şah İsmayıl Xətainin sarayında Xacə Cəlaləddin Təbrizi, Mahmud xan Deyləmi və Şah Mir Deyləmi kimi yüksək idarəetmə qabiliyyətinə malik şəxsiyyətlərin çalışdığını və bu şəxslərin dövlət başçısının həyata keçirmək istədiyi layihələrin gerçəkləşməsində müstəsna xidmətləri olmasını ehtiramla qeyd edirlər.

Məşhur vəzir, "Siyasətnamə" müəllifi Nizamül -Mülkün ölkənin ictimai-siyasi həyatındakı nüfuzu bütün dönəmlərdə xüsusi maraqla öyrənilir.

Teymurləngin yaxın məsləhətçilərindən olan İbn Xəldunun (1332-1406) vaxtilə siyasi həyatın və dövlətin əmələ gəlməsi və inkişafı nəzəriyyəsini işləməklə, tarixdə ilk dəfə dövlətlə onun iqtisadiyyatı arasındakı əlaqənin elmi izahatını verməklə islam və ərəb dövlətinin tarixinə göstərdiyi xidmət hələ də öyrənilməkdədir.

Şərqin böyük filosofu Nəsirəddin Tusinin Səlcuqi hökmdar Hulakunun arzu və istəklərinin gerçəkləşdirilməsi istiqamətində həmrəyliyi haqqında hələ də ibrətamiz hekayətlər söylənilməkdədir.

Görkəmli şair Molla Pənah Vaqifin qarabağlı İbrahim Xəlil xana idarəetmə sahəsində göstərdiyi sadaqətli xidməti haqqında tarix kitablarında, bədii ədəbiyyatımızda çox zəngin bilgilər var.

Öz siyasi ustadına, özündən öndəki birinci şəxsə ləyaqətlə, xüsusi ehtiram və sədaqətlə xidmət etməyən, onun yolunu sevərək, xüsusi bir heyranlıqla yaşatmayan şəxslərin aqibəti istər tarix kitablarından, istərsə də çağdaş dövrümüzün məlum olaylarından yaxşı tanışdı. Lap yaxın keçmişimizdə baş vermiş hadisələr Azərbaycanın müstəqilliyini puça çıxarmağa, onu müstəqillik yolundan döndərməyə, bu yolla irəliləyişinin qarşısını almağa, ölkəmizin daxili ictimai-siyasi sabitliyini pozmağa çalışan bu cür insanların siyasi savadsızlığını, milli satqınlığını bütün aydınlığı ilə ortaya qoydu və bu olaylar çoxlarına görk oldu. Bir daha yaddaşlara həkk olundu ki, kim öz xalqının ictimai-siyasi maraqlarını, arzu və istəklərini irəli apara bilmirsə xalq da tarixin böyük gələcəyinə onunla birlikdə qədəm basmır, onu dəstəkləmir, xalqına xidmət etməyi bacarmayanlar xalqın nifrət dənizində boğulmağa məhkumdur. Xalq həmişə dövlətçiliyin, dövlətə sədaqətli şəxsiyyətlərin yanında olub, onları istinad nöqtəsi kimi dəyərləndirib və uğurlarının təminatçısına dönməkdən qürur hissi keçirib.

Dövlət və dövlətçilik həmişə siyasi əlaqələri qohumluq əlaqələrindən üstün tutan, siyasi baxışların vəhdətinə güvənən şəxsiyyətlərin fədakar fəaliyyəti sayəsində möhkəmlənib. Bu sistemin aparıcı qüvvələri öz siyasi liderlərinin iradəsini, dövlətçilik əzmini düzgün qiymətləndirməyi bacarmalıdırlar, fəaliyyətinin





çoxşaxəli istiqamətlərinə yetərincə vaqif olmalıdırlar.

Akademik Ramiz Mehdiyevin idarəetmə fəaliyyətinin mənzərəsini göz önünə gətirdikcə onun xarakterinin və iş üslubunun heyrət doğuracaq tutumuna münasibətsiz qala bilmirsən. Ən azından ona görə ki, görkəmli akademik elmi-fəlsəfi fikirlərində çox sərrast, istinad etdiyi məxəzlərin mənbəyinə vaqif olan şəxsiyyətdir. O, görülən işin mahiyyətini dəqiq qiymətləndirə, təkzibedilməz mövqeyini vaxtında ortaya qoya bilir.

Ramiz Mehdiyev deyəndə ki, Heydər Əliyev öz əbədiyaşar ömür yolu ilə Azərbaycanın, onun bu gününün və gözəl gələcəyinin təcəssümüdür – biz onun səmimiyyətinə, əslində hər bir Azərbaycan insanının yekdil fikrini bütün dolğunluğu ilə ifadə etməsinə qəlbən inanırıq. Ramiz Mehdiyev haqlıdır ki, yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır: "Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəklər..."

Ramiz Mehdiyev nəzərə çatdıranda ki, "Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə və bəsitliyə son qoya bilmişdi" – biz ona inanırıq. Ona görə ki, biz özümüz də bu tarixi şəxsiyyətin müasirləri olaraq baş verən tarixi olaylara şahidlik etmişik. Ramiz Mehdiyev nəzərə çatdıranda ki, "1993-cü ilin

iyununda, Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı" – qəlbimizin bütün səmimiyyətilə onunla həmrəyliyimizi bildiririk. Ona görə ki, həmin dövrdə ölkəni sonu görünməyən xaosa, anarxiyaya sürükləyən hadisələrin vahiməsini bütün ölkə boyu yaşayanların sıra nəfərləri olmuşuq.

Akademik Ramiz Mehdiyev bəyan edəndə ki, "1969-1982-ci illərdə Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır" – yenə də bütün düşüncəmizlə onun yanındayıq. Bunun məhz belə olmasını yenə də R.Mehdiyevin öz fikirləri isbatlayır: "O illərdə Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən misilsiz xidmətlərindən biri Sibir düşərgələrində həlak olan filosof-şair Hüseyn Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Bakıya gətirilməsi və Naxçıvanda doğma torpağa tapşırılması olmuşdur. Sonralar onun məzarı üzərində məqbərə ucaldılmışdı. Bu addım təkcə xalqımızın mədəniyyət salnaməsinə düşmüş bir hadisə deyil, həm də sovet gerçəkliyində görünməmiş və mümkün ola bilməyən hadisələrdəndir. Təsadüfi deyil ki, xarici müəlliflərin bir çoxunun geniş mənbələrə əsaslanan kitablarında bu fakt son dərəcə müfəssəl şərh olunur, o cümlədən, Azərbaycanın müstəqilliyə can atmasının məhz başlanğıcı kimi vurğulanır.





Görülən bütün bu işlər Azərbaycan xalqına öz ədəbiyyatı və mədəniyyətinin klassiklərini, böyük tarixi şəxsiyyətlərini daha yaxşı tanımağa, mədəni sərvətlərini və dəyərlərini qoruyub saxlamağa imkan vermişdir. XX yüzilliyin 1969-1982-ci illərində Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır. Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi və idarəçilikdə geniş işlənməsi, demək olar, bütün böyük klassiklərin yubileylərinin İttifaq miqyasında keçirilməsi, Nəsimiyə, Cabbarlıya, Nərimanova abidələr ucaldılması, Azərbaycan mədəniyyətinin Sovet İttifaqında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri və s. – bütün bunlar Heydər Əliyev siyasətinin əməli nəticələridir. Böyük Vətəndaş bu fəaliyyəti son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirirdi..."

R.Mehdiyev diqqətə çatdırmaqda haqlıdır ki, "milli oyanış problemləri Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər idi.

Bu konsepsiyanın həyata keçirilməsinin başlıca təkanverici qüvvəsinin Azərbaycan mədəniyyətinin, ədəbiyyatımızın, xüsusilə, poeziyamızın önə çıxarılması olduğunu uzaqgörən dahi siyasətçi yaxşı fəhm etmişdi. Ona görə də "Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yarat-

mışdır ki, bu, sərbəst düşünməyə və milli-mənəvi idealların bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi". Akademik Ramiz Mehdiyevin dediyi kimi, Heydər Əliyevin sözə münasibəti də çox həssas idi, o, "sözün həm yerini, həm də gücünü bilirdi".

Akademik Ramiz Mehdiyevin son dərəcə dəqiq, unikal müşahidəsidir ki, "Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur..."

Bu, kökdən gəlib, kökə gedən bir ənənədir. Bir az əvvəl də qeyd etdiyimiz kimi, qüdrətli Səfəvi hökmdarı Şah İsmayıl Xətai görkəmli dövlət başçısı və yenilməz sərkərdə, eyni dərəcədə də zərif, kövrək insan, mütəfəkkir bir şair idi. Bununla belə, onun məsləkinə qoşulan, hürufiliyi qızılbaşlıq ilə birləşdirməyə cəhd edən Sürurі və Tüfeyli kimi şairlər onun yanında idilər. Yüksək rütbəli vəzirlərindən Xacə Cəlaləddin Təbrizi, Mahmud xan Deyləmi və Şah Mir Deyləmi həm də yüksək təbli şairlər kimi tanınırdılar. Fəxri və Mövlana Dükəddin Şirazi, Kişvəri kimi tanınmış şairlər Şah İsmayılın adına məsnəvi tərzində kitablar yazmışdılar, şair Susami onu mədh etmişdir.

Söz sənətimizin qüdrətli ustası Nizami Gəncəvi Atabəy Məhəmmədlə, Qızıl Arslanla və digər tərəqqipərvər dövlət xadimlərilə məktublaşır, onların adına poemalar həsr edirdi.





Şərqin böyük filosofu Nəsirəddin Tusi eyni dərəcədə də zərif şeirlər müəllifi kimi xatırlanır. Eyni dərəcədə də Qazi Bürhanəddinin adı poeziya antologiyalarından həm də qüdrətli şair kimi keçir.

Xalq qəhrəmanı Koroğlunun Misri qılıncının arxasında onun poetik sözü dayanır.

*Hoydu, dəlilərim, hoydu,*
*Yeriyin düşmən üstünə.*
*...Mən özüm Aslan paşanın,*
*Hərəniz bir xan üstünə.*

Bütövlükdə, Azərbaycanın ictimai-siyasi, mənəvi fikir tarixində həmişə hökmdar – şair obrazı bir müstəvidə dayanıb, biri o birinin yaşarılığını təmin edib, biri düşüncədə, biri real həyatda arzulanan azad cəmiyyətin, müstəqil dövlətçiliyin bayraqdarı olub. Bu iki böyük abidənin qoşa dayandığı anda tariximiz toxtaq, qürurlu olub.

Öz xalqının mədəniyyətinin, söz xəzinəsinin zənginliyinə dərindən bələd olan, "Öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də xalqın milli ruhunun dirçəldilməsində görən" Heydər Əliyevin həmişə şair və yazıçılarımızın yanında olması bu böyük ənənədən gəlirdi. Ulu öndərin şeirə-sənətə, şair və yazıçılara xüsusi qayğısını sistemli şəkildə incələyən və bu münasibəti yüksək qiymətləndirən

Ramiz Mehdiyev 1993-cü ilin olaylarından söz açaraq yazır: "Ölkə müharibənin od-alovu içində idi. Buna baxmayaraq, Prezident andiçmə mərasimindən cəmi 20 gün sonra xalq şairi Məmməd Arazın yubiley gecəsində iştirak etdi. O, bunu onunla izah etdi ki, Məmməd Araz Azərbaycan xalqının milli özünüdərkinin təşəkkülündə müstəsna xidməti olan qələm sahiblərindən biridir.

Heydər Əliyev mədəniyyət və ədəbiyyat xadimlərimizin arasında üç söz ustasının – Bəxtiyar Vahabzadənin, Məmməd Arazın və Xəlil Rzanın adlarını çəkərək deyir: "Dövlətimiz müstəqil dövlətdir, formalaşır, onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat – "İstiqlal" ordeni təsis olunub. Bu orden birinci kimə çatmalıdır? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götür-qoy etmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bizim görkəmli şəxsiyyətlərimizə çatmalıdır.

Bu şərəfə, ilk növbədə, görkəmli şəxsiyyətlərimiz layiq görülməlidirlər. Buna görə də mən dünən fərman verdim və hörmətli şairlərimiz Bəxtiyar Vahabzadə, Məmməd Araz və mərhum Xəlil Rza (həmin vaxt Bəxtiyar Vahabzadə və Məmməd Araz yaşayıbyaradırdılar - G.) Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə bu ordenlə təltif olunublar. Hesab edirəm ki, düzgün addım atmışam. Düşünürəm ki, xalqımız, ictimaiy-





yətimiz bunu bəyənəcəkdir".

Bu, müstəqil dövlətçiliyimiz uğrunda inadlı mübarizə yolunda inamla addımlayan dövlət başçısı ilə onun sadə qələm adamları arasındakı haq-sayından, qədirbilənlik hissindən irəli gələn yüksək bir münasibətdi. Akademik Ramiz Mehdiyev də məhz bu vacib məqama diqqət yetirərək xüsusi olaraq vurğulayır ki, "Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur. Bunu yadda saxlayaq. Bu, ədəbiyyatın dərsinin vətəndaşlıq dərsinə çevrildiyi haldır".

Tarixi faktlar, baş vermiş olaylar görkəmli akademikin dəqiq qənaətini yüzdə-yüz təsdiqləyir. Akademik Ramiz Mehdiyevin məqaləsindən sitata nəzər yetirək; onun qeyd etdiyi kimi, 1991-ci il fevralın 5-də parlamentin sessiyasında ulu öndərin çıxışından bəzi xarakterik məqamları yada salaq: "...mütəxəssislərdən bir neçəsi mənə dedi ki, 1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kvadrat kilometr olub. İndi isə 86 min kvadrat kilometrdir. Gör əlimizdən nə qədər torpaqlar gedib... Burada soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa Ermənistana torpaq verilməyib. Mən

buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. Viktor Polyaniçko dedi ki, 1977-ci ildə Dağlıq Qarabağ məsələsi qalxmışdı. Bəli, qalxmışdı. Lakin biz o hərəkətlərin qarşısını dərhal aldıq..."

Ramiz Mehdiyevin məqaləsindən növbəti sitat: "1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin Sessiyasında Heydər Əliyevin çıxışının bəzi məqamlarına diqqət edək: "...Yetmiş il bizim respublikamız Oktyabr inqilabı bayrağı altında yaşayıb. Biz o bayraqdan imtina etdik. Yeni bayraq qəbul etdik. O, 1918-ci ildə yaranmış ilk Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı?..

...Bəziləri respublikamızın müstəqil, ittifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə, onların ittifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır...

Bu təbliğat əsassızdır... Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni ittifaq müqaviləsindən imtina etməsinə daha çox əsas var... Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin edilə bilər. Fəqət, nəyin bahasına olursa-olsun,





biz buna nail olmalıyıq...

... Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğma torpaqlarını göz-bəbəyi kimi qorumalıdır.

Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır.

Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Yenidən Ramiz Mehdiyevin məntiqli şərhinin üzərinə qayıdırıq: "Bu, Heydər Əliyevin yeni mərhələdə siyasi platformasının, gələcək fəaliyyət proqramının əsas prinsiplərini özündə aydın əks etdirən bəyanatı idi. Həmin sessiyada bütün Azərbaycan rəhbərliyi ayağa qalxaraq, onu susdurmağa cəhd göstərdi. Bu cəhd baş tutmadı. Heydər Əliyev öz siyasi platformasının müddəalarını xalqa çatdırmağa, böhrandan çıxış yolları barədə fikirlərini ifadə etməyə müvəffəq oldu".

Bəli, bütün bunlar çox dəqiq ifadə olunub. Eyni zamanda danılmaz həqiqətdir ki, o zaman məhz milli düşüncəmizin, ziyalılığımızın simvollarından biri kimi tanınan xalq şairi Bəxtiyar Vahabzadə Heydər Əliyevin yanında idi. Və sayəsində vəzifə tutub, yüksək dövlət işlərinə irəli çəkilən, lakin zamanın sınağından çıxa bilməyib, dünənki haq-saya arxa çevirən nakəslər Heydər Əliyevin bu parlaq platformasını

açıq-aydın etirazla qarşılayanda məhz şair Bəxtiyar Vahabzadə həmin siyasi manqurtları haqlı qınağıyla yerinə oturtdu.

Az keçməmiş Azərbaycan Yazıçılarının Qurultayı öz işinə başladı. Heydər Əliyev həmin qurultaya fəxri qonaq kimi dəvət olundu və həmin o tarixi günlərdə AYB-nin sədri, xalq yazıçısı Anar başda olmaqla xalq şairləri Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Mirvarid Dilbazi, Fikrət Qoca, Qabil, eləcə də Rəfiq Zəka Xəndan, Məmməd Aslan və başqaları ulu öndərin yanında idi. Eyni zamanda Xəlil Rza Ulutürkün, Rəfiq Zəka Xəndanın, Minayə Əliyevanın Heydər Əliyevin ölməz portret cizgilərini, qalibiyyətə hesablanmış mübarizə yolunu tərənnüm edən poema və şeirləri mətbuata ayaq açmağa başlamışdı. Tanınmış yazıçı Xeyrəddin Qoca dahi siyasətçinin əfsanəvi idarəçilik məktəbindən bir sərvət kimi bəhrələnməyin vacibliyindən yazırdı.

Ulu öndər Heydər Əliyev xalqın iradəsi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdı. Yenə də onun ideoloji – siyasi platformasının bayraqdarları Azərbaycanın tanınmış söz adamları oldu. 4 Oktyabr hadisələri zamanı Heydər Əliyevin xalqa müraciətindən dərhal sonra Prezident Aparatının qarşısında keçirilən mitinqdə xalq şairi Cabir Novruzun səsi birinci eşidildi: "Prezidentimizin ekrandan həyəcanlı səsi eşidildi, o səs hamını ayağa qaldırdı. O, xalqa bəyan





edirdi ki, şəhərdə qiyamçılar baş qaldırıblar, dövlətə çevriliş etmək fikrindədirlər. Respublika prokurorluğu zəbt edilib. Gəncəbasar mahalında çaxnaşmadır. Qiyamçıların möhkəm silahlanmış böyük bir qismi Prezident sarayına basqın etməyə hazırlaşır.

... Mən son üç onillikdə Heydər Əliyev barədə yüzlərlə böyük, kiçik şəxslərin, dünyanın ictimai xadimlərinin, rəhbərlərin, qələm sahiblərinin, müdriklərin, sadə zəhmət adamlarının, doğmaların, yadların yüksək fikir və qiymətlərinin, eləcə də bəzi riyakarların, nalayiq yaltaqların boğazdan yuxarı şit, qeyri-səmimi, məqsədli yarınmaq üçün dedikləri tərifləri, təəssüf ki, tənqidləri də az eşitməmişdim. Heç şübhəsiz ki, Heydər Əliyev fenomeni haqda hələ bizdən sonra da çox deyib, çox yazacaqlar.

Heydər Əliyev barədə 4 Oktyabr gecəsinin qaranlığında reklam üçün yox, yalnız qəlbimin eşitməyi üçün dediyi o kişi qeyrətli sözlərdən yüksək tərif təsəvvürümə gətirə bilmirəm. Çünki bu, xalq səsi, başçımıza olan el inamının əks-sədası idi.

4 Oktyabr gecəsi bir daha sübut etdi ki, Heydər Əliyev sözün həqiqi mənasında xalqın Prezidentidir. Elə bir rəhbərdir ki, onun bircə çağırışına milyonlarla adam könüllü surətdə ayağa qalxar, öz başçısını müdafiə edər. Mənə elə gəlir ki, o gecə Heydər Əliyev ömrünün, keşməkeşli həyat yolunun ən işıqlı, ən narahat, bəlkə də ən böyük sınaq gecəsi oldu. Çünki o

gecə Heydər Əliyevə xalq inam və məhəbbət mandatını bir daha, özü də həmişəlik təqdim etdi".

Xalq şairi Cabir Novruzun bu tarixi çıxışı həmin dövrdə əli qələm tutan bütün şair və yazıçıların ən səmimi ürək sözlərini ifadə etməklə yanaşı, akademik Ramiz Mehdiyevin son dərəcə dəqiqliklə ifadə etdiyi "Heydər Əliyev ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur" fikrini bütün parlaqlığı ilə ifadə edir.

Eyni zamanda deməyi borc bilirik ki, tarix özü görkəmli akademikin öz fikrində nə qədər haqlı olduğunu dönə-dönə təsdiq edir. 5 Oktyabr 1994-cü ildə Bakı şəhərinin Azadlıq meydanında keçirilən ümumrespublika mitinqində xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın çıxışı Ramiz Mehdiyevin bu dəqiq müşahidəsini bir daha isbatlayır: "Neçə illərdir ki, Azərbaycan xalqı böyük bəlalara mübtəla olub. Xarici qüvvələr elə ediblər ki, xalqın müdrik rəhbəri, sükançısı onun sükanından kənarda qalıb. Dünən Prezidentin çağırışından sonra Yusif Səmədoğlu ilə zəngləşib Prezident Aparatının qarşısına getdik. Gecə mən bir də öz xalqıma görə qürur duydum. Qürur duydum və bir daha başa düşdüm ki, biz ayrı-ayrı tayfalar deyilik, biz vahid bir xalqıq. Bir daha başa düşdüm ki, bu xalqda müxtəlif fikirlər, müxtəlif partiyalar, müxtəlif cərəyanlar ola bilər. Kimsə kimisə bəyənməyə bilər, amma millətin, xalqın





taleyi həll olunan dəqiqədə bütün xalq birləşməyə və öz rəhbərini bir övlad kimi qorumağa hazırdır. Biz bu hissləri keçirəndə bilmirdik ki, hadisələr belə inkişaf edəcək, bilmirdik nə olacaq, bilmirdik bu gecədən necə çıxacağıq. Ancaq bir şeyi bilirdik ki, bizim yerimiz orada, Prezidentimizin yanındadır..."

Həmin tarixi mitinqdə xalq şairi Sabir Rüstəmxanlının xalqı, dövləti, dövlətçiliyi qorumaq naminə Heydər Əliyevin ətrafında sıx birləşməyə çağırması, müstəqilliyi qorumağın vacibliyini dönə-dönə vurğulaması tanınmış Azərbaycan şairinin millətin ruhunu ifadə etməsi cəhdindən, məsuliyyət hissinin dərkindən irəli gəlirdi.

Xalq şairi Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" poeması Azərbaycan şairinin öz dövlət başçısının yanında olması gerçəkliyindən yaranırdı və bütün bunlar Ramiz Mehdiyevin doğru qənaətinin təsdiqi kimi ədəbiyyat tariximizdə yer tutur.

Bu qənaət ilk növbədə bir insan olaraq vətən qarşısında unudulmaz xidmətləri olan tarixi şəxsiyyətlərin haqqına tapınmaqdan qaynaqlanır. Haqqın etirafı zaman-zaman ədəbiyyatın, xüsusilə poeziyamızın aparıcı mövzusu olub.

Bu sətirləri yazıram, istər-istəməz qəlbimin ən səmimi duyğularilə vətəndaşlıq, vətən hissini hər şeydən uca tutan insanlara ünvanladığım şeirimdən misralar düşür yadıma:

Bir vəfa borcum var uca adlara,
Yazaram dağına, daşına sənin.
Kim ki, ürəyini yaxıb odlara
Kim ki, dolanıbdı başına sənin
Kimin cismi, canı, ruhu sənlə tən
Boynumda əbədi haqqı var, Vətən!

Eşqinin odunda, bax, yana-yana
Boğubdu köksündə hicran yasını.
Yaxıb əli ilə telinə həna
Sənə qurban verib öz balasını...
Kim ki mənliyində doğurubdu mən -
Boynumda əbədi haqqı var, Vətən!

Min ildi sananıb yaşı göylərdə,
Sənə keşik çəkib hər gün, hər axşam.
Ayağı torpaqda başı göylərdə,
Kim ki, gumanımda yandırıbdı şam,
Səpilib torpağa, cücərib dən-dən -
Boynumda əbədi haqqı var,Vətən!

Kim ki, səni sevdi, sənə yar oldu,
Kim səni anladı, kim səni andı...
Kimin ki, amalı etibar oldu
Var kimin qəlbində sədaqət andı -
Boynumda əbədi haqqı var, Vətən!





Haqqın zirvəsində durub haqq kimi,
Adı tarixlərdə dağ qalanların...
Ruhu başın üstə çilçıraq kimi,
Ümidi sabaha sağ qalanların
Boynumda əbədi haqqı var, Vətən!

Uğrunda hər kimin qanı tökülüb,
Bir damla göz yaşı axıbsa belə...
Dikəlib son dəfə dar ağacından
Kim sənə "can" deyə baxıbsa belə -
Boynumda əbədi haqqı var, Vətən!

Gələn baharından, qışından belə,
Yalçın zirvələrin qaşından belə,
Döyüş meydanında sipərə dönüb,
Səngərə çevrilən daşından belə
Boynumda əbədi haqqı var, Vətən!

Haqqın zirvəsinə al bayraq kimi
Səni qələbəylə sancmaq həvəsi...
Hər kim tapındısa haqqa haqq kimi,
Yayıldı aləmə kimin hürr səsi
Önündə baş əyib deyirəm ki, mən:
Boynumda əbədi haqqı var, Vətən!

Böyük sınaqlardan çıxıb zəfərlə
Kim sənin yolunda can versə azdır.
Kim ki, "Azərbaycan" deyib hünərlə
Adını əbədi tarixə yazdı...
Kimin ki varlığı, hər bir varı sən -
Boynumda əbədi haqqı var, Vətən!

Ulu öndər Heydər Əliyevin həyatın bütün sahələrilə bağlı fikirləri həmişə qiymətli bir xəzinə, məxəz kimi xalqın yaddaşına həkk olunmuş, xüsusi bir sevgi ilə xatırlanmaqdadır. Onun müdrik kəlamları bir çox sənət əsərlərinin ərsəyə gəlməsinə zəmin yaratmışdır. Məsələn, ümummilli liderin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı hər bir azırbaycanlının fəxrlə xatırladığı möhtəşəm bir kəlamdır. Bu kəlam çoxları kimi mənim də bir qələm adamı olaraq ruhumu dindirdi:

Eşitsin səsimi yer, göy, küllü aləm,
Zaman məni doğan gündən haqqa yaram.
Eşitsin səsimi yer, göy, küllü aləm,
Dünya varkən, həyat varkən mən də varam.

Bir aşiqəm alov donlu, sönməz odum,
Zülmətləri yardı nurum çilik-çilik.
Ölümsüzlük mənim oldu haqq yolunda,
Ürəyimi məşəl etdim əbədilik.





Keçmişimi bilə-bilə çözdü tarix,
Yaddaşına yaraq etdi kimliyimi.
Şəhidlərin qanı ilə yazdı tarix,
Səmalarda bayraq etdi kimliyimi.

Soyum, kökümüm, dilim, dinim, eşqim, andım
Kimliyimdən xəbər verdi hər bir zaman.
Torpaq oldum, suya döndüm, odda yandım,
Səninləyəm deyə-deyə, Azərbaycan.

Sinəm səngər, qolum süngü, köksümdə dağ,
Yenilmədim...budur gücü qüdrətimin.
Kimliyimi başım üstə tutub çıraq,
Hürr səsinə mən səs verdim millətimin.

Vətən ana, vətən yardır, öyünürəm,
Vətən canımda can, vətəncanlıyam.
Öyünməyə haqqım vardır, öyünürəm,
"Mən fəxr edirəm ki, Azərbaycanlıyam".

***

Qanunauyğun haldır ki, akademik Ramiz Mehdiyev ulu öndərin Azərbaycan tarixindəki müstəsna, möhtəşəm yerini yaxşı bilir, bütün aydınlığı ilə qiymətləndirir və qəti əminliklə yazır: "Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun – ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır".

Ramiz Mehdiyev ulu öndərin siyasətinin başlıca, öncül qayəsinin ümummilli dəyərlərin bərqərar edilməsi olduğunu, onun milli özünüdərki sovet ideoloji sisteminin buxovlarından xilas edə bilməsini, iqtisadiyyatla bağlı məsələlərdə belə mənəviyyat





problemlərini heç vaxt diqqətdən kənarda qoymadığını dərin qədirbilənlik hissi ilə qeyd edir, eyni zamanda diqqətə çatdırır: "Heydər Əliyev başa düşürdü ki, millətin siyasi müstəqilliyinin əsasını onun iqtisadi azadlığı şərtləndirir".

Ramiz Mehdiyev haqlı olaraq milli oyanış problemlərini "Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər" kimi dəyərləndirir, dahi siyasətçinin gələcək inkişaf baxımından kommunist sisteminə məhz Heydər Əliyevin qətiyyətlə "yox" deməsini böyük uzaqgörənlik olduğunu önə çəkir. Nəzərə çatdırır ki, "təbiət Heydər Əliyevə nadir keyfiyyətlər – iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir".

Ramiz Mehdiyev qətiyyətlə vurğulayır ki, "Heydər Əliyevin yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmişdir".

Dahi italyan filosofu Makinelli (1469-1527) vaxtilə yazırdı: "İdarə edən şəxs idarəçilik gücünü bütün məqamlar üçün qoruyub saxlaya bilməlidi və qalibiyyəti əldə saxlamağın yolunu əxz etməlidi".

Böyük filosofun qalib idarəetmə düsturu Heydər Əliyevin fəaliyyətinin aparıcı meyarı kimi

dəyərlidi. Xalq yazıçısı Anarın qeyd etdiyi kimi, "O, qalib gəldi, qalib yaşadı və qalib getdi". Bütöv bir məktəb olan bu tarixi şəxsiyyətin ömür yolu haqqında Ramiz Mehdiyevin yazdıqları dərin qədirbilənlik, ehtiram hissi ilə oxunur və səmimiyyətlə qəbul olunur. Eyni zamanda Şərqin böyük filosofu Nəsirəddin Tusinin aşağıdakı müdrik kəlamının gözüylə baxanda biz Ramiz Mehdiyevin fikir və mülahizələrinin fonunda özünün də aydın ziyalı, filosof obrazını görürük: "Hər şeyi özü dərk edən ağıl görkəmli, birincinin söylədiklərini qavraya bilən ağıl əhəmiyyətli ağıldır".

Şərhə ehtiyac yoxdur ki, son dərəcə əhəmiyyətli ağıl sahibi olaraq akademik Ramiz Mehdiyev öz siyasi liderinin, siyasi ustadının fəaliyyət yolunu, parlaq ideyalarını mükəmməl şəkildə dərk edib, qavrayıb və həyat kredosuna, amalına çevirə bilib. Bu bilik, bu vacib münasibət, qabiliyyət və təcrübə ilk növbədə dövlətçiliyimizin irəli aparılmasına, ölkə başçısının yürütdüyü siyasətin gerçəkləşməsinə, həyat faktına çevrilməsinə xidmət etdiyinə görə qürur doğurur.

Bu, hər şeydən öncə ondan irəli gəlir ki, xüsusi siyasi fəhmə malik olan R.Mehdiyev öz ustadının siyasi kursunun onun varisi tərəfindən son dərəcə məharət və uzaqgörənliklə davam etdirildiyinə qəlbən əmindir, eyni zamanda, özü də bu vacib kursun ən öncül dəstəkçisi olaraq xidmət göstərir.





Təsadüfi deyildir ki, akademik Ramiz Mehdiyev "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərinin "Əski dövrün siyasətçisi" bölümündə ulu öndərin layiqli davamçısı cənab İlham Əliyevin fəaliyyətinin parlaq səhifələrindən, onun daxili və xarici siyasətlə bağlı baxışlarından heyranlıqla söz açır, onun idarəçilik metodlarından, vətəndaşla işləmək prinsiplərindən ehtiramla danışır: "İlham Əliyev istedadlı şagird olub və öz müəllimindən, uzaqgörən dövlət xadimi, xarakterində milli ideyalar və prinsiplərə möhkəm sadiqlik, bəsirət kimi keyfiyyətlərin nadir şəkildə birləşdiyi Heydər Əliyevdən çox mühüm dərs almışdır. İlham Əliyev müasir şəraitdə dövləti idarə etməyin hikmətinə tamamilə yiyələnmişdir... Onun fəaliyyətinin güclü cəhəti məhz insanları sıx birləşdirməyi, bu enerjini müəyyən hərəkət formalarına yönəltməyi bacarmasıdır... İlham Əliyevin həyat yoluna nəzər salarkən demək lazımdır ki, onun siyasi, iqtisadi və mənəvi baxışlarının formalaşmasına təsir göstərən heç də təkcə ailə tərbiyəsi olmamışdır. Görünür, bunda onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müasir nə varsa hamısını faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Heydər Əliyevdən savayı, başqa heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər belə geniş, kütləvi

sosial bazası yoxdur".

İdarəetmə sahəsində böyük təcrübəsi olan Ramiz Mehdiyev kimi görkəmli bir dövlət xadiminin qəti əminliklə ölkə başçısının getdiyi yolun yeniliyi ənənələrlə ahəngdar şəkildə uzlaşdırmaqla ölkəni hökmən tərəqqiyə və firavanlığa çıxaracağını bəyan etməsi hər bir namuslu azərbaycanlının mövqeyini ifadə etməklə yanaşı, həm də dərin qədirbilənlik, vəfadarlıq hissindən qaynaqlanır. Bir daha görkəmli şairimiz Məmməd Arazın unudulmaz misralarını yada salır ki, demək bizdə - ulu məkan olan Azərbaycanda kişi ölsə də kişilik, vəfadarlıq ölmür, sapsağlam qalır və nəsillər üçün örnəyə çevrilir.

Professor Ramiz Mehdiyev qaçılmaz faktların dili ilə Azərbaycan Prezidenti cənab İlham Əliyevi yeni dövrün siyasətçisi, dünyanın müasir, sivil, mütərəqqi dəyərlərini tam mənimsəmiş rəhbər, xalqın inamını əməli işi ilə qazanmış lider kimi xarakterizə edir, onun ölkəyə rəhbərlik etmək üçün zəngin keyfiyyətlərə malik olduğunu inamla qeyd edir: "Onun başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən sayseçmə ölkələr birliyinə daxil etməkdir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, geniş baxışlara malik siyasətçidir. Azərbaycana məhz belə siyasətçi – amerikalıların işgüzarlığını, britaniyalıların ehtiyatlılığını, almanların dəqiqliyini, habelə, məsuliyyətini, azərbaycanlıların açıqlığını, səmimiyyətini və tolerantlığını özündə birləşdirən siyasətçi lazımdır".





Cənab İlham Əliyevin məhz fəaliyyət dairəsi məhdud bir məmur olmaması bütövlükdə inkişafı geniş baxışlarla əxz etməsi imkan yaratdı ki, o, öz fəaliyyətində daha çox humanist prinsiplərin reallaşmasına üstünlük verdi, söz azadlığını inkişaf etdirdi, ədəbiyyatın, mədəniyyətin yaxın dostu, hamisi oldu. Azərbaycan Prezidentinin bu yüksək məziyyətlərini hələ 2005-ci ildə "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabında qabarıq şəkildə təqdir edən akademik Ramiz Mehdiyev 2010-cu ildə "Gülüstan" sarayında Azərbaycan Milli mətbuatının 135 illiyinə həsr olunmuş yubiley mərasimindəki çıxışında da qətiyyətlə deyirdi: "Azərbaycan Respublikasında fikir, söz və məlumat azadlığı ölkə Prezidenti cənab İlham Əliyevin siyasi kursunun və qazanılan demokratik nailiyyətlərin mühüm tərkib hissəsidir. Azərbaycan hökuməti bundan sonra da demokratiyanın inkişaf etdirilməsi sahəsində üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir..."

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin bu dediklərinin arxasında ölkə başçısının şəxsi qayğısı və diqqəti sahəsində reallaşdırılan çox sayda əməli işlərin ardıcıllığı, dönməzliyi dayanır. İslam aləminin sütunlarından biri kimi dəyərləndirilən

İmam Əli (s.) deyirdi ki, bir insanı həddən artıq qiymətləndirirsənsə onun əməli fəaliyyəti haqqında fakt göstər. Akademik Ramiz Mehdiyevin söylədiklərinin arxasında Azərbaycan Prezidentinin elm, təhsil, ədəbiyyat, mədəniyyət sahəsində gördüyü işlərin böyük mənzərəsi dayanır. Eyni zamanda da mətbuatımızın inkişafı, demokratikləşməsi sahəsində yürütdüyü siyasət. Bunun nəticəsidir ki, sözügedən mərasimdə R.Mehdiyev daha çox faktların, əməli işə çevrilmiş layihələrin dili ilə danışır: "Bu gün Azərbaycanda Heydər Əliyevin siyasəti və ənənələri uğurla davam etdirilir. Ölkədə güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübkeşi olan mətbuatın formalaşması və inkişafı dövlətin mətbuat siyasətinin əsas xəttini təşkil edir.

Son illər mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası daha da genişlənmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən redaksiyaların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənildi. 2005-ci ildən bu günə kimi 300-ə yaxın KİV əməkdaşı dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, 2005-ci ildə 30





qəzet redaksiyasının hər birinə 2 min manat, 2008-ci ildə 38 mətbuat orqanının hər birinə 5 min manat, 2009-cu ildə isə 39 qəzet redaksiyasına, yenə də ayrılıqda 10 min manat məbləğində dövlət tərəfindən yardım ayrılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2008-ci il 31 iyul tarixli Sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" söz və məlumat azadlığının, KİV-lərin müstəqilliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəddir. Konsepsiyada əks olunmuş məsələlərin həlli üçün 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ardıcıl tədbirlər həyata keçirir. 2009-cu ildə bu məqsədlə dövlət büdcəsindən Fonda 1,3 milyon manat, 2010-cu ildə isə 2 milyon manat ayrılmışdır. Gələcəkdə də bu sahəyə lazımi diqqət yetiriləcəkdir.

Söz və məlumat azadlığının təmin olunması sahəsində məqsədyönlü şəkildə həyata keçirilmiş siyasətin nəticəsində bu gün Azərbaycan Respublikası kütləvi informasiya vasitələrinin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqelərdən birini tutur. Ölkəmizdə 4200-dən artıq mətbuat orqanı Ədliyyə Nazirliyində uçota götürülmüş, 50-dən artıq

informasiya agentliyi müvafiq dövlət orqanında qeydiyyatdan keçmişdir. Respublikamızda 36 gündəlik, 100-ə yaxın həftəlik və 80-dən artıq aylıq qəzet nəşr olunur.

Azərbaycan Respublikasında fikir, söz və məlumat azadlığı ölkə Prezidenti cənab İlham Əliyevin siyasi kursunun və qazanılan demokratik nailiyyətlərin mühüm tərkib hissəsidir. Azərbaycan hökuməti bundan sonra da demokratiyanın inkişaf etdirilməsi sahəsində üzərinə düşən vəzifələri yerinə yetirmək əzmindədir.

Bu gün bir daha sizi bayram münasibətilə təbrik edir və müstəqil dövlətçiliyimiz naminə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli mərasim iştirakçıları! Diqqətinizə çatdırıram ki, bu gün Respublika Prezidenti cənab İlham Əliyev Azərbaycan Mətbuat Şurasının yeni binasının açılışı mərasimində iştirak edib və Şuranın İdarə Heyətinin üzvlərinə dövlət təltifləri təqdim etmişdir. Cənab Prezident dünən və bu gün imzaladığı sərəncamlarla kütləvi informasiya vasitələrinə maddi yardım ayırmış, mətbuat işçilərinin böyük bir qrupunu mükafatlandırmışdır. Bundan başqa, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış evlərinin tikilməsi üçün Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət





Dəstəyi Fonduna 5 milyon manat maliyyə vəsaitinin ayrılması haqqında qərar qəbul etmişdir".

Ramiz Mehdiyev öz əsərlərində ayrı-ayrı çıxış və məqalələrində ölkə başçısının humanitar sahələrlə yanaşı iqtisadi-siyasi müstəvidə parlaq şəkildə həyata keçirdiyi layihələrdən bəhs edərkən daha çox faktların, reallığa çevrilmiş əməli işlərin əhatə etdiyi ümumiləşdirmələr əsasında danışır. Onun "Yeni səyahət: "İnkişafa doğru" kitabına daxil edilən "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti" məqaləsində bu deyilənlər daha qabarıq görünür. Müəllif fərqindədir ki, "Qlobal demokratik yürüşün" tərkib hissəsi kimi sosiomədəni fonun dəyişiklikləri postinderial dəyərlərin institusionalaşmasına, səmərəli idarəetmə amilinin formalaşmasına və şəffaf ictimai qayda qurulmasına imkan yaradır.

"Yeni paradiqamanı qurarkən: iqtisadiyyatdan demokratiyaya doğru" aparan yolda İlham Əliyevin prezidentliyinin əsas konsepsiyasının güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət olduğunu önə çəkən akademik R.Mehdiyev hələ 2008-ci ildə bu konsepsiyanın kütləvi şüurun və cəmiyyətin sosiomədəni bazisinin mərhələrlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasına transformasiyasına imkan yaradacağına çox inamlı şəkildə bəyan edirdi. O, sözügedən məqaləsində xüsusi olaraq vurğulayır ki, geostrateji və geoiqtisadi məsələlər kompleksini

həll etmək, milli tərəqqinin sabitliyini və davamlılığını təmin etmək, ölkəni beynəlxalq münasibətlərin obyektinə deyil, bu münasibətlərin subyektinə çevirmək yolunda dövlət siyasəti uğurla irəliləməkdədi. Yeni dünya nizamını formalaşdıran ümumdünya transformasiyaları dövründə Azərbaycanın qlobal proseslərdə iştirakının təmin edilməsi son dərəcə zəruri prinsipial məsələ kimi qarşıya qoyulub, ölkə başçısı bu məsələlərə Azərbaycanın konseptual inkişafının istiqamətverici amilləri kimi diqqətdə saxlayır. Məqalə müəllifi bu məsələləri önə çəkməklə bərabər, yenə də faktlara, görülmüş işlərin ümumi, geniş mənzərəsinə nəzər yetirir, cəmiyyəti bu ideyaların mütləq gerçəkliyə çevriləcəyinə inandırır. O, aşağıdakı qlobal layihələrdən böyük fikir ucalığı ilə söz açaraq yazır: "Son illərdə ölkəmizdə Azərbaycan neftinin dünya bazarlarına, o cümlədən, Avropa bazarına çıxarmasına imkan vermiş Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri, Bakı – Tbilisi – Ərzurum qaz kəməri kimi bir sıra qlobal layihələr başa çatdırılmış, regional iqtisadi əməkdaşlığın mühüm tərkib hissəsinə çevriləcək, perspektivdə Şimal və Cənubun genişmiqyaslı əməkdaşlığına imkanlar yaradacaq Bakı – Tbilisi – Qars dəmir yolunun tikilməsinə başlanmışdır. Böyük İpək yolunun bərpası çərçivəsində Azərbaycan təkcə tranzit ölkəyə çevrilmir, həm də çox vaxt özü ixracatçı ölkə qismində çıxış edir, bu isə milli iqtisadiyyat üçün yeni imkanlar,





perspektivlər yaradır. Eyni zamanda Azərbaycan özünün təbii qazının Gürcüstan, Türkiyə, Yunanıstan, İtaliya ərazisi ilə sonradan Avropa İttifaqı (Aİ) ölkələrinə nəql edilməsini nəzərdə tutan NOBUKKO kimi layihələrə fəal surətdə qoşulur, "Yeni qonşuluq" proqramı çərçivəsində Avropa İttifaqı ilə sıx əməkdaşlıq edir. Azərbaycan qazı artıq Avropa İttifaqı bazarlarına – Yunanıstana daxil olur. İki qitənin qovuşuğunda yerləşən Azərbaycan Avropa ilə Asiyanı əlaqələndirən, onların nəinki mədəniyyətlərini və sivilizasiyalarını, həm də əsas iqtisadiyyatlarını birləşdirə biləcək körpü rolunu oynayır..."

Akademik Ramiz Mehdiyev sözügedən məqaləsində bütün bunları milli iqtisadiyyatın liberallaşması prosesinin başlanması, eyni zamanda, İlham Əliyevin birinci prezidentlik müddətinin ən mühüm istiqamətlərindən bəhs etməyə imkan verən əsas göstəricilər kimi diqqətə çatdırır, ancaq bu uğurları da hələ son hədd saymır, xüsusi olaraq vurğulayır ki, ən mühüm göstərici ölkədə yoxsulluğun azalmasını reallaşdırmaqdır. O, hesab edir ki, İlham Əliyevin prezidentliyinin birinci dövrünün əsas vəzifəsi – davamlı və tərəqqi edən iqtisadi sistemin formalaşdırılması mərhələsi uğurla başa çatdırılmışdır.

Demokratiyanı sabitliyi və tərəqqini stimullaşdıran başlıca meyar kimi dəyərləndirən akademik Ramiz Mehdiyev bunun ən yaxşı yol olduğunu yazır,

ümidvar olduğunu bildirir ki, başqaları da demokratiyanın üstünlükləri barədə onunla tam həmrəy olacaqlar. Eyni zamanda diqqətə çatdırı ki, bu vacib istiqamətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və dahi siyasətçinin layiqli varisi İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən milli dövlətçilik siyasətinin aparıcı xətlərindən birini təşkil edir.

Məqalə müəllifi öz dahi ustadının gələcək uğurlara hesablanan məsələlərə çevik yanaşmaqla mövqeyin möhkəmliyini müəyyən edən əsas funksiyaları yerinə yetirmiş olduğunu qürurla vurğulayır, qeyd edir ki, Heydər Əliyev böyük cəsarət və uzaqgörənliklə dövlətçiliyi yaratmış, onu möhkəmləndirmişdir. Eyni zamanda, bu uğurlu siyasətin ölkəmizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən məmnunluğunu da ifadə edir: "İlham Əliyev öz prezidentliyinin birinci müddətində ölkənin geoiqtisadi amilini irəlilətmək üçün əsas işi görmüşdür. Tam əminliklə demək olar ki, gələcəkdə o, ölkənin hərtərəfli modernləşməsinə yönəlmiş tədbirlər kompleksini tam həcmdə həyata keçirəcəkdir".

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli ideya kontekstində uğurlu gələcəyə doğru inamla gedən doğma Azərbaycanımızın ayrı-ayrı mərhələlərdə iqtisadi, siyasi, elmi və mədəni sahələrdə rastlaşdığı





problemlərin, eyni zamanda da dönməz uğurların nədənliyini, çoxçeşidliyini bütün incəlikləri ilə araşdırıb ümumi nəticələr çıxarmaq, proqram səviyyəli nəzəri mülahizələr ortaya qoymaq akademik Ramiz Mehdiyevin fəlsəfi, analitik təhlil xarakterli əsərlərinin başlıca qayəsini təşkil edir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətinə, onun parlaq zəkasına, mübarizə əzminə heyranlıq bütün məqamlarda onun yaradıcılığından qızıl xətt kimi keçir. Biz bu vacib xətti Ramiz Mehdiyevin "Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında daha da möhkəmləndi və inkişaf etdi" mövqeyindən çıxış edərək "Azərbaycan" qəzetinə verdiyi müsahibəsində də, "İlham Əliyevin uğurlu prezidentlik fəaliyyəti Heydər Əliyev siyasi kursunun uzunömürlüyünü təmin edir" məqaləsində də bütün aydınlığı ilə hiss edir, görür və bir sədaqət, vəfa örnəyi kimi yaddaşa köçürürük.

Adı çəkilən müsahibəsində akademik Ramiz Mehdiyevin ifadə etdiyi həqiqətlər əslində bütöv bir xalqın, hər bir Azərbaycan insanının bildiyi, qəlbində dərin ehtiramla yaşatdığı həqiqətlərdi, bu deyilənlər bütöv bir xalqın münasibətini son dərəcə dolğunluğu ilə ifadə edir: "Azərbaycan vətəndaşları bu gün prezident İlham Əliyevə böyük etimad bəsləyir, onun siyasi kursunu birmənalı şəkildə dəstəkləyirlər. Azərbaycanın siyasi mühitində İlham Əliyevlə rəqabət apara

biləcək hər hansı bir siyasətçi yoxdur və belə görünür ki, yaxın illərdə heç olamayacaq da. Ölkə rəhbərinin nüfuzu artıq Azərbaycan hüdudlarını da aşmış, ona bölgənin əsas lideri, beynəlxalq birliyin qəbul etdiyi görkəmli siyasi və dövlət xadimi kimi əlavə divident-lər gətirmişdir. Bu gün Prezident İlham Əliyevə olan geniş beynəlxalq rəğbət həm də Azərbaycanın nüfu-zunun yüksəlməsinə şərait yaradır. Bu nailiyyətlər isə tək İlham Əliyevə aid deyil, həm də ona özü qədər ina-nan və uğurlu fəaliyyətinə böyük ümidlər bəsləyən Heydər Əliyevin əbədiyaşar ruhunun qələbəsi, ümum-milli liderimizin siyasi kursunun uzunömürlüyünün təminatçısıdır".

Akademik Ramiz Mehdiyev eyni dərəcədə də bütöv xalq, millət və beynəlxalq aləm qarşısında tam məsuliyyətlə təminat verir ki, "vətəndaşı olduğumuz və durmadan inkişaf edən Azərbaycanın müasir tarixində İlham Əliyev mərhələsi real nailiyyət fakt-larını özündə tam cəmləyən şanlı salnamədir. Azər-baycan xalqı bu mərhələnin, müstəqil dövlətçiliyin sarsılmaz və əbədi olması baxımından hələ uzun müddət davam edəcəyinə əmindir".

Professor Seyfəddin Qəndilovun dəqiq ifadə etdiyi bir fikir bu məqamda bütün əhatəliliyi ilə özünü doğruldur ki, akademik Ramiz Mehdiyevin haqqında bəhs olunan əsərlərinə nəzər saldıqca Heydər Əliyev tərəfindən hazırlanmış milli inkişaf strategiyasının



Prezident İlham Əliyevin çoxcəhətli fəaliyyətində necə uğurla həyata keçirildiyinin aydın mənzərəsini görürük.

Millət vəkili Bəxtiyar Sadıqovun dediyi kimi, akademik Ramiz Mehdiyevin əsərlərində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti elmi-nəzəri cəhətdən bacarıqla, xüsusi səriştəliliklə tədqiq edilir, bu əsərlər bütövlükdə Heydər Əliyev siyasi irsinin öyrənilməsinə, onun ümumiləşdirilərək bu günümüzə və vətəndaş cəmiyyəti quruculuğuna əvəzsiz təsirinin ifadəçisinə dönür.

*"Qaliblər ağıllı, hər gün ölçüb-biçən, soyuqqanlı ola bilənlərdir. Həyatda yalnız qaliblərə yer var..."*

*QRASIAN BALTASAR (1601-1857)*
*İspan filosofu*



*"Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özünə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur".*

***Akademik Ramiz Mehdiyev***



*"Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun – ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır".*

***Akademik Ramiz Mehdiyev***



*"Heydər Əliyev 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Liderdir"*

***Mehriban xanım Əliyeva***



"Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməli və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi, şəkkakların əksinə olaraq, o, bəyan etdi ki, biz bu tənəzzüldən çıxacağıq, ümumi böhrana son qoyacağıq, milli müstəqilliyi və dövlət müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəyik, ölkə iqtisadiyyatını qaldıracağıq, hüquqi dövlət və demokratik cəmiyyət quracağıq. Azərbaycanın sivilizasiyalı və çiçəklənən ölkə olacağına onun bəslədiyi sarsılmaz inama indi dövlətimizin bütün layiqli vətəndaşları şərikdirlər"

**Akademik Ramiz Mehdiyev**



""Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdır ki, bu, sərbəst düşünməyə və milli-mənəvi ideallların bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi"."

**Akademik Ramiz Mehdiyev**



"Milli oyanış problemləri Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər idi".

**Akademik Ramiz Mehdiyev**




"...Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən misilsiz xidmətlərindən biri Sibir düşərgələrində həlak olan filosof-şair Hüseyn Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Bakıya gətirilməsi və Naxçıvanda doğma torpağa tapşırılması olmuşdur."

**Akademik Ramiz Mehdiyev**



"Biz yeni əsrə, yeni minilliyə Qorqud irsinin bayrağı altında, Qorqudun övladları, Qorqud mənəviyyatını yaşadan insanlar kimi qədəm qoyuruq"

**Ümummilli Lider Heydər Əliyev**







*"Siyasi əlaqələr qohumluq əlaqələrindən möhkəmdir"*

***Fukidid***
***Qədim yunan tarixçisi***

*"Hakim komanda arasında nifaq salmaq müxalifətə nəsib olmayacaq".*

***Professor Əli Həsənov***



*Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur. Bunu yadda saxlayaq. Bu, ədəbiyyatın dərsinin vətəndaşlıq dərsinə çevrildiyi haldır"*

***Akademik Ramiz Mehdiyev***



*"Heydər Əliyev öz xalqının taleyində müstəsna rol oynayan, Vətənin ağır günündə onun imdadına yetişən, müqəddəs xilaskarlıq və quruculuq missiyasını üzərinə götürərək çətin və keşməkeşli mücadiləsini qələbə ilə başa vuran siyasət dahilərindən biridir. Bu böyük şəxsiyyətin adı Azərbaycan tarixinə, xalqımızın yaddaşına haqlı olaraq, milli xilaskar kimi əbədi həkk olunmuşdur."*

***Akademik Ramiz Mehdiyev***



*"O, qalib gəldi, qalib yaşadı və qalib getdi"*
***Xalq yazıçısı Anar***



***

Ədalətli bir münasibətdir ki, akademik Ramiz Mehdiyevin istər ictimai-siyasi, istərsə də elmi-nəzəri baxışları bir qayda olaraq öz məntiqi, nüfuz dairəsi və prinsipiallığı ilə seçilir. Onun elmi-nəzəri mülahizələri, fəlsəfi baxışları aktuallığı ilə diqqəti çəkir. Eyni zamanda, məhz vaxtında, zamanında ortaya qoyulan münasibət olaraq geniş əks-səda doğurur.

"Ya sus, ya da susmaqdan qiymətli bir söz de!" fikrinə xalq yazıçısı Anarın əlavəsi belədir ki, "ya da heç olmasa həqiqəti söylə!"

Ramiz Mehdiyevin son dərəcə aktual, dərin elmi-nəzəri mahiyyət kəsb edən əsərlərinə nəzər salanda ilk olaraq susmaqdan qiymətli olan, dərin məntiqə söykənən sözlə üz-üzə qalırıq. Bu söz öz mötəbərliyi, məntiqli durumu ilə diqqət çəkir. Eyni za-

manda reallığı, həqiqi olanı ifadə etdiyinə görə razılıq doğurur. Bu razılığın özülündə akademikin nəzərə çatdırdığı həqiqətlərin fakta söykənməsi durur. İnamla demək olar ki, Ramiz Mehdiyevin hər bir arqumenti, elmi-nəzəri fikri, müddəası, tutarlı, təkzibedilməz tarixi mənbələrə və faktlara söykənir. Onun istinad etdiyi mənbələr tarixin özü qədər qədim və mötəbərdir. Tarixin ayrı-ayrı mərhələlərində bu mənbələrdən, etibarlı məxəzlərdən öz məqsədləri, maraqları üçün istifadə edən, məlum həqiqətləri kontekstdən çıxararaq özlərinə sərf edən şəkildə ictimaiyyətə sırıyan "tarixçi"lər, "başabəla filosof" və "siyasətçi"lər olub, beləlari yenə var. Ancaq bütün zamanlarda həqiqət bir dildə danışıb. Tarix elm, özü də həqiqətlərdən ibarət bir elm olaraq qalıb.

Ramiz Mehdiyevin şərh etditi tarix həqiqətə söykənir, həqiqətlərin, təkzibedilməz faktların dili ilə danışır. O, sistemli şəkildə həqiqəti dərk etməyi və etdirməyi ən yüksək fərəh və rifah formulu kimi qəbul edib.

Görkəmli akademikin təkcə "Gorus – 2010. Absurd teatrı mövsümü" kitabında ortaya qoyduğu həqiqətlər, təkzibolunmaz faktlar bu fikirlərimizin kökündə dayanır.

Ramiz Mehdiyev tutarlı dəlil və arqumentlər əsasında beynəlxalq aləmin gözü önündə 2010-cu ilin 16 oktyabrında erməni absurd teatrının səhnəsinə çı-





xarılan faciəvi, şeytani tamaşanın mahiyyətini zəngin, tarixi mənbələrin kontekstində incələyir. Eyni zamanda, kimsə çaşmasın deyə, lap əvvəldən aydınlıq gətirir ki, bu iblisanə tamaşanın "baş qəhrəmanı sıravi artist deyil, Ermənistan prezidenti Serj Sarkisyan"dır. "1992-ci ilin fevralında Xocalı soyqırımının, Dağlıq Qarabağın və ona bitişik ərazilərin azərbaycanlı əhalisinə qarşı etnik təmizlənmələrin əsas təşkilatçılarından biri olmuş Serj Sarkisyan! Bu dəfə özünü akademik kimi göstərməyə çalışan prezident teatr səhnəsindən bütün elm aləmini tarix elmində "yeni kəşflər"lə heyrətləndirməyi qərara almışdı. Erməni diasporunu təmsil edən jurnalistlər qarşısında Sarkisyanın çıxışının "şedevrləri"ndən biri ondan ibarət idi ki, guya "tərkibində bircə nəfər də erməni olmayan genetik və linqvist alimlərin "hansısa böyük bir qrupu" uzun müddət mürəkkəb bir tədqiqat aparmışdır. Son nəticələrə görə, erməni dilinin ən azı səkkiz minillik tarixi vardır. Bu o deməkdir ki, biz bir millət kimi ən azı səkkiz min ildir mövcuduq". Etiraf etmək lazımdır ki, Lısenko genetikanı təqib etməyə başladığı dövrdən bu yana dünya elmində genetikanın bu və ya digər dilin yaşını müəyyən etmək qabiliyyəti kimi sensasiyalı bir kəşf eşidilməmişdir.

Bu başabəla alim nə qədər canfəşanlıq etsə də, bu "yeni pyes"ə ciddilik əlaməti verməyə və bu məzhəkənin kobudluğunu gizlətməyə nail ola bilməmişdir.

Lakin prezidentliyinin legitimliyi hətta erməni cəmiyyətinin özü tərəfindən də şübhə altına alınan Serj Sarkisyan coşaraq, Gorus teatrının səhnəsindən erməni cəmiyyətinin layiq olduğu siyasi liderin obrazından daha çox özünün şəxsi daxili mədəniyyətinin və savadının səviyyəsini əks etdirən bir sıra kəskin bəyanatlar verməyi də özünə rəva bilmişdi".

Akademik Ramiz Mehdiyev bu başabəla, dövlət başçısından daha çox artist, ondan da daha çox təlxək, siyasi oyunbaz kimi çıxış edən Serj Sarkisyanın boşboğazlığına nə qədər hiddətlənsə də belə, yenə də ədalət, insaf naminə tarixə xəyanət etmir, haqqın üstündən sükutla keçmir. Bu bədnam prezidentin soydaşlarından ümumi halda "Əsrlər boyu Azərbaycan xalqı ilə yanaşı yaşamış və taleyinə bundan sonra da onunla qonşuluq etmək yazılmış erməni xalqı" – deyə bəhs edir.

R.Mehdiyev bu dərin təhlilli, tarixiliklə müasirliyin qovşağında qələmə alınmış əsərində daha çox yaddaşı oyadır, tarixi məxəzlərin dili ilə danışır və bununla da birtərəfli mövqedə olmadığını bütün aydınlığı ilə ortaya qoyur. Fərqindədi ki, "Sağlam akademik mühitdə dövlət rəhbəri, adətən, elmi-tədqiqat prosesinə müdaxilə etmir, alimlərin aktual problemləri öyrənmələrinə və əldə olunmuş nəticələrin sonradan dərc edilməsinə və geniş müzakirəsinə şərait yaradır... Ermənistanda isə rəhbərlər, deyəsən, tədqiqat işinin





mədəniyyətinə və bu məsələyə bütün dünyada qəbul edilmiş elmi yanaşma ilə tanış deyillər. Burada ölkəyə gəlmiş qonaqlara – onların arasında bəlkə də öz işinin həqiqi peşəkarları da vardı – elmi mühitdə gülməli, dövlət başçısının dilindən eşidildikdə isə, ümumiyyətlə, biabırçı səslənən tamamilə başqa metodlardan istifadə etmək məsləhət görülür.

Ermənistan dövlətinin başçısı həmin tədbirə toplaşmış auditoriyadan daha çox ətraf aləmə ünvanlanmış mesaj göndərərək əsla utanıb-çəkinmədən oradakı adamlara bildirmişdir ki, həmin tədqiqatın yekunları, ümumiyyətlə, hazırdır və indi alimlərin bütün işi həqiqət axtarışında deyil (həqiqət artıq tapılmışdır!), yalnız onun və komandasının əvvəlcədən hazırladığı təbliğat şüarlarını təsdiq etməyə yönəldilməlidir, hətta çoxsaylı faktlar və sənədlər həmin şüarlara zidd olsa belə. Elmin siyasi məqsədlərə (bəzən də, ümumiyyətlə, miflərə) tabe edilməsi normal hal sayılan ölkədə dövlət başçısının dilindən bu günlərdə Gorusda səslənənlərə bənzər bəyanatların verilməsi mümkündür".

Akademik haqlıdır ki, Ermənistan prezidenti ətrafına nəzər salmaq, beynəlxalq aləmdə təkmilləşməsini dərk etmək və nahamar taxtaya vurulmuş mismarı çəkib çıxarmağa başlamaq əvəzinə, həmin mismarı sona qədər vurmağa çağırır, başa düşmür ki, gələcəkdə bu səhvlərin düzəldilməsi indikindən də

ağır olacaqdır: "Ermənistan özünü dalana nə qədər çox təpirsə, oradan çıxmaq bir o qədər uzun və çətin olacaq. Buna görə bütün məsuliyyəti dövlətin rəhbərləri daşıyacaqlar".

Məlum fikirdir ki, qara gün, bəla göydən gəlmir, bu ağlın, idrakın korluğundan, gerçəkliyi dərk etməməyin ucbatından baş verir. Akademik Ramiz Mehdiyev də kitabında daha çox erməni rəhbərliyinə məhz bu cür – öz xalqına qara gün, bəla gətirən siyasi korluğu, gerçəkliyi dərk etməməyin ağır fəsadlarını xatırladır. Eyni zamanda da onun dəlil və arqumentləri yaddaşlarda gerçək tarixin gerçək həqiqətlərini oyadır. İstər-istəməz yada salmalı, xatırlamalı olursan. O həqiqətləri ki, onları ən sadə, sıravi Azərbaycan və Ermənistan vətəndaşları belə bilir. R.Mehdiyev biləRəkdən erməni mənbələrinin həqiqətlərini önə çıxarır və demək istəyir ki, baxın, baxın, yaxşı baxın, məgər "1921-ci ilin iyununda Qafbironun plenimunda Qarabağın Azərbaycanın tərkibində qalmasına ermənilərin özləri (məsələn, A.M.Nazaretyan) səs verməmişdilərmi? Məgər Qarabağ ermənilərinin liderlərinin özləri (məsələn, Serj Manutsyan) bu qərarı alqışlayaraq qeyd etmirdilərmi: "Azərbaycanın tərkibində muxtariyyət aktı erməni kəndliləri tərəfindən tam yekdilliklə qarşılanmışdır".

Təbii ki, Ermənistan prezidenti öz məsuliyyətsiz çıxışı, əslində artistliyi ilə öz "gözsüzlüyünü"





(A.Bakıxanov) büruzə vermiş olur. Gözsüzlük, görə bilməmək bəlası mənəvi korluğa çevriləndə qəbahətlər silsiləsi başlayır. Ramiz Mehdiyevin təqdimində Ermənistan prezidenti məhz bu durumdadı.

Sissorinə məxsus məşhur bir fikir var: "Hər kəs yanıla bilər, lakin öz qəbahətlərini höcətliklə doğrultmağa çalışanlar səfehlərdir". "Gorus – 2010: Absurd teatrı mövsümü"ndə önə çıxarılan həqiqətlər məhz bu cür siyasi səfehliyə qarşı tutarlı bir məxəzdi.

Dahi şair – filosof İ.Hötenin məlum fikrinin – "başqalarını öyrətməyə başlamazdan əvvəl özümüzü öyrətməyi bacarmalıyıq" müdrikliyinin həqiqətinə söykənib tarixi gerçəkliyi olduğu kimi ortaya qoymağın yolu "Gorus – 2010: Absurd teatrı mövsümü" kitabından keçir. Oxuduqca M.Qandinin "biz özümüzü başqaları bizi gördüyü kimi görə bilməyə çalışmalıyıq" fikri bütün gerçək həqiqətilə göz önünə gəlir.

Ramiz Mehdiyevin bu dəyərli əsərini oxuduqca həmkarım Sərvaz Hüseynoğlunun illər öncəsi yazıb nəşrə hazırladığı və Qarabağ həqiqətlərindən bəhs edən, çoxsaylı qaçqın və məcburi köçkünlərin həyat şəraiti, göz yaşları, vətən dərdi ilə üzbəüz, nəfəsnəfəsə araya-ərsəyə gətirdiyi kitabından səhifələri xatırlayıram. Müəllifin o müdhiş mənzərələri qələmə aldıqca erməni cəlladlarına qarşı ucalan haqq səsi yaddaşımı oyadıb keçir: "Baxın, baxın! Yaxşı baxın! Diqqətlə baxın! Sizin tarixlərinizin kitabında bu, qan

ilə yazılmış bir səhifədir..."

Böyük Azərbaycan mütəfəkkiri Cəlil Məmmədquluzadənin məşhur "Ölülər" faciə-komediyasında Kefli İsgəndərin bu məşhur sətirlərlə başlayan monoloqu indi sizə təqdim ediləcək acı mənzərənin əhvalına daha uyarlıdı. Mən bu görüntülərin, bu ağrılı mənzərələrin qəlb göynədən nisgilini könlümə-gözümə köçürə-köçürə uçunma tutmuş, keçirdiyi dəhşətli sarsıntıdan bütün bildiklərini itirib, yalnız ağlına gələn ilk sözü dönmədən təkrarlayan adamlarsayağı, Kefli İsgəndərin bu məşhur sözlərini öz ittihamım, öz hökmüm kimi yağdırıram, çırpıram dünyanın üzünə! Mən bu sözləri öz hökmüm, öz ittihamım, öz qəzəbim, nifrətim kimi çırpıram yurdu-yuvası, eli talanmış, təhqir olunmuş xalqımın taleyinə biganə qalan, laqeyd yanaşan beynəlxalq təşkilatların, demokratiya pərdəsinə bürünüb zorakı siyasət yeridən böyük-böyük dövlətlərin, birliklərin üzünə. Mən bu sətirləri bir sillə kimi çəkirəm Vətən dara düşəndə öz çirkin oyunları ilə hakimiyyət kürsülərinə yol açan milli satqınların üzünə. Mən bu sətirləri bütün dünya boyu, cahan boyu bağırmaq, qışqırmaq istəyirəm: "Mən dağları, daşları, quşları, fələkləri, ayları, ulduzları və dünya-aləmləri bura şahid çəkərəm", bu yanğınları, bu uçqunları, bu fəlakətləri onlara nişan verərəm və bütün bu olmuşları törədən erməni daşnaklarını, erməni cəlladlarını onlara nişan verərəm, soruşaram ki, onlara nə ad vermək olar?.. Mən cəmi millətləri bu mənzərələrin tamaşasına yığıb təvəqqə edərəm ki, bu uçqunları, bu talanları törədənlərə nə ad vermək olar? O vədə bütün yer üzünün millətləri bir səslə cavab verər: "Vəhşilik!"

Və mən bir daha dağları, daşları, quşları, fələkləri, ayları, ulduzları və dünya-aləmləri bu mənzərələrə şahid çəkib deyirəm: "Baxın! Baxın! Yaxşı baxın! Diqqətlə baxın! Sizin tarixlərinizin kitabında bu, qan ilə yazılmış bir səhifədir..."

Baxın bu qanına qəltan edilmiş, od vurulub, yandırılıb külə, kösövə döndərilmiş insan cəsədlərinə. Və gücünüz, kişiliyiniz, mərdliyiniz çatırsa təsəlli verin bu qəlbi yaralı insanlara onlardan üzr istəməyin".

İndi mən bu sətirləri yazıram, radioda "Axşam görüşləri" verilişinin aparıcısı millət vəkili, professor, Rafael Hüseynovun səsi gəlir qulaqlarıma: "1915-ci il Mart qırğını bizə dərs olmalı idi... 1917-ci ildə türk əsgərləri faktik olaraq bizi xilas etdi... 1918-ci ildə erməni ideoloqları Tiflisdə onlara qarşı genosid olduğu barədə kitab nəşr etdirdilər. Genosid isə əslində azərbaycanlılara qarşı olmuşdu. İndi biz bununla bağlı dünya ictimaiyyətinə ayrı-ayrı fakt, sənəd göstərə bilirik. Ermənilər isə 1918-ci ildə çap edilmiş həmin kitabları qoyub stolun üstünə. Bu, yalan, böhtan, şayiə olsa da, hər halda çap faktıdı. Biz öz faciələrimizi dünyaya çatdırmağı bacarmamışıq. Ona görə də erməni

yalanını sübut edən kitablar yazılmalıdı, bu kitablar dünya xalqlarının dilinə tərcümə edilməlidir..."

"Gorus – 2010: Absurd teatrı mövsümü" məhz erməni yalanını, təlxəkliyini bütün detallarına qədər ifşa edən, yazılması mütləq lazım olan və bütün dünya xalqlarına çatdırılması vacib sayılan bir kitabdır.

Bu gün erməni qəsbkarları onlara qarşı genosid edildiyini bütün dünyaya car çəkirlər. Min dona, min sifətə girirlər. Erməni ideoloqları və onların xaricdəki havadarları bir ağızdan ulaşır ki, türklər vəhşi, zülmkar, zalım və qaniçəndirlər. Belə yerdə deyirlər ki, "öz adımı sənə qoyum, səni də yana-yana qoyum". Belə yerdə deyiblər ki, "necəsən, qanmayım, atan yansın!". Ərazisinin 82 faizi Azərbaycan torpaqları olan, 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra müxtəlif vaxtlarda, müxtəlif yollarla Azərbaycan torpaqları hesabına genişləndirilən Ermənistanda bilən, oxuyan varmı ki, bizim eradan əvvəl VI əsrdə Ermənistan ərazisi bütövlükdə Midiyanın, Əhəmənilərin hakimiyyəti altında idi? Görən Ermənistanda bilən varmı ki, II Tiqranın ölümündən sonra Ermənistan təxminən 300 il parfiyalılar, sonra Sasanilər, IV əsrin axırlarında İran və Roma, XI-XII əsrlərdə Azərbaycan Atabəyləri tərəfindən idarə olunub? Rusiya tərkibinə daxil olana qədər Ermənistan ərazisində əhalinin milli tərkibində həmişə azərbaycanlıların üstünlük təşkil etdiyi doğrudanmı unudulub? Ermənilərin öz babaları,





professor V.A.Parsamyan 1977-ci ildə İrəvanda çap etdirdiyi kitabında öz əlləri ilə yazır ki, "Rusiya birləşənə qədər şərqi Ermənistanın... əhalisinin 33,8%-i erməni, 49,7%-i azərbaycanlı, 16%-i kürd, 0,5%-i kənar millətlər idi" (Bax: В.А.Парсамян, История армянского народа 1801-1900 г. Книга первая Изв.во "Ayastan" 1977, səh.88).

Hanı, necə olub şərqi Ermənistanın əhalisini təşkil edən 49,7 faiz azərbaycanlı? 49,7% dedikdə 169 min 155 nəfər əhalinin 84089 – u nəzərdə tutulur. Yəni 84089 nəfər azərbaycanlı.

Mişlsin belə bir kəlamı var: "Hər bir adam bəşəriyyətdir". Əgər bu belədirsə, 84089 nəfər insan 84089 bəşəriyyət deməkdir. Və həmin insanları Ermənistanda qısa bir vaxt ərzində fiziki, mənəvi cəhətcə məhv edən ermənilər bəşəriyyəti 84089 dəfə məhv etmiş olurlar. Bu baxımdan ermənilər sadəcə vəhşilər yox, cinayətkar vəhşidirlər. cinayətin cəzasız qalması isə həmişə növbəti cinayət törədir. Məşhur filosof Nelvetsi yazırdı ki, "Ağıl ehtirasların ədalətli hakimidir". Bu gün erməni ehtirası ağıla yox, məntiqə yox, yalana, böhtana, şərə söykənir. Maraqlı burasıdı ki, bu, dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların gözü qabağında baş verir. Adama elə gəlir ki, hamı nə baş verdiyini bilir, ancaq dilinə gətirmək istəmir. Adama qəribə gəlir ki:

*Bir itə daş atsan yüz köpək dinir,*
*Bir ölkə talanır, dünya susubdu...*

Vərdişkar, adətkar dünya hara dinir? "Bu səri – çeşmə əzəldən bulanıb, ey qafil!"

Fikir verin: "İkinci dünya müharibəsindən sonra ruslar, almanlarla əlaqəyə girdiklərini bəhanə edərək yüz minlərcə Krım türkünü yük vaqonlarına dolduraraq Sibirə sürgün edir, böyük əksəriyyət bu yolda qırılır. Bundan başqa kiçik bir qrup Özbəkistana sürgün edilmiş və beləliklə 1500 il türk yurdu olan Krımda türk qalmamışdır" ("Türkün qızıl kitabı", Bakı, "Yazıçı" səh. 181).

Görürsünüzmü, əsrin ortalarında Krım türklərinə qarşı yürüdülən siyasət, əsrin sonunda azərbaycanlılara tətbiq olunur. Əsrin ortalarında yüz minlərlə Krım türklərinin taleyini məhv etmiş cinayətkar rejim bu gün erməni vəhşiliyinə rəvac verir, onun ilhamverici qüvvəsinə dönüb "genosid", "deportasiya" şüarlarını var gücləri ilə qışqırırlar. Gəlmələr, yurdsuz-yuvasızlar bu xalqı məhv edir, torpaqlarını işğal edir, haqqını tapdalayır, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar isə ikiüzlü siyasət yeridir, oxuduqları yalanları yox, gözləriylə gördükləri vəhşilikləri etiraf etmək istəmirlər.

SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 1988-ci il iyulun 18-də keçirilən iclasının protokoluna nəzər





salıram:

M.S.Qorbaçov (Sovet İttifaqının baş katibi): – Burada əsasən demoqrafiyanın, əhalinin tərkibinin necə dəyişdiyinə istinad edilir. Bu, mühüm dəlil kimi, hətta müəyyən siyasətin nəticəsi kimi qələmə verilir. Deyin görək əsrin əvvəllərində Yerevanda azərbaycanlı əhali nə qədər idi?

S.A.Hambartsumyan (erməni akademiki): – Əsrin əvvəllərində, Yerevanda?

M.S.Qorbaçov (Yenə də o – Sovet ölkəsinin başçısı): – Bəli.

S.A.Hambartsumyan: – Deməyə çətinlik çəkirəm.

M.S.Qorbaçov: – Siz bunu bilməlisiniz. Mən sizə xatırlada bilərəm: Əsrin əvvəllərində Yerevanda azərbaycanlılar yüz faiz təşkil edirdi. İndi azərbaycanlılar neçə faizdir?

S.A.Hambartsumyan: – İndi olduqca azdır. Yəqin ki, bir faizdir.

İndi isə o bir faiz də yoxdur. Görürsünüzmü, istər Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi M.S.Qorbaçov, istərsə də erməni tarixçisi V.A.Parsamyan Rusiyaya birləşənə qədər Yerevan (oxu: İrəvan) əhalisinin 43 və yaxud 49,7 faizini azərbaycanlıların təşkil etdiyini qeyd-şərtsiz təsdiq edirlər. Əlavə sübuta, dəlilə ehtiyac varmı? Bəs hanı bu 49,7 faiz azərbaycanlı əhali? Necə olub? Onda gərək elə təkcə 1828-ci

il Türkmənçay müqaviləsindən sonra Zəngəzur, Dərələyəz, İrəvan xanlığı, Şəmsəddin və Göyçə kimi dədə-baba mahallarımızdan qovulan, məhv edilən, qanı içilən azərbaycanlıların taleyini şahid çağırasan, bu ərazilərdə şəhidə dönən 15-dən çox inzibati rayonun, 10 böyük şəhərin, 11 şəhər tipli qəsəbənin, yüzlərlə kəndin azərbaycanlı əhalisinin ruhunu yenidən oyadasan və deyəsən: - Baxın, baxın, yaxşı baxın! Bu sizin tarixlərinizin kitabında qanla yazılmış bir səhifədir. Azərbaycan tarixinin hər səhifəsində erməni məkrinin, erməni satqınlığının, erməni casusluğunun qanlı izi var. Dünya imperializminin, "Qafqaz səfəri"nin bələdçiləri olan erməni daşnak hökuməti XX əsrin əvvəllərində özünü "Qafqaz qartalı" adlandırılan Drodan və özünü "Zəngəzur kralı" elan edən Nəndedən tələb edirdilər ki, 2 ay müddətinə Şamaxıda, Şuşada, Gəncədə erməni bayrağı dalğalanmalıdı. Bu hökmü icra edənlər isə kəndləri talayır, adamları əsir alır, qızardılmış şişlərlə gözlərini ovur, ayaqlarına nal mıxlayır, iti balta ilə əl-ayaqlarını odun tək doğrayırdılar. Bu qanlı faciələr, erməni vəhşilikləri haqqında rus çinovniklərinin öz rəhbərlərinə yazdığı raportları oxumuşam. Hətta o məlumatlarda, raportlarda rus çinovnikləri özləri belə erməni vəhşiliyinə olan həqarətlərini gizlətməyiblər. Belə olan halda məlum deyilmi ki, Yerevanın (əslində İrəvanın) 49,7%-dən ibarət olan azərbaycanlı əhalisi necə olub? Burada





ermənilərin sayı məqsədli olaraq, süni şəkildə necə şişirdilib? Hardan, hansı məqsədlə qədim Azərbaycan torpaqlarına erməni axını, erməni köçürmələri başlanıb?..

A.Qriboyedov ermənilərin İrandan kütləvi surətdə Zaqafqaziyaya köçürülmələrini belə təsvir edir: "Ermənilər əsas etibarilə müsəlman mülkədarlarının torpaqlarına köçürüldülər" (Bax. A.S.Qriboyedov. «Сочинения в двух томах». II cild. Moskva, 1971. səh. 340).

Bu isə yenə də erməni tarixçisi V.A.Parsamyanın yazdıqlarıdı: "1829-1830-cu illərdə Ərzurumdan, Qarsdan, Bayazitdən Zaqafqaziyaya 90 mindən çox erməni köçmüşdü" (Göstərilən əsər, səh 66.). Zəngəzur hadisələrini törədənlər məhz həmin 90 mindən çox köçürülmüş ermənilər deyildimi? Zaman-zaman azərbaycanlı qanına susayanlar məhz həmin ermənilərin nəvə-nəticələri deyildimi? Əsr-əsr bu qanasusamaların nəticəsi deyilmi Qarabağ faciəsi ilə sonuclanan hadisələr? Şuşada, Xankəndində, Xocalıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Füzulidə, Qubadlıda, Cəbrayılda törədilən erməni vəhşilikləri vaxtilə Göyçə mahalında, Vedidə, Uluxanlıda, Dorhunu – Andaraşadda, sonralar Bakıda, Şamaxıda, Gəncədə və başqa yerlərdə baş verən erməni cəlladlığının, qaniçənliyinin davamı deyilmi?

Bu sətirləri yazmağa başlayanda heç də tarixi

vərəqləməyi, indi Ermənistan adlanan Qərbi Azərbaycanın köklü sakinləri olan azərbaycanlıların yaşadığı İrəvanın mədəniyyət mərkəzi rolu oynayan bir şəhər olduğu, bu qədim türk yaşayış məskəni olmuş şəhərin hələ VII əsrdə (642-643) ərəblər tərəfindən işğal edilməsi, XI-XII əsrlərdə səlcuq türklərinin, XIII-XIV əsrlərdə monqol – tatarların tabeliyində olması, XV əsrdə Qaraqoyunlular, XVI əsrdə Səfəvilər dövlətinin tərkibində yaradılan Çuxur Səd bəylərbəyliyinin, XVIII əsrin ortalarında Azərbaycan xanlıqlarının mərkəzlərindən biri olması, 1827-ci ildə Rusiya tərəfindən işğal edilməsi kimi tarixi faktların üzərində dayanmağı qarşıma məqsəd qoymamışam. Erməni tarixçisi Yervand Şahəziz "Qədim İrəvan" (İrəvan, 1931, erməni dilində) əsərində yazır ki, XVIII əsrin sonu, XIX əsrin əvvəllərində İrəvanda 7331 nəfər azərbaycanlı, 2174 erməni yaşamışdır (göstərilən əsər, səh.234).

Başqa bir erməni tarixçisi Z.Qorqodyanın 1932-ci ildə İrəvanda erməni dilində çap olunmuş "1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi" əsərində göstərilir ki, İrəvanda 1831-ci ildə 7331 nəfər azərbaycanlı, 2174 nəfər erməni yaşamışdır. Bunu erməni tarixçiləri özləri yazıb, "Deyin görək əsrin əvvəllərində İrəvanda azərbaycanlı əhali nə qədər idi?" – sualını verəndə də Sov.İKP-nin Baş katibi həmin faktlara söykəndiyinə görə erməni akademiki S.A.Hambartsumyan cavab verməyə çətinlik çəkirdi.





Ona görə yox ki, məlum həqiqəti bilmirdi, ona görə ki, o, məhz bu məlum həqiqəti bilirdi. Bilirdi ki, əsrin əvvəllərində İrəvanda azərbaycanlılar M.S.Qorbaçovun dediyindən də (43% və ya 49) çox faiz təşkil edirdi. Erməni akademiki onu da bilməmiş deyildir ki, Azərbaycan türklərinin deportasiyası bütün dövrlərdə (1905 – 1906, 1918 – 1920, 1948 – 1953, 1988 – 1989-cu illərdə və s.) davam etdirilmişdir.

Azərbaycan Respublikasının 20%-dən çox bir hissəsi erməni terroristləri tərəfindən işğal edilir, şəhərlər, rayonlar, kəndlər, obalar oda qalanır, insanlara qarşı görünməmiş vəhşiliklər törədilir, bir xalqın milli hissiyyatı təhqir edilir, həmin beynəlxalq ictimaiyyət, demokratik qurumlar, dövlətlər isə riyakarlıqla susur. Dağlıq Qarabağ hadisələri yenicə başlayanda Sovet dövlətinin başçısı M.S.Qorbaçov deyirdi ki, "bu işi elə etmək lazımdır ki, burada nə məğlublar, nə qaliblər olmasın..." Həmin vaxtdan təqribən 15 il keçəndən sonra Rusiya prezidenti Putin də bu fikri sözbəsöz təkrar edir: "Bu məsələni sülh yolu ilə həll etmək lazımdır ki, nə məğlub, nə də qalib tərəf olmasın..."

Dəyişən illərdir, ikiüzlü siyasət, mənfur niyyət isə elə həmin-həminkidi. Necə yəni "nə məğlub, nə də qalib tərəf" olmasın? İşğalçı bir dövləti yerinə oturtmaq, ona beynəlxalq qanunları ayaq altına salmamağın vacibliyini başa salmaq əvəzinə münaqişəyə "nə

şiş yansın, nə kabab" mövqeyindən yanaşmaq hansı məntiqə, mənəviyyata, hüquq normasına sığır?

Bu mənəviyyatsızlığın, bu məntiqsizliyin havadarlığı olmasaydı, bəlkə də pis-yaxşı, əsrlərlə bir yerdə, bir qonşu ərazidə yaşamış bu iki xalq bir-biri ilə öz münasibətlərini çoxdan aydınlaşdırmışdılar. "Dovşana qaç, tazıya tut" deyə hiyləgər siyasət yeridilməsəydi, heç ola bilməzdi ki, Ermənistanda yeridilən işğalçılıq siyasətinin acı nəticələrini qabaqcadan görə bilən, hiss edə bilən adamlar olmamış olaydı...

Tarix kitablarının qalın cildləri varaqlanır yaddaşımda: "Biz 1828-ci ildən 1930-cu ilədək Zaqafqaziyaya 40 mindən çox fars, 84 min türk ermənisi köçürmüşük. Onları erməni əhalisinin az olduğu Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarındakı ən yaxşı dövlət torpaqlarında yerləşdirmişik. Bu məqsədlə 200 min desyatin torpaq ayrılmış, müsəlmanlardan 2 milyon manatlıqdan çox torpaq satın alınmışdır. Bu ermənilər Yelizavetpol (Gəncə - G.) quberniyasının dağlıq hissəsində və Göyçə gölünün sahillərində yerləşdirilmişdir. Köçənlərin sayı rəsmi məlumatlarda 124 min olmasına baxmayaraq, əslində onların sayı 200 mini keçmişdir".

N.N.Şarovun rəsmi məlumatıdı bu (Bax: Новая угроза русскому делу в Закавказие: Предстаяшая распродажа Мугани инородцам. СПБ,





1911, стр.59-60).

Həmin kitabın 61-ci səhifəsində oxuyuruq: "...köçənlər içərisində çoxluq ermənilərə məxsusdur. Belə ki, hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfərin 1 milyondan çoxu yerli sakinlərə mənsub deyil və bizim tərəfimizdən köçürülüb. Son 13 ildə köçürülən ermənilərin sayının çoxluğu aşağıdakı müqayisədən aydın görünür: 1896-cı ildə general – adyutant Şeremeytev Zaqafqaziyada yaşayan ermənilərin sayının 900 minə yaxın olduğunu, 1908-ci ildə 1 milyon 300 minə çatdırıldığını qeyd edir. Başqa sözlə, bu müddət ərzində onların sayı 400 min nəfər artıb".

Bu barədə A.S.Qriboyedovun yazdıqları gəlir gözlərim önünə: "Biz onunla (knyaz Arqutinski ilə - G.) həmçinin müsəlmanların ağırlaşmış vəziyyətləri ilə necə barışdırmaq, ermənilərin onların torpaqlarını həmişəlik tutmayacaqlarına inandırmaq barədə də fikir mübadiləsi aparırdıq (А.С.Грибоедов, Соч. в 2-х томах, т.2, М., 1971, стр.341).

Professor Nazim Axundovun yazdıqları səslənir qulaqlarımda: "Bu tarixi ədalətsizlik, əhalinin tərkibini süni yollarla azaldıb-artırmaq 1988-ci ilin fevralından başlayaraq Dağlıq Qarabağ hadisələri adlanan hərc-mərcliyə gətirib çıxardı" (Bax, Qarabağnamələr, II hissə, B., Yazıçı, 1991, səh.479).

Tarixilik prinsipinin sosial humanitar elmlərin yaranmasında əsas prinsiplərdən biri olması şəksizdir.

Eyni zamanda o da şəksizdir ki, D.S.Lixaçovun təbirincə desək, "intellektuallığın ən vacib keyfiyyətlərindən biri şüurun tarixiliyidir". Biz bu vacib məqamın yanında yaddaşın tarixiliyi zərurətini də görürük və qəti əminliklə əlavə etmək istəyirik ki, akademik Ramiz Mehdiyevin "Gorus – 2010: Absurd teatrı mövsümü" kitabı bütövlükdə şüurun, eyni dərəcədə də yaddaşın tarixilik mötəbərliyinə istinadən yazılıb. Gərgin axtarışların nəticəsində bir araya gətirilən tutarlı fakt və dəlilləri Azərbaycan həqiqətlərinin dünyaya, beynəlxalq aləmə çatdırılmasına ləyaqətlə xidmət edir. Bu araşdırmasıyla R.Mehdiyev Ermənistan dövlətinin əzəli Azərbaycan torpaqlarında yaradılmasını tutarlı faktlarla sübut etdiyini vurğulayanlar son dərəcə haqlıdırlar. Təkcə Modern.az-ın məlumatına əsaslanan kütləvi informasiya vasitələrinin yayınladığı münasibət bu dediklərimizi bütün təfərrüatı ilə əhatə edir. Həmin məlumatlarda deyilir: "Ramiz Mehdiyevin çapdan çıxmış "Gorus – 2010: Absurd teatrı mövsümü" adlı yeni kitabında bu ilin oktyabr ayında Qərbi Azərbaycandakı Gorus şəhərində olan Ermənistan prezidenti Serj Sərkisyanın erməni tarixi və erməni dili ilə bağlı səsləndirdiyi absurd iddialara cavab olaraq mötəbər tarixi mənbələrə istinadən əsl həqiqəti açıqlanıb".

Ramiz Mehdiyev öz kitabında qeyd edir ki, linqvistikada qəbul edilmiş qaydaya əsasən, hay dili





öz seçim əlamətinə görə 11 qrupa və 44 dialektə bölünür. "Dilçi mütəxəssislərin fikrincə, xalqın bu qədər çoxsaylı il və dialekt şaxələrinin olması bunu deməyə əsas verir ki, hay dili bir xalqın dili deyildir. Bu, Ermənistan ərazisində qədim məzarlıqlarda tapılmış kəllələrlə də təsdiqlənir. Həmin kəllələrin baş göstəriciləri müasir ermənilərin baş göstəricilərindən kəskin fərqlənir. Ermənilərin 16 antropoloji tipə bölünməsi tədqiqatçıları heyrətləndirir. Bir xalqın bu qədər antropoloji fərqləri ola bilməz. Belə çıxır ki, haylar və ermənilər arasında əlaqə məsələsini cəsarətlə şübhə altın almaq olar. Ola bilsin ki, Ermənistan prezidentinin komandasında bu barədə fikirləşərək başa düşərlər ki, yaşayış məntəqəsi 200-300 il bundan əvvəl məhz Azərbaycan adına necə malik ola bilərdi".

Akademik kitabda yazır ki, ermənilər antropoloji baxımdan Cənubi Qafqaz xalqlarının tipinə uyğun gəlmirlər: "Başqa bir məsələ barədə də fikirləşmək pis olmazdı. Ermənilər antroploji baxımdan praktiki olaraq yeganə xalqdır ki, onlar Cənubi Qafqaz xalqları üçün xarakterik olan antropoloji tipə uyğun gəlmirlər. Aparılmış antopoloji tədqiqatlara əsasən deyə bilərik ki, tarixi Azərbaycanın qərb hissəsinin əhalisi bütün dövrlərdə (eneolitdən başlamış müasir dövrə qədər) Azərbaycanın qalan hissəsinin əhalisinə oxşar olmuşdur. Müasir Azərbaycan ərazisində ermənilərlə bağlı aşkar edilmiş ən qədim antropoloji tapıntılar yalnız

XVII əsrə aiddir və yalnız Kenaker nekropolunda aşkar edilmiş tapıntılarla təsdiqlənir. Onlar bir sıra əlamətlərə (kəllə qutusunun forması, üz skeletinin quruluşu və s.) əvvəlki paleoantropoloji seriyalardan əsaslı şəkildə fərqlənir və yeni etnik komponentdirlər" – deyə yazan R.Mehdiyev qeyd edir ki, ermənilərin diş – çənə sisteminin təhlili də onların Dağlıq Qarabağ zonasında aborigenlər olmamasına dəlalət edir.

Akademik həmçinin Ermənistanın qədim Azərbaycan yer adlarının qəsdən dəyişdirilməsi siyasətinə toxunaraq bunun heç bir məntiqə sığmadığını sübutlarla göstərir.

Müəllif ermənilərin "Arsax" toponimi də "erməni" mənşəli söz olmasını iddia edənlərin tutarlı cavabını verir və göstərir ki, ermənilər müəyyən tarixi şəraitdən istifadə edərək əlüstü "Vararakn" adlı "erməni məskəni" uydurmuşlar: "...Heç bir mənbədə "Vararakn" deyilən məskən adı çəkilmir. Əlbəttə, əgər ermənilərin tarixi saxtalaşdırmaq laboratoriyalarında belə bir şey uydurmağa və əsası Qarabağ xanları tərəfindən qoyulmuş Xankəndinin yerləşdiyi əraziyə bağlamağa hələ macal tapmayıblarsa, berdzor, karvaçar, kaşataq və bir sıra uydurma "qədim erməni" adları kimi, bu "varakarn" da erməni təbliğatının faydasız icadıdır. Məsələn, onlar Azərbaycanın işğal edilmiş Ağdam rayonunda qanunsuz arxeoloji qazıntılar zamanı aşkar edilmiş tikintinin bünövrəsinin ətrafındakı





yeri özbaşına, ciddi elmi faktlara əsaslanmadan "Tiqranakert" adlandırmağı qərara almışlar. Sual edilir: nə üçün başqa ad deyil, məhz "Tiqranakert" və nə üçün başqa yerdə deyil, məhz bu yerdə? Təkcə ona görəmi ki, bu yer ermənilərin xoşuna gəlmişdir və tarixi saxtalaşdırmaq laboratoriyasının ilhaqçı planlarının həyata keçirilməsinə kömək etmək üçün adətləri üzrə saxta şəhadətlərə və salnamələrə istinad edir və indi özləri də alimnüka görkəmlə bu mənbələrə istinad edir".

Kitabda qeyd edilir ki, əvvəllər Azərbaycana (məhz Azərbaycana!) məxsus olmuş İrəvan xanlığının ərazisində yüzlərlə toponimin sovet dövründə vaxtilə həmin torpaqlarda yaşamış Azərbaycan türklərinin izlərini məhv etmək məqsədilə adları dəyişdirilərək onlara erməni adları qoyulub: "Bizim dildə mənası olan bu toponimlərin erməni dilində heç bir mənası yoxdur. Bu toponimlər haraya yox olmuşdur? Şübhə yoxdur ki, həmin tarixi saxtalaşdırmaq laboratoriyaları bu suala cavab axtararkən Basarkeçər (Vardenis), Qaranlıq (Martuni), Hamamlı (Spitak), Cəlaloğlu (Stepanavan), Qarakilsə (Sisyan), Qarakilsə (Vanadzor), Keşişkənd (Yexeqnadzor), Yuxanlı və ya Zəngibasar (Masis), İstibulaq və Karvansara (İcevan), Dəvəli (Ararat qəsəbəsi), Gözlü-Kəmərli (Metsamor), Üç-Müədzin (Eçmiədzin), Alagöz (Araqats), Göyçə (Sevan), Arpaçay (Axuryan) və yüzlərlə başqa keçmiş

Azərbaycan toponimləri üçün minlərlə yeni "vararakn"lar icad edəcəklər. Az qala Nuh əyyamından qalmış yeni "qədim erməni" adlarının guya qeydə alındığı saxta "salnamələr" üzə çıxacaqdır. Elə həmin laboratoriyalar işğal edilmiş şəhərlər və kəndlər üçün yeni adlar fikirləşib tapmış və bir müddətdən sonra Ermənistan rəhbərləri yüksək tribunalardan çıxış edərək yeni "vararakn"lar barədə dünyaya car çəkəcəklər. Ermənilər artıq Ukraynanın Lvov şəhərinin də adını dəyişdirərək onu Aryuts adlandırmaq istəyirlər!"

Akademik yazır ki, "erməni" mənşəli Arsax toponiminə gəldikdə isə, onun erməni dilinə və Ermənistanın erkən tarixinə heç bir aidiyyəti yoxdur. "Ermənistan prezidentinin Gorusda səsləndirdiyi tezis savadsızlıq dərəcəsinə görə adamı mat qoyur: "Bu yerin erməni adı – Arsax miladdan əvvəl VIII əsrdə təsdiqlənmişdir və bunu Yerevanın təməlini qoymuş I Arqiştinin oğlu II Sarduni təsdiq etmişdir". Əvvələn, I Arqişti və II Sarduni hay çarları deyil, Urartu çarları olmuşdur. Urartu və hay xalqları müxtəlif xalqlar olmuş və müxtəlif dil ailələrinə aid olan müxtəlif dillərdə danışmışlar. Görünür, Sarkisyan "yeri gəlmişkən" təkcə albanların deyil, həm də urartuluların mədəni-tarixi irsinə tamah salmışdır. İkincisi, bu ad nə münasibətlə birdən-birə erməni adı oldu? Urartu çarı yalnız Arsax adını təsdiqləmiş, lakin onun erməni





toponimi olmasını təsdiqləməmişdir! O, yalnız qeyd etmişdir ki, belə bir vilayət var, vəssalam. Belə çıxır ki, əgər Qafqazda Arsax adlı bir vilayət olması barədə Misir fironları və Çin imperatorları məlumat vermiş olsaydı, onda bu toponim həmin an Misir və Çin toponimi olacaqdı? Axı Arsax toponimi təkcə Bizans mənbələrində onun adının çəkilməsinə görə antik toponim olmamışdır!".

R.Mehdiyevin Azərbaycanın qədim və müasir xəritələrinin də verildiyi kitabı tarixçilər, politoloqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Sözügedən kitabın ən başlıca cəhətlərindən biri müəllifin tutarlı fakt və arqumentləri son dərəcə oxunaqlı, ifadəli, təsirli bir dillə diqqətə çatdırmasıdır. Bu deyim, ifadə tərzi ona böyük ustadı Heydər Əliyevdən gəlir desək, heç də yanılmarıq. Ramiz Mehdiyev ulu öndərin nitq mədəniyyətindən heyranlıqla bəhs edərək yazır: "Heydər Əliyevin ana dilinə müraciət etməsi müəyyən mənada sanki, gözlənilmədən, bədahətən idi. Bunun dəqiq ifadə edilməsi sonralar olmuşdur. Artıq müstəqillik illərində Heydər Əliyev ana dilinə münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanlarında və tədbirlərdə son dərəcə aydın ifadə edəcək, eyni zamanda öz çıxışlarında da bu mövzuya müraciət

edəcəkdir..."

Demək xoşdur ki, "həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyini"n hansı dərəcədə möhkəmləndirilməsi R.Mehdiyevin "Gorus – 2010: Absurd teatrı mövsümü" kitabından bütöv, boyaboy görünür.

Bu dil sadə və təsiredici, gətirilən faktların dolğun ifadəçisi olaraq şəffaf və duyumludur. Müəllifin tarixə bələdliyi, çağdaş ictimai – siyasi durumun təfərrüatlarına nüfuz dairəsinin mükəmməlliyi zəngin yazı texnologiyası, fikrin parlaq ifadə dolğunluğu ilə bir arada təqdim olunur. R.Mehdiyevin yazıları tarixin haqq səsi kimi yaddaşlarda əks-səda verir: "Başabəla erməni alim və siyasətçilərinin saxtalaşdırma metodları insanı mat qoyur: onlar əvvəlcə hurritdilli urartuluları hind-Avropa haylarına çevirir və onların irsini mənimsəyir, sonra isə Arsaxın "erməni" adı olmasını bəyan edirlər. Özü də yalnız ona görə ki, baxın ha, təzə peyda olmuş "hay" II Sarduri Arsaxın adını çəkmişdir. Halbuki dünya tarixşünaslığında müəyyən edilmiş konsensusa görə, bugünkü ermənilərin (haylar) istər Arsax toponiminə, istər Urartu sivilizasiyasına, istərsə də əsası I Arqişti tərəfindən qoyulmuş şəhərə heç bir aidiyyəti yoxdur. Mənbələrdə Sünik, Utik, Paytakaran kimi Arcax – Xaçen də Qafqaz Albaniyasının tarixi vilayəti kimi göstərilir. Tarixi inkişafın qısa bir dövründə ərazisi genişlənmiş erməni çarlığının siyasi





təsiri bu vilayətə aid ola bilərdimi? Axı bir sıra başqa imperiyalar, xilafətlər, çarlıqlar da genişlənmiş və kiçilmiş, tərəqqi və tənəzzül dövrlərini yaşamışlar. Bunun nəticəsində onların nəzarət etdikləri ərazilərin heç də bütün əhalisi, deyək ki, latın, yunan, ərəb, fars, monqol, osmanlı, ingilis, fransız və s. olmamışdır. İşğal edilmiş ərazilərdə yerli xalqlar yaşamaqda davam edirdi. Kür çayının sağ sahilinin, o cümlədən, Arsaxın, Paytakaranın, Utinin, Sünikin alban əhalisi barədə, hətta Raffi, B.İşxanyan, İ.Orbeli, R.Suni kimi erməni tarixçilərinin özləri də yazırdılar. Dünyada onlarca digər nüfuzlu tarixçilər də bu fikirdədir.

Məsələn, münaqişənin lap əvvəlində, 1988-ci ildə ABŞ-ın Miçiqan Universitetində işləyən erməni tarixçisi Ronald Suni bugünkü Qarabağın ərazisində orta əsrlərdə Qafqaz albanlarının dövlətinin mövcud olmasını qeyd edirdi: "Orta əsrlərdə türk xalqları Orta Asiyadan buraya köçənə qədər Zaqafqaziya Qafqaz Albaniyası kimi tanınmışdır. Qafqaz albanlarının Balkan albanlarına heç bir aidiyyəti olmamışdır, o, ermənilərə yaxın olan xristian xalqı idi. XI əsrdə səlcuqlar buraya gələndən sonra dağlıq hissədə, yəni Qarabağdan başlamış tarixi Ermənistanla sərhədə qədər ərazidə yaşayan albanlar xristian kimi qalmış və nəticədə ermənilərlə qaynayıb-qarışmışlar. Şərq hissədə – ovalıqdan Xəzərə qədər olan ərazidə albanlar isə türk əhali ilə qaynayıb-qarışmış və müsəlman

olmuşlar.

Görkəmli filosof Ziyəddin Göyüşov ən böyük, müdrik alimi bal arısı ilə müyaqisə edir. "Arı çeşid-çeşid çiçəklərdən şirə və ətir toplayıb bunlardan bal hazırlayır və sonra da həmin balı xərcləyir. Əgər bal xərclənməsəydi, şanıda yer olmazdı. Əsl alim başqalarının fikirlərindən əxz etdiklərini öz xüsusi malı etməli, öz məhəngindən keçirməli və öz əlavələri ilə başqalarına paylamalıdır. "Fikir anbarı"na toplananların heç biri şəxsən bir alimin "özününkü" deyildir. Biz ancaq bunları özünün xüsusi malı etmiş və üzərinə yeni incilər əlavə etmiş adamları əsl müdrik şəxs sayırıq..."

Şübhəsiz ki, belədir. Eyni zamanda görkəmli akademik Ramiz Mehdiyevin çoxsaylı, dərin məntiqə əsaslanan elmi-nəzəri araşdırmaları ilə tanışlıq da əsas verir deyək ki, onun "fikir anbarı"nda cəm olanlar ardıcıl, müdrik bir düşüncənin əxz etdiyi, üstəgəl, dərin zəka, aydın mövqe müstəvisində əxz edilənlərin özününküləşdirə bildiyi bir xəzinədi. Görkəmli alim bu bilgiləri xüsusi dərinlik, müdrikliklə ümumiləşdirir, məhəngindən keçirə bilir və tutarlı, təkzibolunmaz əlavələri aydın şərhi ilə bir arada başqaları ilə paylaşa bilir. Onun elmi dəlilləri havadan asılı qalmır, irəli sürdüyü müddəalar tutarlı fakt və müddəalarla, tarixi məxəzlərlə müqayisəli şəkildə əsaslandırılır. R.Mehdiyev öz araşdırmları ilə həm tarixi yeni, çağdaş





zaman müstəvsinə çəkə bilir, həm də çağdaşlığı tarixin qaçılmaz həqiqətlərinə ehtiramla davranmağa yönəldə bilir. Bu aparıcı və çox vacib paralellik fonunda o, eyni zamanda da dinc, yanaşı yaşamağa məhkum olduğumuz həyatın, cəmiyyətin yeni məzmun kəsb edən tarixi nəzəriyyəsini, bir az da dəqiq desək, tarixi missiyasını ortaya qoymuş, bir növ tarixi irəli aparmış olur.

Yaspers Karl (1883-1969) da tarixə yanaşmadan belə bir müraciətə istinad edərək yazırdı: "Tarix başqalarını da dalınca çağıran tək-tək adamların aramsız olaraq irəliyə hərəkəti deməkdir".

Ramiz Mehdiyevin "Gorus – 2010: Absurd bteatrı mövsümü" kitabında diqqətə çatdırdıqları əslində tarixi bütün həqiqətləri ilə bir arada irəli aparmaq cəhdidi. Bu cəhd ilk növbədə tarixi məsuliyyət hissindən qaynaqlanır. Diqtə edir ki, "ruhun özü belə tarixdir" və "hər hansı məqamda həm tarixi faktor, həm də ona qədərki tarixlərin nəticəsdir" (Kroçe Benedetto).

Fransız yazıçısı və filosofu J.P. Sartr yazırdı ki, insanın dyəri dəyişən şəraitdə qarşıya çıxan problemləri, əngəlləri aradan qaldırmasıyla, onlara qalib gəlməsiylə ölçülür. Eyni zamanda fikrimizcə insanın dəyəri həm də onun fəaliyyətinin həqiqətə, bəşəri obyektivliyinə xidmətilə ölçülür.

Təkzibedilməz faktdır ki, üfüqün baxış bucağının genişliyi qabağabaxanın (gəmiçilik sahəsində

belə bir icraçı olur) mövqeyinin ucalığından asılıdır. Eyni zamanda tarixi məxəzlərə obyektiv baxış da ilk növbədə baxış sahibinin mövqeyinin nə dərəcədə ədalətli olmasından keçir. Bu mənada R.Mehdiyevin tarixə obyektiv ekskursuna onun ədalətli yanaşma prinsipi yoldaşlıq edir. Görkəmli akademik quru nəsihətçilik etmir. O, daha çox tarixi məxəzlərə istinad edir. Daha çox əqlin və idrakın, zəkanın qəbul etdiyi həqiqətlərin nədənliyinə diqqət yetirir. Ramiz Mehdiyevi oxuduqca, dərk etdikcə bir ömür boyu tarixin gedişatı haqqında yaddaşına həkk etdiyin həqiqətlər yenidən göz önünə gəlir, təzələnir. Bu təzələnmə fonunda bir vətəndaş olaraq özün də oxuyub – bildiklərini ortaya qoymaq arzunu boğa bilmirsən. Ramiz Mehdiyevin əhatəli, təkzibolunmaz şərhi, haqqında bəhs edib-etməməsindən asılı olmayaraq o mənbələri yada salır ki, onları sadəcə olaraq çağdaş beynəlxalq aləmin, baxışların diqqət mərkəzinə yönəltmək mütləq lazımdır. Məsələn, onun istinad etdiyi mötəbər mənbələr imkan verir ki, bədnam erməni siyasətçilərinin diqqətinə onların öz babaları, Amerikada yaşayıb-yaratmış yazıçı L.Z.Sürməliyanın (yenə də sürməlisi bizdəndi – G.) aşağıdakı sətirlərini çatdırasan: "Türklərlə ermənilər arasındakı ziddiyyətlərin başlanmasının səbəblərindən biri də Azərbaycan xalqının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin qəddarlığıdı".





Ramiz Mehdiyevin istinad etdiyi tarixi mənbələr bir daha impuls verir ki, erməni alimi Q.Antonyanın öz əliylə yazıb, erməni dilində 1962-ci ildə İrəvanda çap etdirdiyi "Ədəbiyyatda erməni – Azərbaycan dostluğu" monoqrafiyasının 31-ci səhifəsindən oxuduqlarımızı erməni daşnaklarının diqqətinə çatdıraq: "... Təsadüfi deyil ki, erməni tarixi Azərbaycanın mədəni nailiyyətləri ilə üzləşmişdi. Ermənilər vaxtı fövtə verməyərək Azərbaycan şifahi xalq ədəbiyyatının nüminələrini mənimsədilər, hətta onları utanmadan öz adlarına çıxmağa başladılar."

Bütün bunları etiraf edən erməni müəllifi Q.Ağayan da yazırdı: "Bizim aşıqların mahnılarla qarışıq dastanları yoxdur, bunlar ancaq türklərindir".

R.Mehdiyevin istinad etdiyi mənbələr bir daha tarixi yenidən oyadır, eyni zamanda ermənilərin özlərinin yazdıqları tarixin gizlinlərinə nüfuz etməyə sövq edir, erməni tarixçisi Leonun öz xalqı haqqında söylədiyi fikri bir daha göz önünə gətirir: "Erməni xalqı üçün nə daimi dost, nə də daimi düşmən yoxdur. Onlar üçün yalnız mənafe var..."

Yeni bir istinad, yeni bir mənbə: "Erməni dili hibrid (calaq) dildir. O biri yandan erməni qəbiləsi də hibriddir. Urartu və başqa qonşuları assimilyasiya etmişdir" (akademik M.Aqanbekyan).

Erməni tarixçisi Mikael Nalbadyan yazır: "Mən ermənilərin sakin olduğu bir çox yerləri gəz-

mişəm. Daima xalis ermənicə olan bir şey duymağa can atmışam. Təəssüf ki. bu arzum indiyə qədər yerinə yetməmişdir" (M.Nalbadyan: əsərlərinin tam külliyyatı, İrəvan - 1940).

Bu sətirlər ermənilərin öz fikir babaları, görkəmli alimləri tərəfindən yazılıb və İrəvanın tam mərkəzində fəaliyyət göstərən nəşriyyatlar tərəfindən çap olunub. Təbii ki, bu külliyyatın naşiri də, yazıçısı, redaktoru, rəyçisi, qlavlit işçiləri də erməni olub. Ancaq həmin ermənilərin heç biri öz erməni soydaşlarının həqiqəti ifadə edən dəlilinə qarşı etiraz edə bilməyiblər.

Eyni təkzibolunmaz həqiqətlər Nalbadyanın digər yazılarından da keçir. Məsələn, "Erməni xalqının tarixi" kitabında yazılanlara fikir verək: "Qədim erməni tayfaları Zaqafqaziyada deyil, məhz yuxarı Fərat vadisində məskunlaşmışlar".

Geniş yayımlanmış "Qafqaz xalqları" kitabında erməni tarixçisi V.İsaxanyan yazır ki, Qarabağın dağlıq hissəsində yaşayan ermənilər Türkiyə və İrandan gəlmiş qaçqınlardır. Azərbaycan torpağı onlar üçün təqiblərdən və təhdidlərdən sığınacaq yeri olmuşdur".

V.İsaxanyan öz erməni həmkarı M.Nalbadyanla eyni fikirdədir ki, "Antik dövrdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada – yəni Rusiyadan xeyli kənarda idi..."



Erməni yazıçısı V.Papazyan yazır: "Erməni xalqı tamamilə cahil, avam, vəhşi və ən başlıcası şüursuz vəhşilər idi. Adamlar daha çox basqın və talançılıqla məşğul idilər".

Tarixçi Daffi (Akop Melik Akopyan) isə şərh verir ki, "biz ermənilərin quru tarixi tarixçiyə çox az bilgi verməkdədir. Bizim ədəbiyyatımız kilsə yazarlarından o yana gedə bilməz..."

Yenə də ermənilərin fikir babalarından biri olan yazıçı Xaçatur Abovyanın fikirləri üzərinə qayıdaq: "Bizim yeni dilimiz (aşxabarlar) yan hissəsi türk və fars dilindən olan sözlərdən ibarətdir" (X.Abovyan. "Erməni yazıları" İrəvan, 1939, səh. 9. erməni dilində).

Yazıçı-pedaqoq Qazarel Ağayan 1940-cı ildə nəşr edilən "Seçilmiş əsərləri"nin III cildində (səh.25-26) yazır: "Erməni aşıqları mahnıları (şeirləri) erməni dilində yox, türk dilində bəstələyirlər. erməni dilində oxumaq adəti bizim aşıqlar arasında yoxdur".

Tarixin əvvəlində də, ortasında və bu çağında yazılanlar da belə istinad verir. Ermənilərin özləri öz adət-ənənələri, sənəti və mədəniyyətləri haqqında belə bilgi verirlər. Biz bu bilgilərdən nümunə olaraq hələ bir qisminə istinad edirik. Eyni zamanda həqiqət naminə onu da deməyi özümüzə borc bilirik ki, akademik Ramiz Mehdiyevin son dərəcə yüksək vətəndaşlıq duyğusu ilə yazdığı "Gorus – 2010: Absurd teatrı

mövsümü" kitabında bu deyilənlərdən daha etibarlı, daha qədim dəlillərə istinad edilir, tarixi olaylar çağdaşlığın kontekstində, sivil, dünyəvi fikir ucalığından şərh olunur.

Bütün bunlar öz yerində. Eyni zamanda akademik Ramiz Mehdiyevin dolğun tarixi məxəzlərə istinadən araya-ərsəyə gələn bu dəyərli kitabını oxuduqca ümummilli lider Heydər Əliyevin "Müstəqillik yolu" (Bakı, 1997) kitabında xüsusi olaraq diqqətə çatdırılan fikri bir daha ehtiramla yada düşür: "İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir".

Məhz bu yüksək mənəvi dəyərin tərbiyəsi, əxz edilən, mənimsənilən dərsidir ki, akademik Ramiz Mehdiyev də öz əsərində danılmaz həqiqətləri, tarixi məxəzləri ortaya qoymaqla, onların dərin təhlilini verməklə yanaşı, eyni zamanda da erməni tərəfi tarixdən ibrət götürməyə, beynəlxalq birliklərin, beynəlxalq aləmin qanunları, qəbul etdiyi dəyərlər çərçivəsində yaşamağa, birgə əməkdaşlığa dəvət edir. Ramiz Mehdiyev ulu öndər Heydər Əliyev məktəbinin layiqli yetirməsi olaraq "qana-qan", "ölümə-ölüm" demir, daha çox tarixə etina, hörmət etməyin gərək olduğunu önə çəkir.

Yeri gəlmişkən, erməni şovinistlərinin





Azərbaycan xalqına məxsus ərazilər hesabına bədnam "Böyük Ermənistan" ideyalarını gerçəkləşdirmək ideyası bütün dönəmlərdə gündəmdə olmuş, lakin ulu öndər Heydər Əliyevin Azərbaycan KP Mərkəzi Komitəsinə rəhbərlik etdiyi vaxt ərzində onların arzuları gözlərində qalmışdı. Məlumdur ki, hələ 1969-cu il may ayının 21-də Azərbaycan KP MK bürosunun iclasında (protokol № 100, 4-r) 1568,2 hektar torpağımızın Ermənistana verilməsi haqqında Azərbaycan Ali Sovetinin layihəsi bəyənilmişdir. Təbii ki, o zamankı Azərbaycan rəhbərləri buna Moskvanın təzyiqi ilə razılıq vermişdi. Ulu öndər Heydər Əliyev həmin ilin iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələyə yenidən baxılmasını Moskvadan cəsarətlə tələb etdi, bütün təzyiqlərə baxmayaraq Ermənistana bircə qarış torpaq verilməsinə razı olmadı.

"Həmin illərdə Ermənistan dairələri Azərbaycanın digər sərhəd rayonlarına qarşı da əsassız iddialar irəli sürürdülər. Lakin onların bu niyyətləri də puça çıxdı. Sov.İKP MK-nın 1969-cu il 5 avqust tarixli "Ermənistan SSRİ Şəmşədil rayonunun və Azərbaycan SSR Gədəbəy rayonunun bəzi kolxozları arasında qeyri-normal qarşılıqlı münasibətlər haqqında" qərarı Azərbaycan KP MK bürosunun H.Əliyevin sədrliyi ilə keçirilən 1969-cu il 17 avqust tarixli iclasında müzakirə edildi. İki qonşu xalq arasında normal münasibətlərin yaradılması zəruri sayıldı...

...Ermənistan KP MK-nın keçmiş birinci katibi A.Koçinyan 1988-ci ildə "Qarun" jurnalına (Ermənistan Yazıçılar İttifaqının və Respublika Komsomolu Mərkəzi Komitəsinin orqanı) verdiyi müsahibədə deyirdi ki, onun rəhbərliyi dövründə Qarabağ "məsələsi" neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu və mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdir. Hətta M.A.Suslov Koçinyanı yanına çağırıb: «Хватит армянского национализма» demişdi və bu, L.İ.Brejnevin dövründə erməni millətçiliyinə və Qarabağ "probleminə" ağır nöqtə idi. Bəlkə buna görə də L.İ.Brejnevin vəfatı İrəvanda bayram kimi qarşılandı...

...Torpaqların verilməsi barədə qərarın icrasının dayandırılması erməni dairələrində ümidsizlik yaratsa da onlar fəaliyyətlərindən imtina etmədilər. Bəzi erməni dairələri imkan düşdükcə Azərbaycan torpaqlarına olan əsassız iddialar irəli sürür, düşmənçiliklərini daha məkrli yollarla davam etdirirdilər. H.Əliyev isə konkret, aydın və strateji niyyətlər güdən fəaliyyət göstərirdi. O, bu fəaliyyətini bir neçə istiqamətdə və çox incə üsullarla həyata keçirirdi. Ulu öndər ilk növbədə iki xalq arasında münasibətlərin yaxşılaşdırılmasına çalışır, soyuqluğa yol verilməməsi üçün konkret işlər görür, münaqişələrin yaranmasına imkan vermir, mənfi hallar baş verdikdə isə onun qarşısını dərhal alırdı.





Beləliklə, 1969-cu il may ayının 7-də qəbul edilmiş qərar kağız üzərində qaldı və 1984-cü ilədək Ermənistanda bu məsələ qaldırılmadı. Heydər Əliyevin nə qədər böyük və güclü şəxsiyyət olduğunu ermənilər də yaxşı dərk edirdilər. Qorbaçovun yenidənqurma siyasəti başlanan kimi erməni siyasətbazları, daşnak ideoloqları Heydər Əliyevə qarşı təxribat fəaliyyətini genişləndirdilər.

Heydər Əliyevin Dağlıq Qarabağda yeritdiyi cəsarətli siyasət, o cümlədən Azərbaycan naminə bütün fəaliyyəti müəyyən erməni dairələri tərəfindən qəzəblə qarşılanırdı. Ona qarşı Ermənistandakı rəsmi dairələr, xaricdəki daşnaklar, müxtəlif təşkilatlar gizli və ya açıq şəkildə birləşmişdilər. Məqsədə nail olmaqdan ötrü bütün vasitələr məqbul hesab olunurdu. Onlar Heydər Əliyevə qarşı müxtəlif vasitələrdən, məkr və böhtanlardan istifadə edirdilər. H.Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi, Azərbaycanın yüksək inkişafı, azərbaycanlıların ölkədə və xaricdə nüfuzunun artması erməni dairələri tərəfindən özlərinin məğlubiyyətləri kimi qiymətləndirlirdi.

Heydər Əliyevin hakimiyyəti illərində Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan torpaqlarına gəlmə olduqlarını başa düşmüşdülər. Nəinki başa düşmüşdülər, hətta diyara köçürülmələrinin 150 illiyi münasibətilə abidə də qoymuşdular. Amma bəzi

erməni alimləri, siyasətçiləri, yazıçı, şair və publisistləri antiazərbaycan siyasətlərindən heç cür əl çəkmir, özlərini qəzəbli, kinli aparır, Dağlıq Qarabağdakı təsərrüfat, mədəni quruculuq işlərini, görülən işlərin mətbuatda əks olunmasını qısqanaraq əsassız iddialarını daha məkrlə davam etdirdilər. Onların Heydər Əliyevin əleyhinə müxtəlif mərkəzi orqanlara göndərdikləri şər, böhtan dolu, əsası olmayan imzalı-imzasız şikayət məktublarının və teleqramlarının ardı-arası kəsilmirdi.

70-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən gündəmə gətirsələr də, bu məsələnin qarşısı alındı. 1977-ci ildə SSRİ Konstitusiyası qəbul edilərkən ermənilər müxtəlif mərkəzi orqanlara müraciət edərək Dağlıq Qarabağ məsələsini yendən qaldırdılar. Lakin Heydər Əliyev bu zaman Krımda istirahət edən Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevlə görüşüb məsələni həll edərək erməni avantüristlərinin iddialarını puça çıxartdı. Artıq onun Dağlıq Qarabağa siyasətində həyata keçirdiklərinin qarşısını kimsə almaq iqtidarında deyildi.

1980-ci illərin sonunda Dağlıq Qarabağı Azərbaycandan ayırmaq məsələsini irəli sürəndə yenə də erməni və SSRİ mətbuatında Heydər Əliyevə qarşı böhtan dolu yazılar meydana çıxdı, ermənilər xalqını, torpağını sevən, hətta bu yolda həyatını qurban verməyə hazır olan alovlu vətənpərvər Heydər Əliyevin





ünvanına böhtanlar yağdırmağa başladılar. Utanmadan yazırdılar ki, guya onun Azərbaycana rəhbərlik etdiyi vaxtda ermənilər sıxışdırılmış, hüquqları məhdudlaşdırılmış, Dağlıq Qarabağdan getmələri üçün tədbirlər görülmüşdür. Təəssüfləndirici haldır ki, erməni "tarixçiləri" ənənəvi şər, böhtan kampaniyasını davam etdirərək müdrik siyasətçi Heydər Əliyevin guya ötən əsrin 70-80-ci illərində Azərbaycanda ermənilərə qarşı "ağ soyqırımı" siyasəti yürütməsi barədə cəfəngiyyat danışmaqdan çəkinmirlər. Əksinə, bunlar Heydər Əliyevin Azərbaycan xalqının mənəvi, sosial-siyasi və iqtisadi yüksəlişi yolunda böyük işlər gördüyünü, xalqına, millətinə misilsiz xidmətlər göstərdiyini bir daha təsdiq edir". (M.Şabanovun "Dövlət və din" toplusunda yer alan məqaləsindən (2012).)

Qeyd etməyi xüsusilə vacib bilirik ki, akademik Ramiz Mehdiyev "Gorus – 2010: Absurd teatrı mövsümü" kitabında Azərbaycan – Ermənistan, Dağlıq Qarabağ həqiqətlərinin tarixi gəlişmələrini məhz bu cür təkzibolunmaz mənbələr əsasında araya-ərsəyə gətirmiş, beynəlxalq aləmin diqqətinə əminliklə ayrı-ayrı zaman kəsiyində baş vermiş olayların gerçək olanını çatdırmışdır.

Razılıq doğuran cəhət odur ki, sözügedən kitab boyunca müəllif hadisələrin faktik mənzərəsinə birtərəfli yanaşmır, baş verənləri beynəlxalq hüquq normalarının gözü ilə araşdırır, mülahizələrini təkcə

Azərbaycan tərəfin mövqeyi baxımından yox, tarixi həqiqətin meyarı, şahidliyi ilə təqdim edir. Məntiq və tarixə sədaqət, obyektivlik bu dəyərli əsərin uğurunu təmin edir.



***"Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yaddaşlarda qalacaqsa, XXI əsr həmin müstəqilliyin möhkəmlənməsi, strukturlaşması və dönməz xarakter alması ilə əlamətdar olacaqdır. Nüfuzlu beynəlxalq ekstremistlərin etiraf etdiyi əsl reallıq ondan ibarətdir ki, yeni minilliyə Azərbaycan hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur..."***

***Akademik RAMİZ MEHDİYEV***

Bu cəhət R.Mehdiyevin digər sahələri əhatə edən məqalə və yaxud çıxışlarının da əsasını təşkil edir. Təkcə onun 21-22 sentyabr 2010-cu ildə Rusiya Federasiyasının Yekaterinburq şəhərində müasir dövrdə təhlükəsizliyin müxtəlif problemlərinə həsr olunmuş beynəlxalq tədbirdə "Beynəlxalq informasiya təhlükəsizliyinin möhkəmləndirilməsinə ümumi yanaşmalar" və "Millətlərarası düşmənçilik və dini dözümsüzlüklə əlaqədar böhranlı vəziyyətlərdə ekstremizm təzahürlərinə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın fəallaşdırılması problemləri" mövzularına həsr olunmuş mühazirələrinə nəzər salmaq kifayət edər ki, Ramiz Mehdiyevin elmi-nəzəri, siyasi zəkasının, düşüncə zənginliyinin genişliyini və əhatəliliyini göz önünə gətirə biləsən.





Hər iki məruzədə, professor Əsədulla Qurbanovun da şərh verdiyi kimi, dinşünaslığın və islamşünaslığın, ümumiyyətlə, siyasətşünaslığın ən aktual məsələləri, elmi-nəzəri və əməli əhəmiyyət daşıyan ayrı-ayrı problemləri geniş və dərindən təhlil edilmiş, "şərh olunan problemlərlə əlaqədar Azərbaycanda görülən və gələcəkdə görüləcək işlərlə bağlı qarşıda duran mühüm vəzifələr barədə elmi-nəzəri xarakterli mülahizə və əməli əhəmiyyətli konkret təkliflər irəli sürülmüşdür" (Ə.Qurbanov. "Dinşünaslıq, islamşünaslıq və siyasətşünaslığın bəzi aktual məsələləri". "Dövlət və din" ictimai fikir toplusu, noyabr-dekabr, 2011. Səh.49).

Akademikin dərin məzmunlu məruzələrinin xüsusi həssaslıqla şərh olunduğunu nəzərə alaraq professor Ə.Qurbanovun adı çəkilən məqaləsindən bütöv bir ayırmanı diqqətə çatdırırıq: "Akademik Ramiz Mehdiyevin yuxarıda adları çəkilən məruzələrində toxunulan "dini terrorçuluğun", "dini ekstremizmin", "dini separatçılığın" mürtəce mahiyyətinin şərhi dinşünaslıq və islamşünaslıq elmlərinin predmetinə daxil olan problemlərdəndir. Həmçinin qeyd edək ki, beynəlxalq miqyaslı dini terrorçuluq qloballaşmanın "nankor övladı"dır.

Akademik Ramiz Mehdiyevin məruzələrində müasir qloballaşma şəraitində dini terrorçuluğun, dini

ekstremizmin və dini separatçılığın fəsadları haqqında çox qiymətli elmi-nəzəri və əməli əhəmiyyət daşıyan mülahizələr yer almış, həmin neqativ halların qarşısının alınmasına dair çox gərəkli, tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür. Akademikin "Millətlərarası düşmənçilik və dini dözümsüzlüklə əlaqədar böhranlı vəziyyətlərdə ekstremizmin təzahürlərinə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın fəallaşdırılması problemləri" mövzusundakı məruzəsində deyilir: "Müasir ekstremizmin xüsusiyyətləri arasında aşağıdakıları fərqləndirmək olar:

- Müxtəlif ekstremist qrupların regional və qlobal proseslərə təsirinin artması;

- Ekstremistlərin fəaliyyətində qəddarlığın artması;

- Ən yeni texniki nailiyyətlərdən, o cümlədən sosial şəbəkələr, internetdə forumlar kimi kommunikasiya sistemlərindən istifadə edilməsi;

- Ekstremist fəaliyyət formalarının müxtəlifliyi.

Ekstremizmin çoxsaylı formaları arasında ən təhlükəli formalar kimi milli və dini ekstremizmi qeyd etmək lazımdır. Onların dağıdıcı potensialı olduqca böyükdür, çünki onların səbəb olduğu böyük insan qırğınları, hətta bütöv xalqları da əhatə edə bilər.

Təəssüflə qeyd etməliyəm ki, ekstremizmin





dağıdıcı nəticələri Azərbaycandan da yan keçməmişdir".

Müasir dövrdə müstəqil Azərbaycanın görkəmli filosofu olan akademik Ramiz Mehdiyev xüsusi olaraq qeyd edir ki, məhz millətçi ekstremizm və ondan qidalanan təcavüzkar separatizm ucbatından bu gün ölkəmizin 20 faizi bədnam və işğalçı Ermənistan Respublikası tərəfindən zəbt edilmişdir. Erməni ekstremistlərinin, seperatçılarının dövlət siyasəti ilə müşayiət olunan nihilist, məkrli niyyətləri nəticəsində bir milyonadək Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, erməni terrorçularının ölkəmizdə törətdikləri 30-dan artıq terror aktları nəticəsində 20 mindən çox azərbaycanlı – müsəlman qətlə yetirilmiş, həlak olmuşdur. Azərbaycanın erməni faşistləri, təcavüzkarları tərəfindən işğal olunmuş ərazilərində, o cümlədən, 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində törədilən faciə zamanı azərbaycanlıların – müsəlmanların kütləvi şəkildə qırılması dünya ictimaiyyətini hədsiz dərəcədə hiddətləndirmişdir.

Ermənilərin uydurma, qondarma "Dağlıq Qarabağ problemi"nin əsasını ekstremizm, separatizm, etnik təmizləmə, ərazi iddiası siyasəti təşkil edir. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün Cənubi Qafqaz regionunda təhlükəsizliyə və

sabitliyə təhdid mənbəyidir.

11 sentyabr 2001-ci ildə ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində törədilmiş dəhşətli və çoxsaylı insan tələfatına səbəb terror aktlarından sonra müstəqil Azərbaycan beynəlxalq miqyaslı terrora qarşı koalisiyaya qoşulmuş ilk dövlətlərdən olmuşdur. Bu münasibətlə çox xarakterik bir faktı diqqətə çəkmək istərdik.

2005-ci ildə İslamın tarixi vətəni olan Səudiyyə Ərəbistanı Krallığında, Məhəmməd peyğəmbərin (s.) anadn olduğu müqəddəs Məkkə şəhərində 2001-ci il sentyabr ayında ABŞ-da törədilmiş terroru pisləyən və onun mənfi nəticələrinin aradan qaldırılmasına həsr olunmuş İslam Konfransı Təşkilatının (indi bu beynəlxalq qurum İslam Əməkdaşlığı Təşkilatı adlanır) 3-cü fövqəladə toplantısı keçirilmişdir. Burada ölkəmizin başçısı, hörmətli Prezidentimiz İlham Əliyev də iştirak etmiş, nitq söyləmişdir. O, forumun rəhbəri – İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğluna bildirmişdir ki, belə analoji toplantının Bakıda da keçirilməsi daha məqsədəuyğun olardı. Bu müraciət çox böyük məmnunluqla qarşılanmış, toplantı 2006-ci ilin payızında paytaxt Bakıda keçirilmişdir.

Prezidentimiz cənab İlham Əliyev ev sahibi kimi həmin forumda dərin məna, məzmun və mündəricəli nitq söyləmişdir.





Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirləri şurasının 33-cü sessiyasında dövlət başçımızın nitqində deyilir: "Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə, bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən siyasi dairələr tərəfindən İslamı terrorizmlə eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir. Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorizmlə eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorçu təşkilatları bizə qarşı 30-dan çox terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən artıq azərbaycanlı həlak olmuşdur. Ancaq biz bu terrorçu təşkilatları hər hansı dinə bağlamırıq. Bu, düzgün deyildir. Terrorizmin nə dini var, nə də milliyyəti. Ona görə biz bu məsələlərə öz etirazımızı daha da inamla bildirməliyik, öz sözümüzü deməliyik. Eyni zamanda, gərək bütün təbliğat imkanlarımızdan istifadə edərək, çox böyük narahatlıq doğuran bu mənfi meyilə münasibətimizi bildirək, öz hərəkətlərimizlə bunun qarşısını alaq".

Göründüyü kimi, burada dini terrorçuluğa, dini ekstremizmə, dini separatçılığa qarşı mübarizə sahəsində qarşıya çox mühüm və təxirəsalınmaz vəzifələr qoyulmuşdur. Bu vəzifələr akademik Ramiz Mehdiy-

evin yuxarıda adları çəkilən məruzələrində də bir daha konkretləşdirilmişdir. Onun "Millətlərarası düşmənçilik və dini dözümsüzlüklə əlaqədar böhranlı vəziyyətlərdə ekstremizm təzahürlərinə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın fəallaşdırılması problemləri" adlı məruzəsində deyilir ki, Qafqaz regionunda digər ekstremist qüvvələr də millətçilik kartı ilə oynamağa çalışırlar. Həmin qüvvələr müxtəlif kütləvi informasiya vasitələrinin və internetin köməyi ilə millətçi dözümsüzlük, milli azlıqlar arasında ekstremist və separatçı əhvali-ruhiyyələrin qızışdırılmasına yönəlmiş ideoloji xarakterli təbliğat və təxribat işləri aparırlar. Bəzi hallarda həmin qüvvələr transsərhəd xarakteri daşıyır.

Bununla yanaşı, müstəqil Azərbaycan Respublikasının üzləşdiyi erməni vəhşiliyi nəticəsində xalqımızın üzləşdiyi ekstremizmin yeganə forması deyildir. Dini, daha dəqiq desək, dini-siyasi ekstremizm də durmadan genişlənməkdədir. Bu gün müxtəlif təmayüllü ekstremist qruplar öz məkrli niyyətlərinə çatmaq üçün radikal dini baxışlar, o cümlədən, vəhhabilik, radikal şiəlik kimi mənfi meyllərdən istifadə etməklə müstəqil Azərbaycanda dünyəvi, hüquqi, demokratik dövlət, humanist, sivilizasiyası və vətəndaş həmrəyliyi cəmiyyəti quruculuğunu dini-teokratik dövlət və cəmiyyətlə əvəzləməyə yönəlmiş fəaliyyətini bərqərar etmək kimi





kökündən yanlış iddiaya düşmüşlər. Onlar baş memarı Heydər Əliyev olan müstəqil ölkəmizdə ilk demokratik Konstitusiyamızda qanunçuluqla təsbit olunmuş dünyəvi, hüquqi, demokratik dövlət, humanist, sivilizasiyalı və vətəndaş həmrəyliyi cəmiyyəti qurmaq kimi ali missiyanı əngəlləməyə, dini və sosial durumu gərginləşdirməyə cəhd edirlər.

Dini terrorçuların, dini ekstremistlərin və dini separatçıların məkrli niyyətlərini əhatə edən fəaliyyətləri nəticəsində yaranan təhlükəni artıra biləcək bəzi riskli amilləri qeyd etmək çox vacibdir.

Məlum, real gerçəklik bundan ibarətdir ki, ölkəmizdə sovet – kommunist rejimi dövründə dinini, o cümlədən, xüsusilə İslam dininin milli və ümumbəşəri mənəvi dəyərlərini elmilik, obyektivlik, məntiqlik və dünyəvilik baxımından tədqiqi, tədrisi və təbliği sahəsində çox ciddi ideoloji boşluq yaranmış, mütərəqqi mahiyyətli milli-dini adət-ənənələrin nəsildən-nəsilə keçirilməsində əlaqə, demək olar ki, tamamilə kəsilmişdir. Bu, əhalinin müxtəlif sosial təbəqələri, o cümlədən, xüsusilə gənclər, qadınlar, təqaüdçülər və başqaları arasında savadsızlığın, mövhumat, xurafat, fanatizm, fatalizm, asketizm, mistisizm kimi mənfi halların artmasına səbəb olmuşdur.

Ekstremist, terrorçu, separatçı dini təşkilatlar, xarici missionerlər, vəhabilər, nurçular və bu qəbildən

olan digər dini qurumlar, habelə təşkilatlar, birliklər də bundan istifadə etməyə çalışırlar. Çox zaman sözügedən məsələdə maraqlı olanlar, o cümlədən, xarici dövlətlərin xüsusi xidmət orqanlarında işləyən missionerlər həmin qurumlar tərəfindən maliyyələşdirilirlər.

Sözügedən qruplar daha incə mətləblərə əl atırlar. Başqa sözlə desək, dini ekstremistlər maddi ehtiyacı olanları xüsusilə erməni faşistləri tərəfindən öz yurd-yuvalarından zorla məcburi köçkünə və didərginə çevrilən insanlara humanitar yardım göstərməklə onları öz təsirləri altına sala bilirlər.

Doğrudur, son illərdə respublikamızda dini ekstremizmə, terrorçuluğa və separatçılığa qarşı mübarizədə ölkəmizin hüquq-mühafizə orqanları, xüsusilə Milli Təhlükəsizlik Nazirliyi tərəfindən bir sıra qabaqlayıcı, təsirli kompleks tədbirlər görülmüş və bu iş ardıcıl olaraq davam etdirilir. Lakin dini terrorçuluğa, dini ekstremizmə və separatçılığa qarşı mübarizədə başqa təsirli tədbirlər də görmək çox vacibdir. Bu sıraya dinin, o cümlədən, İslamın ümumbəşəri mənəvi dəyərlərini əhali arasında yaymaq üçün aşağıdakı tövsiyə xarakterli təkliflərimizi də bildirmək istərdik:

Birincisi, respublikamızın ali məktəblərində "Dinşünaslıq" və "İslamşünaslıq" fənlərinin tədrisi





faydalı olardı.

İkincisi, dövlət sistemindəki humanitar yönümlü ali məktəblərdə, akademiyamızın Fəlsəfə, sosiologiya və hüquq, A.A.Bakıxanov adına Tarix, akademik Ziya Bünyadov adına Şərqşünaslıq, habelə İnsan Hüquqları Elmi-Tədqiqat İnstitutlarının dinşünaslıq və islamşünaslıq sahəsində çalışan alimlərinin qüvvəsindən istifadə etməklə respublikamızda sözügedən sahədə yüksək ixtisaslı milli mütəxəssis kadrların hazırlanması vacibdir.

Üçüncüsü, dinin, o cümlədən, İslamın ümumbəşəri mənəvi dəyərlərini maarifçilik yolu ilə təbliğ etmək üçün müntəzəm olaraq KİV-də elmi-nəzəri və əməli əhəmiyyətli materiallar dərc etmək daha məqsədəuyğundur.

Akademik Ramiz Mehdiyevin yuxarıda adları çəkilən müasir dövr üçün çox önəmli və aktual məruzələrindən sonra ölkəmizin əksər aidiyyəti orqan, qurum və təşkilatlarında həmin məruzlərdə ehtiva olunan mühüm vəzifələrin yerinə yetirilməsi məqsədilə kompleks xarakterli tədbirlər həyata keçirilməyə başlandı. Məsələn, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Bakıda Moskva Dövlət Linqvistika Universiteti (MDLU) ilə birlikdə "Qafqazda ekstremizm ideologiyasının yayılmasına qarşı mübarizə" mövzusunda elmi-əməli konfrans keçirmişdir...

Akademik Ramiz Mehdiyevin "Beynəlxalq informssiya təhlükəsizliyinin möhkəmləndirilməsinə ümumi yanaşmalar" mövzusundakı məruzəsində haqlı olaraq belə bir irad var ki, sözügedən forumun müzakirəsinə çıxarılan məsələlər mütərəqqi dünya ictimaiyyətinin, xüsusən də terrorçuluq, separatçılıq və ekstremizm təhlükəsi barəsində bir çox hallarda ümumiləşdirilmiş şəkildə söhbət açılır. Onların harada və hansı şəraitdə formalaşdığından söhbət getmir. Unutmaq olmaz ki, bu təhlükəli hadisələrin hər birinin yaranmasının konkret məqsədi vardır.

Keçən əsrin sonu, hazırkı əsrin əvvəllərində elmi-texniki tərəqqi postsənaye informasiya cəmiyyətinin yaranmasına gətirib çıxarmış, bununla da, dünyanın dövlət modeli dəyişmişdir. Hazırki yeni informasiya – kommunikasiya texnologiyaları olmadan sosial – siyasi prosesləri səmərəli, məqsədyönlü idarə etmək qeyri-mümkündür. İnformasiya məkanının qloballaşması və kütləvi kommunikasiya vasitələri təbəqəsinin təsiri altında cəmiyyətdə baş verən dəyişikliklər yalnız müəyyən üstünlüklər və mənfəətlərlə məhdudlaşmayıb, həm də sosial-siyasi sahədə informasiya mübarizəsi aparmaq üçün geniş və hərtərəfli imkanlar yaradır. Bu da, öz növbəsində milli və beynəlxalq təhlükəsizliyə təhdid doğurur.

Qeyd etmək lazımdır ki, belə bir vəziyyət milli





təhlükəsizlik, hər şeydən əvvəl informasiya təhlükəsizliyi kimi önəmli sahənin problemlərinə ənənəvi yanaşmaların ciddi transformssiyasına gətirib çıxarmışdır. Bir qayda olaraq, formalaşmaqda olan yeni informasiya kommunikasiya mühiti istənilən ölkənin siyasi-iqtisadi və müdafiə təhlükəsizliyinə fəal təsir göstərir.

Şübhəsiz ki, informasiya daim ən başlıca resurs olmuşdur. Lakin məhz qloballaşma, inteqrasiya və informasiya texnologiyaları proseslərinin geniş vüsət aldığı XXI əsrdə bu resurs istər ayrıca, konkret bir dövlətin, məsələn, Azərbaycan Respublikasının, istərsə də bütövlükdə beynəlxalq münasibətlər sisteminin dayanıqlı, sabit inkişafının təmin olunması üçün, həqiqətən, həyati zərurətə çevrilmişdir. Bundan savayı, hazırda həm qlobal informasiya mübadiləsinin iştirakçısı kimi yeni informasiyanı təhlil etmək, ondan istifadə etmək, onu yaratmaq üçün əməli olaraq qeyri-məhdud imkanlar qazanmış, onu hamıdan ötrü əlverişli etmişdir.

Beləliklə, elmi-texniki durum müasir informasiya texnologiyalarını siyasi silaha çevirmişdir. Kütləvi informasiya vasitələrindən, o cümlədən, internetdən terrorçular da, ekstremistlər də, hətta separatçılar da istifadə edirlər. Bu istifadə xüsusilə 2001-ci ilin 11 sentyabrında ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində törədilən dəhşətli, çoxsaylı insan itəlafa-

tına səbəb olan terror aktlarından sonra daha geniş miqyas almışdır.

Dini ekstremizm, terrorçuluq və separatçılıqdan dünyada baş verən hadisələrin bir çox hallarda ikili standartlarla qiymətləndirilməsində gen-bol istifadə olunur. Yeri gəlmişkən, bir məsələyə də toxunmaq istərdik. İkili standartlardan istifadə edən dairələr bəzən internet azadlığı ilə söz azadlığını səhv salırlar, halbuki, bunlar mahiyyət etibarilə fərqlənirlər.

Akademik Ramiz Mehdiyev məruzəsində bu məsələdən bəhs edərkən çox haqlı olaraq qeyd etmişdir: "Təbii ki, kompüter texnologiyaları özlüyündə prinsip etibarilə nə siyasəti, nə də beynəlxalq münasibətlər sistemini transformasiya etmir. Bununla bərabər aşkardır ki, beynəlxalq informasiya təhlükəsizliyi, ilk növbədə, informasiya texnologiyalarından düşmənçilik məqsədilə istifadə edilməsi təhlükəsinin azaldılması hesabına möhkəmlətmədən milli və qlobal təhlükəsizliyinin səmərəli təmin edilməsi mümkün deyildir".

Burada qarşıya çox mühüm vəzifələr qoyulmuşdur. Onların müvəffəqiyyətlə yerinə yetirilməsinə xidmət məqsədilə bəzi məsələlərə toxunmaq istərdik. Məsələn, radikal müxalifətin tabeçiliyindəki kütləvi informasiya vasitələri, o cümlədən, qəzetlər, haqlı-haqsız ölkəmizin ünvanına qeyri-obyektiv xarakterli,





hətta şantaj, böhtan səpkili materiallar dərc edirlər. Xüsusilə də Dağlıq Qarabağla bağlı respublikamızın ünvanına ifrat dərəcədə böhtanlar, həqiqətə uyğun olmayan təhdidlər irəli sürürlər. Bu qüvvələrə, eləcə də xarici missionerliyin, vəhhabliyin, nurçuluğun və radikal şiəliyin məkrli siyasətinə qarşı ölkəmizin KİV-i layiqincə qarşılıq verməlidir... Bu sahədə son zamanlar respublikamızda bir sıra uğurlu işlər görülsə də, onu yüksəltmək üçün Prezident İlham Əliyevin 2011-ci ilin sentyabr ayının sonunda Varşavada (Polşa) Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammitindəki nitqində və Bakıda "XXI əsr: ümidlər və çağırışlar" devizi altında keçirilən Beynəlxalq Humanitar Forumdakı dərin məzmunlu məruzəsindən irəli gələn məsələlərə xüsusi diqqət yetirmək lazımdır.

Məlum olduğu kimi, Şərq tərəfdaşlığına aid sammitin keçirilməsində başlıca məqsəd bu beynəlxalq birliyin üzvü olan ölkələrin, o cümlədən, Şərqin müsəlman ölkələrinin, o cümlədən, müstəqil Azərbaycanın Avropaya inteqrasiyasını genişləndirməkdən ibarətdir. Şübhə yox ki, bu işdə Azərbaycanın kütləvi informasiya vasitələrinin üzərinə mühüm vəzifələr düşür.

Akademik Ramiz Mehdiyev də belə bir strateji məsələyə toxunaraq demişdir: "Azərbaycan həm də "Şərq tərəfdaşlığı Avropa şurası mexanizmi" proqramı

çərçivəsində Şərqi Avropada həyata keçirilən kibernetik cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq layihəsində iştirak edir. Bu layihənin həyata keçirilməsi gedişində Avropa və beynəlxalq normativ vasitələrindən və praktikadan istifadə edilməklə kibercinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığın səmərəli həyata keçirilməsi üçün potensialın möhkəmləndirilməsi üzrə məsələlər həll edilir. Növbəti regional konfransın Bakıda keçirilməsi planlaşdırılır". (Ə.Qurbanov, göstərilən məqalə)

Faktlar onu göstərir ki, Azərbaycan sözügedən problemlərin müsbət həlli üçün, xüsusilə də dini terrorçuluğa, ekstremizmə və separatçılığa qarşı mübarizədə özünün bütün imkanlarından səmərəli istifadə edəcəkdir.



***"XXI əsrin milli dövlətçiliyindən danışarkən dərk etmək lazımdır ki, bu, qarşılıqlı surətdə bir-biri ilə bağlı olan bir neçə amilin – milli mənafenin və ümumbəşəri humanist dəyərlərin təcəssümüdür..."***

***Akademik RAMİZ MEHDİYEV***

Bir qayda olaraq akademik Ramiz Mehdiyevin bəhs etdiyi problemlər vətəndaş cəmiyyətinə yol açan ideyaların aydınlığından keçir. Onun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf etdiyi "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" kitabı məhz bu aydınlığın ruh daşıyıcısı kimi oxunur.

Fransız filosofu Ogüst Kontun "ideyalar dünyanı idarə edir və dəyişir" qənaətini öz dərin məzmunlu elmi-nəzəri mülahizələri ilə genişləndirən, bu gerçək fikri müxtəlif yönümlərdən paraqraflayan, şərh edən Ramiz Mehdiyev haqlıdır ki, "XXI əsrin milli dövlətçiliyindən danışarkən dərk etmək lazımdır ki, bu, qarşılıqlı suratdə bir-biri ilə bağlı olan bir neçə amilin – milli mənafenin və ümumbəşəri humanist dəyərlərin təcəssümüdür..." Onun "Bu gün dəqiq





müəyyənləşdirilmiş dövlət sərhədləri çərçivəsində milli dövlətçilik inkişafı əsas atribut sayılır. Tam monoetnik və mədəni cəhətdən yekcins cəmiyyət yaratmaq utopiyadır" mülahizələri son dərəcə dəqiq bir fikir aydınlığı ilə düşüncələrə sirayət edir və gəlinən məntiqi nəticə eyni fikir ucalığıyla deməyə əsas verir ki, "milli dövlətçilik müstəqil daxili və xarici siyasət aparmaq üçün təkcə aqremanın olması da demək deyildir. Milli dövlətçilik Vahid məqsəd uğrunda – dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir".

Razılıq doğuran odur ki, görkəmli filosofun elmi-nəzəri ümumiləşdirmələrini bütün hallarda sarsılmaz bir inam, əminlik duyğusu izləyir. Akademik Ramiz Mehdiyev yazanda ki, "Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yaddaşlarda qalacaqsa, XXI əsr həmin müstəqilliyin möhkəmlənməsi, strukturlaşması və dönməz xarakter alması ilə əlamətdar olacaqdır. Nüfuzlu beynəlxalq ekspertlərin etiraf etdiyi əsl reallıq ondan ibarətdir ki, yeni minilliyə Azərbaycan hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur..." – biz ona səmimi qəlbdən inanırıq.

2003-cü ilin fevral ayında R.Mehdiyevin dərin əminliklə yazdığı bu mülahizələr 2012-ci ildə, cəmi 9

il civarında bir vaxt çərçivəsində özünün dolğun reallığı, qaçılmazlığı ilə göz önünə gəlir. Görkəmli akademik cəmiyyətdə baş verən hadisələrin, ayrı-ayrı müxalifət düşərgələrində yaşanan siyasi həyat mövqeyinə son dərəcə konstruktiv mövqedən nəzər salır, konkret faktlar, dəlillər əsasında münasubət bildirir. Bu baxış müstəvisində onun məlumat diapazonu, oxu sahəsinin zənginliyi və obyektiv təhlil mədəniyyəti dərin hörmət, razılıq hissi doğurur. Akademik Ramiz Mehdiyev hər hansı baxış bucağına mənsub olduğu partiyanın hər hansı siyasi marağın gözüylə nəzər salmadan öncə qarşı tərəfin fikirlərini diqqətlə öyrənir, məsələnin mahiyyətinə varır və müqayisəli şəkildə öz obyektiv mövqeyini ortaya qoyur. Bu baxımdan onun çeşidli milli mətbuatı bu qədər genişliyi ilə izləyə bilməsi gerçəkliyi sözün yaxşı mənasında qibtə və heyrət doğurur. Ramiz müəllim bir çox müxalifət partiyaların öz fəaliyyətləri istiqamətdə daha çox radikallıq və başıpozuqluq meyllərini önə çıxarmalarının əsas səbəblərini haqlı olaraq onların özlərinə müxtəlif cəlbedici adlar qoyaraq ifrat radikal, destruktiv mübarizə metodlarını və platformalarını əsaslandırmağa çalışma cəhdlərinin olmasını önə çəkir. Göstərir ki, bu cür müxalifət partiyalar milli qüvvə adı ilə əslində özlərini xalqın, millətin maraq və mənafelərinin yeganə, ardıcıl müdafiəçisi kimi göstərmək istəyir. Eyni zamanda onu da doğru olaraq vurğulayır





ki, "hadisələrə fərqli mövqe bildirən partiyaları isə antimilli qüvvə kimi səciyyələndirirlər..."

R.Mehdiyev bu dəqiq müşahidəsini konkret misallar əsasında diqqətə çatdırır. Bununla da müqayisə etməyi, kimin doğru, kimin qeyri-səmimi danışmasından nəticə çıxarmağı əslində oxucunun öz ixtiyarına boşlamış olur. Bu mövqedən çıxış edən akademik yazır: "Məsələn, Arif Hacıyevin bəzi partiyaları milli qüvvə olmaqda günahlandırması ALP-nin sədr müavini Ə.Temirxanın hiddətinə səbəb olub:"Kimin qeyri-milli olmasını tarix müəyyənləşdirir, öz üzərinə Azərbaycan Respubliaksının müxalifət naziri postunu götürən A.Hacılı yox. Kimin milli olmasını onun 9 dövlətin mənafeyinə deyil, milli mənafeyə xidmət etməsi müəyyənləşdirir".

Ramiz Mehdiyev aktiv siyasi müstəvidə illüziyaların, avantürist şouların müsbət effektli olacağını haqlı olaraq qəbul etmir. Siyasi yalanların dalana dirənəcək məsafəsi onun üçün heç də bağlı qutu deyil, öz siyasi liderindən, ulu ustadından əxz etdiyi hadisələrə real, obyektiv və cəsarətli baxış sərgiləyə bilmək məharəti ona imkan verir ki, siyasi fəaliyyətində xalq faktoruna daha çox istinad etsin. İnamla vurğulasın ki, "əgər xalq istəmirsə, heç bir xarici qüvvə kimisə önə çəkə bilməz və çəksə də onun nəticəsi olmayacaq".

Təsadüfi deyil ki, ümummilli lider Heydər

Əliyev də 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasında etdiyi tarixi çıxışında xalq məfhumunu haqlı olaraq önə çıxarır, "Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər" – deyə bəyan edir, – xalqın müqəddəratı hər şeydən üstün olmalıdır" deyirdi.

Öz böyük ustadının yüksək həyat mövqeyindən xalq anlayışının tarixi yerini və vəzifəsini düzgün müəyyənləşdirən Ramiz Mehdiyev öz fikirlərini birtəfəli şəkildə diqtə etmir, eyni zamanda siyasi opponentlərinin doğru qənaətlərini təqdir etməklə, mülahizələrinin əsaslı olduğunu inandırıcı şəkildə ortaya qoyur. O, xalqın iradəsinin aparıcı meyar olduğunu bəyan edən yuxarıdakı fikirlərini ALP sədri Lalə Şövkət Hacıyevanın aşağıdakı sözləriylə bir arada təqdim edir və doğru qeyd edir ki, bu məsələ ilə bağlı ALP sədri müxalifətçi həmkarlarına düzgün cavab verir: "...Qərbin kimisə dəstəkləməsi haqda iddialar geniş şəkildə vüsət alıb. Gəlin məntiqli danışaq. Qərb Azərbaycanda əsl sabitliyin olmasını istəyir. Bu sabitlik nə vaxt olur? Əgər millətin böyük hissəsinin etimad göstərdiyi iqtidar dövləti idarə edirsə, doğrudan da daimi sabitlik yarana bilər. Ancaq xarici dövlətlər kimisə hakimiyyətə gətirirsə və millətin böyük əksəriyyəti bunu qəbul etmirsə, hansı sabitlikdən söhbət gedə bilər? Heç kəs fikirləşməsin ki, ABŞ və





ya Qərb kimisə önə çəkib millətinə sırıyacaq. Bu, qətiyyən olası məsələ deyil".

Hələ 2002-ci ilin sentyabr ayında Lalə Şövkət Hacıyeva bir daha müxalifət partiyasının sədri kimi belə söyləyirdi və akademik Ramiz Mehdiyev bu doğru mülahizəni diqqətdən qaçırmır, təqdir edirdi. Eyni zamanda sabiq AMİP-çi Şadman Hüseynin mövqeyinin L.Ş.Hacıyevanın fikirlərilə üst-üstə düşən məqamlarını obyektiv şəkildə dəyərləndirirdi: "...Şadman Hüseynin də bu məsələyə fərqli münasibəti var. O, açıq qeyd edir ki, bir çox müxalifət partiyaları xarici qurumlardan maliyyə yardımı alır... Bunun müqabilində isə xarici qüvvələrin tapşırıqlarını yerinə yetirməlidirlər".

Akademik Ramiz Mehdiyevin dərin təhlili məqaləsində müxalifət liderlərinin mətbuatda yer alan fikirləri diqqətlə nəzərdən keçirilir, "Yeni Müsavat, "Şərq", "Yeni Azərbaycan", "Zerkalo", "Exo", "Azadlıq", "Xalq cəbhəsi", "Mərkəz", "Olaylar", "Politika", "Cümhuriyyət", "525-ci qəzet", "Palitra", "Millət", "Reytinq", "Hürriyyət", "Ekspress", "Üç nöqtə", "Nezavisimaya qazeta" və s. kimi mətbu orqanlarının 2000-2003-cü illər saylarında dərc olunmuş məqalələr əsasında müxtəlif düşüncəli insanların eyni məsələyə fərqli baxışları müqayisəli şəkildə şərh olunur.

Bu baxımdan fəlsfə elmləri doktoru Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik

inkişaf və müxalifət" adlı irihəcmli əsəri professor Səlahəddin Xəlilovun vurğuladığı kimi, həqiqətən də "cəmiyyətimizdə gedən ictimai proseslərin elmi tədqiqi sahəsində ictimai-siyasi fikrimizdə olan boşluqları doldurmaq və bir sıra önəmli məsələləri elmi tədqiqatın predmetinə çevirmək baxımından böyük dəyərə malikdir".

Fikrimizcə, ən əsas cəhət ondan ibarətdir ki, bu əsərdə 2000-2003-cü illər çərçivəsində Azərbaycanın müxalifət düşərgələrində baş verən fikir ayrıntılarının, münasibət qırıqlıqlarının, bu müstəvidə baş verən aşınmaların nədənliyi bütün qabarıq səciyyəsi ilə göz önünə gətirilir, siyasi baxışlar dövründə zamanın mahiyyətindən çıxış edilərək dəyərləndirilir, radikal müxalifətin yeni dövr siyasi müstəvisinə adaptə oluna bilməməsi konkret misallar əsasında ortaya qoyulur. Müəllif təəssüflə qeyd edir ki, destruktiv müxalifət partiyalarda müasir dünya reallıqlarına və beynəlxalq standartlara uyğun heç bir müsbət dəyişiklik baş vermir: "Onların sədrləri 80-ci illərin sonunda və 90-cı illərin əvvəllərində olduğu kimi, yenə də uğursuz mitinq taktikasına və qarşıdurma ovqatı yaratmağa üstünlük verirlər..."

Müəllifin təəssüfü, eyni zamanda, aşağıda qeyd olunan məqamdan qaynaqlanır ki, "müasir cəmiyyətin əsas siyasi instrukturlarından biri olan müxalifətçiliyin mürəkkəb təzahür formaları, həqiqi kökləri və yaranma





səbəbləri elmi ictimaiyyətin və politoloqların nəzərindən kənarda qalıb".

Professor Səlahəddin Xəlilov doğru olaraq diqqətə çatdırır ki, akademik Ramiz Mehdiyevin milli dövlətçilik və demokratik inkişaf mövzusunda yazdığı bu genişhəcmli məqaləsi nəzəri və konkret praktik problemləri məhz Heydər Əliyev ideyaları işığında əks etdirmək baxımından maraqlıdır.

Eyni zamanda, professor Ramiz Mehdiyev bu əsərində, tanınmış alim Yusif Rüstəmovun da qeyd etdiyi kimi, demokratik cəmiyyət üçün konstruktiv müxalifətin vacibliyini elmi-nəzəri və Azərbaycan gerçəkliyindən gətirdiyi konkret misallar fonunda əsaslndırır.

Bu baxımdan Vəli Həbiboğlunun fikirlərilə tamamilə şərikik ki, "müasir Azərbaycan siyasi fikir tarixində ilk dəfə olaraq fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev müxalifətin fəaliyyətini məhz dövlətçilik mövqeyindən geniş təhlil edir, müxalifətin sosial-siyasi mahiyyətini bugünkü ictimai həyatımızın reallığı baxımından zəngin faktlar və misallar əsasında araşdırır, onun milli dövlətçiliyimizin qarşısında duran başlıca və ümdə mənafelərdən xəbərsiz olduğunu, dağıdıcılıq, cəmiyyətə zidd fəaliyyət mövqeyində dayandığını açıq göstərir".

"Ramiz Mehdiyevin bu əsəri Azərbaycanın ictimai-siyasi gerçəkliyinə, milli dövlətçiliyimizin yaradılması

məsələsinə alim, ziyalı münasibətinin göstəricisidir" (Vüqar Səlimov). "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əsərində dövrümüzün mürəkkəb və şərəfli anları doğru və obyektiv əksini tapmışdır" (Bəxtiyar Sadıqov).



***"Milli dövlətçilik Vahid məqsəd uğrunda – dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir"***

***Akademik RAMİZ MEHDİYEV***

Görkəmli filosofun "Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi" kitabına daxil edilən məqalə və müsahibələrinin, müxtəlif mötəbər məclislərdə etdiyi çıxış və məruzələrinin ana xəttini də dövlətə və dövlətçiliyə, ümummilli lider Heydər Əliyev ideyalarına mənəvi bağlılıq faktoru təşkil edir. Bu yazılanlar 1964-2001-ci illər ərzində ümumittifaq və respublika mətbuatının səhifələrində dərc edilib. Ən əsası odur ki, vaxtın, zamanın müxtəlif dönəmlərində qələmə alınan bu məqalələr, edilən çıxışlar, məruzələr yenə də aktuallığı, dərin fəlsəfi ümumiləşdirməyə malik tutumu ilə diqqəti çəkir, dövrün, ictimai-siyasi olayların obyektiv mənzərəsini əks etdirir. Kitabda verilən "Tarixdə şəxsiyyətin rolu məsələsinə dair" təhlili xarakterli, əhatəli məqləsində R.Mehdiyev bir daha ulu öndər Heydər Əliyevin fenomen şəxsiyyətindən, qüdrətli zəkasından və istedadının böyük miqyasından söz açır. O, öz böyük ustadını tarixi şəxsiyyət olaraq





Azərbaycan dövlət quruculuğunun, müstəqil inkişafın fundamental bazası olan əbədi və əzəli dəyərlərin daşıyıcısı və yaradıcısı kimi dəyərləndirir.

Bu vacib münasibət akademikin "Respublika: Gələcəyə yol" və "Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda" məqalələrində də dərin minnətdarlıq duyğusu ilə önə çıxarılır. Müəllif ulu öndər Heydər Əliyevin tarixi xilaskar rolunu bütün əzəmətilə əks etdirir, müstəqil Azərbaycanımızın qurucusu və memarı olan bu dahi şəxsiyyətin konkret cizgilərinin ən mühüm, əzəmətli məqamlarını göz önünə gətirir. R.Mehdiyev bu əhatəli məqaləsində dövlətin gücünü "milli ideya" konsepsiyası ilə bir arada, paralel araşdırır, birinin digəri üzərindəki tarixi məsuliyyət hissindən yüksək peşəkarlıqla söz açır. Vurğulayır ki, "Milli ideya" xalqı və hakimiyyəti birləşdirən bir zəmindir və müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan öz tarixi ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvü şəkildə əlaqələndirməyi bacarmalıdır".

Akademik Ramiz Mehdiyev diqqət yetirdiyi bütün məsələlərdə "problemin mahiyyətini daha dərindən anlamaq, onun ədalətli və etibarlı həllini tapmaq üçün məsələnin tarixi köklərini, siyasi, dini, etnik səbəblərini bir daha yenidən nəzərdən keçirməyin" vacibliyini önə çıxarır.

O, Ermənistan – Azərbaycan Dağlıq Qarabağ

münaqişəsinin əsl mahiyyətinə də bu kontekstdə münasibət bildirir. Kitaba daxil edilən "hansı daha təhlükəlidir: Xristian – slavyan birliyi, yoxsa İslam həmrəyliyi?", "Azərbaycan müstəqil dövlət quruculuğu təcrübəsi: uğurlar, problemlər və perspektivlər" və s. məqalələri də dərin təhlili xüsusiyyətlərilə seçilir və diqqət çəkir.



***"Əgər xalq istəmirsə, heç bir xarici qüvvə kimisə önə çəkə bilməz və çəksə də onun nəticəsi olmayacaq"***

***Akademik RAMİZ MEHDİYEV***

Yuxarıda üzərində dayandığımız fikirlər Ramiz Mehdiyevin "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" adlı əsərində daha ümumiləşdirilmiş şəkildə ifadə olunur. "Dünyanı düşündürən və qayğılandıran aktual məsələ ilə bağlı yazılmış bu əsərdə indiyədək ölkəmizdə görülən işlərdən, qarşıdakı vəzifələrdən söhbət açılmaqla yanaşı, belə bir məsuliyyətli məqamda və prosesdə inkişaf strategiyamızın necə olması sualına da dəqiq və aydın cavab verilmişdir" (Xalid Niyazov).

Bu əsərin ən böyük gücü onun ifadə etdiyi fikir aydınlığındadı. Müəllif Azərbaycanın dünya qloballaşma proseslərinə qoşulmasının tarixi mərhələ və məqamlarına yaxından bələddi. Şərh edir ki, bu qoşulma prosesinin enerjisini Azərbaycan ilk növbədə öz təbii ehtiyatlarından bəhrələnməkdən və onların





dünya bazarlarına çıxarılması üsullarını müəyyənləşdirməkdən alır. Aydınlıq gətirir ki, eyni zamanda da bu qoşulma prosesində regional mərkəzlər arasında kompleks qarşılıqlı iqtisadi əlaqələrin yaradılması müstəsna rol oynayır: "Bu proseslərdə səriştəlilik dövlətin və cəmiyyətin modernləşdirilməsi səviyyəsini və mümkünlüyünü öncədən müəyyənləşdirir".

Eyni zamnda, görkəmli filosof sözügedən əsərində "bəşəriyyətin vahid siyasi, iqtisadi, mədəni məkanına çevrilməkdə olan planetimizdə balaca nöqtə kimi görünən Azərbaycanın əhəmiyyətindən" (Validə İsmayılova) böyük vətəndaş qüruru ilə söz açır.

İlk fəsildə "dünya tarixindəki ən nəhəng imperiyalar"dan birinin süqutunun səbəbləri və bunun doğurduğu nəticələri R.Mehdiyev özünəməxsus şəkildə araşdırır", Sovet ittifaqının siyasi və mənəvi iflasını başlıca olaraq bolşeviklərin əzəl başdan heç bir mövqe aydınlığının olmaması reallığı ilə əsaslandırır. Təbii ki, quru şüarçılıq, sosializm yarışlarının kağızlar üzərindəki qalibiyyət təntənəsi, şişirdilmiş saxta rəqəmlər silsiləsi çürük kötük üstündə ucaldılan saray effekti doğururdu və real yalanlar səltənəti bircə güclü təkana bənd idi ki, uçub-dağılsın. Milli azadlığın olmaması, milli mənsubiyyətə qarşı yönələn basqıların təsiriylə cəmiyyətin ruhunda bəslənilən gizli düşmənçilik hissi təbii ki, bu quruluşu içindən söküb-dağıdırdı.

Həmin dövrün heç də birmənalı qarşılanmayan yaşam tərzi haqqında düşünəndə sosializm sisteminin reallaşmasından yarım əsr əvvəl yaşamış rus filosofu Pyotr Çaadayevin "Fəlsəfi məktublar"ından oxunanlar göz önünə gəlir. Möhtəşəm aldanışın illüziyalarla dolu yaşantılarının mənzərəsini Çaadayev hələ yarım əsr əvvəl ictimaiyyətə təqdim edərək yazırdı: "Hər xalqın tarixində gur həyəcanlar dövrü olur – ehtiraslı, narahat, düşünülməmiş, məqsədsiz fəaliyyətlər dövrü... Bu cür dövr güclü hissiyyatlar, coşqun ehtiraslar və geniş əməllər dövrüdür. Belə vaxtlarda bütöv xalqlar tamamilə səbəbsiz, amma gələcək nəsillər üçün faydasız olmayan həyəcan içində axın edirlər... Xalqların tarixində ən cazibədar bir fəza olan bu dövr onların gələcəyi, yetkinlik dövrlərinin sevincləri üçün ehtiyat xəzinəsi olan misilsiz xatirələrdir".

R.Mehdiyev "Azərbaycan: Qloballaşma dövrünün tələbləri" monoqrafiyasında artıq xatirələrə çevrilmiş bir imperiyanın xarabalıqları üzərində intişar tapan, dönməz demokratikləşmə yolu tutan, qloballaşan dünyanın yeni reallıqlarına sürətlə inteqrasiya edən müstəqillik dövrümüzün ilk uğurlu qədəmləri fonunda ölkəmizdə gedən sosial-iqtisadi, siyasi islahatların parlaq mənzərəsini göz önünə gətirir. "Çoxşaxəli araşdırmaların nəticəsi olan bu sanballı monoqrafiyada Azərbaycanın müasir sosial-iqtisadi və siyasi inkişafı dərindən təhlil olunur. Bu baxımdan əsəri qlobal





transformasiyalar, yeni dünya nizamının bərqərar olması və XIX əsrin axırları – XX əsrin əvvəllərində gedən siyasi proseslərin tranzitar cəmiyyətə intensiv təsiri dövründə dövlətin və cəmiyyətin mümkün inkişaf yollarını aşkar etməyə yönəldilmiş futuroloji cəhd kimi qiymətləndirmək olar".

Şərq fəlsəfi fikrinin görkəmli nümayəndələrindən biri olan Cəlaləddin Ruminin "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol!" düşüncəsi təkcə ayrı-ayrı fərdlərə, cəmiyyətdə mövqe tutan seçilmiş şəxsiyyətlərə şamil edilmir, eyni dərəcədə də bu fikirdə bütöv cəmiyyətin, ictimai-siyasi quruluşların, böyük dövlətlərin əxlaqi sifətlərinin özünüifadə payı var. Təbii ki, Sovet İttifaqı öz tarixi dövründə nə olduğu kimi görünə, nə də göründüyü kimi ola bildi. Bu sistemin daxili mahiyyətini o dövrün çox təntənəli, tarixi günlərindən birində Qızıl Meydanda keçirilən möhtəşəm qələbəlikdə çəkilmiş bir fotoşəkil daha dolğun şəkildə əks etdirir. Deməli, İ.V.Stalin böyük izdiham qarşısında gülümsər, bəxtiyar bir ədayla kiçikyaşlı xoşbəxt qız uşağını boyu bərabəri qaldırıb. O balaca uşağın təbəssümü Yer üzünü işıqlandırmağa bəs edər. Bəxtiyardı. Kütlə bu xoşbəxt anı alqışlayır. Hər kəs xoşbəxtliyin pik məqamını yaşayır...

İllər sonrası əlahəzrət faktın soyuq, təkzibedilməz dili ilə həmin məlum fotoşəkilə şərh yazılır ki, sən demə rəhbərin – "atamız Stalinin" əlləri üzə-

rində göyə qaldırılan, o yüksəklikdən kütləyə xoşbəxtcəsinə əl edən qızcığazın doğma atası məhz elə o dəqiqələrdə xüsusi idarənin dəmir barmaqlıqları arasında NKVD cəlladları tərəfindən xüsusi amansızlıqla "dindirilir", qanına qəltan edilə-edilə öz əleyhinə ondan ifadə alınır, sonra da ölüm hökmünə məhkum edilirmiş.

Əl boyda bir şəkil əslində dünyaya ağalıq edən bir imperiyanın olduğu kimi görünən modeli olaraq tarixdə qalıb. Zamanın, dövrün paradoksal, xarakterini, şeytani xislətini bütün dolğunluğu ilə əks etdirir.

Akademik Ramiz Mehdiyevin monoqrafiyasında da bu ikili yaşam tərzini, idarəetmə sisteminin iblisanə mahiyyəti inandırıcı, təkzibolunmaz məntiqlə araşdırılıb. Elmi şəkildə diqqətə çatdırılıb ki, Sovetlər dönəmində "hər şey insan üçündür" şüarının pərdəsi altında əslində insan amili hər şey sayıla biləcək nəsnələrin güdazına verilib, "əhalinin həyat şəraitinin keyfiyyətcə yeni səviyyəsinə nail olmağa dünya iqtisadiyyatında üstünlük təşkil edən proseslərə məhəl qoyulmayıb".





* * *

Planetar qloballaşma ilə milli modernləşmənin kəsişmə məqamında ictimai və humanitar elmlərin problemlərinin elmi müzakirələrin mərkəzində dayanması fikri əslində çağdaş dövrün öz mahiyyətindən irəli gəlir. Həmin sahədəki problemlərə dünyanın humanitar fikrindəki elmi-nəzəri məktəblər, konsepsiyalar müstəvisində nəzər salmaq üçün ilk növbədə baş verənlərə obyektiv milli-bəşəri fikir ucalığından münasibət sərgiləmək olduqca vacibdir. Bu baxımdan akademik Ramiz Mehdiyevin təkcə elmi-mədəni sferada deyil, bütövlükdə ölkənin ictimai həyatında geniş rezonans doğurmuş, bu istiqamətdə geniş müzakirələrə rəvac vermiş "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı kitabı öz aktuallığı ilə xüsusi əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, dərin müşahidə və elmi-

nəzəri ümumiləşdirmələri ilə diqqət çəkən, proqram xarakterli bu kitab ictimaiyyətə təqdim edilən ilk andan böyük rezonans doğurdu, Bakıda "Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri metoqrafik məsələləri" mövzusunda Beynəlxalq elmi konfransın keçirilməsinə rəvac verdi, ölkəmizin bir çox nüfuzlu akademiya və universitetlərində geniş təqdimatı oldu, "dəyirmi masa"lar keçirildi. Keçirilən tədbirlərdə görkəmli elm və ədəbiyyat xadimlərinin xüsusi olaraq nəzərə çatdırdıqları, kütləvi informasiya vasitələrinin ictimaiyyətə təqdim etdiyi kimi, elmin inkişaf təmayüllərinin respublikamızın müasir reallıqlarına nəzərən müəyyənləşdirilməsi, bu sahədə mövcud problemlərin həlli, elmi idarəçiliyin səmərəli vəhdətinin təmini, bu sahəyə yönəldilən vəsaitlərin rentabelliyinə nail olunması yeni mərhələdə alimlərin qarşısında ciddi bir vəzifə kimi dayandığı bir məqamda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" kitabı konseptual elmi araşdırmaların, dərin müşahidələrin nəticəsi kimi ərsəyə gəlib.

"Tarix elmləri doktoru, professor Əli Həsənovun redaktorluğu, millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun buraxılışa məsulluğu ilə işıq üzü görən kitabda "humanitariyanın





ideya əsasları, ixtimai şüura təsir edən effektiv humanitar texnologiyalar, milli mədəni-mənəvi oriyentasiya məsələləri, əski ideologiya və milli məfkurə kimi ciddi problemlər qaldırılmış, ilk növbədə, humanitar və ictimai elmlərin qarşısında duran prioritet vəzifələr müəyyənləşdirilmişdir. Eyni zamanda, bu sahədə müşahidə olunan əsas nöqsanlar göstrəilmiş, müvafiq elmi-tədqiqat institutlarının yeni dövr üçün vəzifələri diqqətə çəkilmiş, bununla da ölkənin intellektual elitası açıq fikir mübadiləsinə, müzakirələrə dəvət edilmişdir".

Ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf olunan kitabın ən başlıca məziyəiti ondan ibarətdir ki, burada çoxlarının bildiyi, ancaq laqeydlik və biganəlik ucbatından diqqətə çatdırmağa ehtiyac görmədikləri, əslində ictimaiyyətə açıqlanması mütləq vacib olan həqiqətlər, gerçəkliklər bütün çılpaqlığı ilə ortaya qoyulub. Deyək ki, pərdənin arxasında nə baş verdiyi heç də sirr deyildi. Hörmətli akademik öz əsərilə bu pərdəni qaldırdı, reallığı ictimaiyyətə təqdim etdi, münasibət bildirməyə meydan açdı. Ən maraqlısı o oldu ki, bu əsərlə tanış olan hər bir oxucu onu müstəqilliyin ilk mərhələsində hadisələrin təhlükəli istiqamətdə cərəyan etdiyi məqamlarda cəmiyyətə təqdim edilən bütlərin, uzun illər Sovet İKP tarixi ilə məşğul olmuş, ancaq tarixin dəyişən siması

fonunda birdən-birə dönüb Vətən tarixi üzrə mütəxəssis olanların tanış simalarını göz önünə gətirə-gətirə oxudular.

Bu əsər xalq yazıçısı Anarın ssenarisi əsasında ekranlaşdırılan "Otel otağı" filmindən tanış olan, vicdanlı, milli alimləri türk casusu, ideoloqu kimi damğalayan kommunist professorun prototiplərini adbaad yada sala-sala oxundu. Oxuna-oxuna sanki, ustad el aşığı Hüseyn Saraclının bir toy mağarının aşağı başından yuxarı başına necə getməyini təsvir edən cızmaqarası, nağılı ilə sənətşünaslıq üzrə fəlsəfə doktoru olan aşığın, "Filan xalq aşığı filan şerində belə yazıb, filan şerindəki bu bəndə nəzər salaq, filan şerini nümunə gətirək" sicilləməsi ilə elmi iş müdafiə edən şairin, ömründə bircə dəfə də olsun adına xarici pasport açılmayan, Biləcəridən o üzü tanımayan, ancaq Ukraynadan, digər MDB ölkələrindən elmlər doktoru kimi "geri qayıdan" kəslərin iddialı, təşəxxüslü, ədalı yerişləri-duruşları göz önünə gəlir. Bu gün Azərbaycanın təhsil ocaqlarında yüzlərlə "müəllim" çalışmaqdadır ki, onların heç biri öz sənədlərini ali və orta ixtisas məktəblərinə qəbul vaxtı sadəcə olaraq Dövlət Tələbə Komissiyasına təqdim etməyiblər. Onların heç biri ölkə daxilindən çıxmaq üçün xarici pasport belə almayıblar. Ancaq, iş elə qurulub ki, guya bu kəslər Dağıstanda, Ukraynada, MDB məkanına daxil olan





hər hansı digər ölkədə bir neçə il təhsil alıb, sonra Azərbaycanda fəaliyyət göstərən özəl təhsil ocağına köçürülüblər. Bu "müəllim"lərin heç biri vətəndən kənarda "dərs aldığı" təhsil ocağının hansı küçədə yerləşdiyini, o təhsil ocağının neçə mərtəbəli olduğunu, ona dərs deyən müəllimin, parta yoldaşının adını belə bilmir, xəritədə olmuş olsa da belə o ölkənin yerini göstərməyə qadir deyil, ancaq fidan balalarımıza Ana dilini, tarixi, hüquq elmini, məntiqi və s. "öyrədir", "dərs keçir"...

Akademik Ramiz Mehdiyevin kitabını oxuduqca bu məqamlar onun dərin ümumiləşdirilmələrə söykənən elmi-nəzəri düşüncələri ilə baş-başa göz önünə gəlir. Dövlətin yaxından qayğı və himayəsi ilə fəaliyyət göstərən, milli-mənəvi varlığımızın, elmimizin, mədəniyyətimizin inkişafına xidmət göstərməli olan elm ocaqlarımızda baş verənlər bu əsəri oxuduqca fikrindən acı reallığı ilə keçir. Əslində bu əsər hər bir müəssisə, təşkilat rəhbəri üçün bacarmadığı işdən gedə bilmək mədəniyyətinin qapısını açır.

Yunan filosofu Plotin (204-269) yazırdı ki, geometr seyr etməklə cizgilər cızdığı kimi, mənim müşahidə etmə aktım müşahidə edilən predmeti yaradır. Əgər müşahidə, seyretmə zəifsə, yaradılan predmet də zəif olur. Mübaliğəsiz demək olar ki, akademik R.Mehdiyevin çağdaş humanitar sahələrdə baş verən-

ləri müşahidə edə bilmək imkanı son dərəcə əhatəli və obyektivdi. Alimin bu əsərinin uğurunu ilk növbədə onun sözügedən sahələrə dərindən bələdçiliyi, məlumatlı olması təmin edir. Ramiz müəllim ilk növbədə hazırkı şəraitdə cəmiyyət qarşısında, eləcə də, ilk növbədə elmi elita qarşısında dayanan mühüm vəzifələrin mahiyyətini, bu mahiyyətin, vəzifənin dəqiq adını, dəqiq, birmənalı vəzifəsini bilir. Birmənalı şəkildə vurğulayır ki, əsas məqsəd olaraq "yaxın illərdə təhsildə, elmdə, ümumən intellektual sahələrdə ciddi dönüş yaradılmalı və biliklərə əsaslanan iqtisadiyyatın qurulması prosesi intensivləşməlidir".

Təsadüfi deyil ki, görkəmli alim Bəkir Nəbiyevin anadan olmasının 80 illiyi münasibətilə AMEA-nın Rəyasət Heyətinin binasında "Humanitar elmlərin müasir durumu və ədəbiyyatşünaslığın nəzəri-metodoloji məsələləri" mövzusunda keçirilən Beynəlxalq konfransda etdiyi çıxışda AMEA-nın prezidenti, akademik Mahmud Kərimov da bu əsərin böyük elmi-mənəvi əhəmiyyətindən xüsusilə söz açaraq demişdir: "Müasir dünyanın aparıcı dövlətlərinin keçdiyi təkamül yolu, onların təcrübəsi, həmçinin, dünyanın içində olduğu qlobal problemlərin mahiyyəti təsdiq edir ki, sosial proseslərdə intellektual potensialın yaxından iştirakı, elmi qurumların yeri və rolu prinsipal məsələdir.





Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yalnız elmi-mədəni sferada deyil, bütövlükdə ölkənin ictimai həyatında geniş rezonans doğurmuş, bu istiqamətdə geniş müzakirələrə rəvac vermiş "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı məqləsində irəli sürülən ideyalara bu müstəvidən nəzər saldıqda elmi fəaliyyət sahəsində, xüsusən ictimai-humanitar elm sahələrində mövcud çatışmamazlıqlar, qüsurlar fonunda Azərbaycan elmi mühitinin qarşısında duran vəzifələrin konturları daha aydın görünür.

Bu gün humanitar elmlərin problemləri dünyanın elmi-ictimai və ədəbi mühitində geniş müzakirə olunur, ayrı-ayrı ictimai-humanitar elm sahələrinin inkişafına məsul olan şəxslərdən tutmuş, alimlərə, şairlərə, yazıçılara, müstəqil jurnalistlərə, müəllimlərə, tələbələrə qədər hər kəs problemlərlə bağlı öz baxış və mülahizələrini ortaya qoyur. Cəsarətlə demək olar ki, bu elm sahələrinin problemləri bu miqyasda, bu qədər baxış və dünyagörüş rakurslarından kompleks şəkildə heç vaxt müzakirə olunmamışdır".

Respublikamızda humanitar elmlərin vəziyyətinə, onun tarixi nailiyyətlərinə, müsir dünya elmi ilə inteqrasiya məsələlərinə, nəzəri-metodoloji problemlərinə çağdaş Azərbaycanın ictimai-siyasi reallıqları müstəvisində nəzər yetirən görkəmli filosof Ramiz

Mehdiyevin "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" məqaləsində qaldırılan problemlərin aktuallığına diqqət yönəldən akademik B.Nəbiyev yuxarıda sözü gedən mərasimdə çıxış edərək keçirilən konfransın əsas məqsədinin ədəbiyyatşünaslıq elmimizin problemlərinə dünyanın humanitar fikrindəki elmi-nəzəri məktəblər, konsepsiyalar müstəvisində nəzər salmaq olduğunu önə çəkmişdir.

Filologiya elmləri doktoru Şirindil Alışanlı isə öz çıxışında Ramiz Mehdiyevin sözügedən əsərinin humanitar sahədə arzulananların gerçəkləşməsinə qapı açan bir əsər olduğunu qeyd etmişdir: "Bu maraqlı əsərin qaldırdığı məsələlər ətrafında deyilənlər də bir daha sübut edir ki, humanitar elmlərin müasir durumda üzləşdiyi problemləri fərdi şəkildə həll etmək mühüm deyildir. Bu sahə həm Avropa, həm də Şərq düşüncəsi kontekstində öyrənilməlidir" ("Ədəbiyyat qəzeti", 3 dekabr, 2010, № 47, səh.3.).

Təbii ki, Ramiz Mehdiyevin "müstəqil konseptual elmi araşdırmaların, dərin müşahidələrin nəticəsi kimi ərsəyə gələn bu maraqlı əsərində ictimai şüura təsir göstərən səmərəli humanitar texnologiyalar, milli mədəni-mənəvi oriyentasiya məsələləri, ədəbi ideologiya və milli məfkurə kimi ciddi problemlərin qaldırılması" ilk növbədə cəmiyyət üçün yolu gözlənilən, arzulanan bir mövqe hadisəsidi. Özü də bu





mövqenin, belə deyək ki, aşağıdan, bir qədər də konkretləşdirsək, müxalif düşərgələr müstəvisindən yox, məhz Prezident Administrasiyasına rəhbərlik edən bir şəxs tərəfindən sərgilənməsi xüsusi maraq və hörmət hissi doğurur. O mənada ki, bu mövqedə heç bir qərəzdən söhbət gedə bilməz. Bu, dövlətin idarə edilməsində xüsusi yeri olan namuslu bir vəzifə sahibinin öz ölkəsinin elminə, əxlaqi-mənəvi dəyərlərinin yaşadılmasına nə dərəcədə xidmət göstərilməsi baxımından keçirdiyi narahatlıq hissindən qaynaqlanan fədakarlıq, vətəndaşlıq faktıdır, mövqeyidir. Müəllif Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondunun əsas məqsədinin elmin müxtəlif sahələrində aparılan araşdırmaların səmərəliliyinin artırılması və dünya elmi məkanında Azərbaycan elminin layiqincə təmsil olunması təmin etmək olduğunu diqqətə çatdırmaqla yanaşı onu da xüsusi olaraq nəzərə çatdırır ki, cənab İlham Əliyevin YUNESKO-nun baş direktoru ilə əldə etdiyi razılıq hökmən ölkəmizdə elmlə bağlı bir çox problemlərin həllinə öz töhfəsini verəcəkdir.

Akademik Ramiz Mehdiyev bu mühüm mərhələdə sözügedən sahədə aktual olan bir neçə məsələlər üzərində dayanmağı ona görə lazım bilir ki, müşahidə olunan problem və çatışmazlıqları aradan qaldırmadan heç bir uğurdan söhbət gedə bilməz.

Sözügedən sahələr üzrə qəbul edilən mühüm qərarların istər-istəməz doğurduğu "bəs bizim elmi elita ilə birlikdə həyata keçirmək istədiyimiz strateji planlarımızın mahiyyəti nədən ibarətdir?" sualı doğurur.

Akademikin fikrincə, onlardan birincisi idarəedicilik sistemində qəbul olunan siyasi qərarların elmi bazasıdır. Müəllif bütün ciddiyyətilə bir danılmaz həqiqəti önə çıxarır ki, cəmiyyətimizin uğurlu inkişafı naminə qəbul olunan siyasi qərarların dürüstlüyünü təmin edərkən biz, əsasən, üç istiqamət üzrə elmi tədqiqatların nəticələrinə arxalanmalıyıq:

- Sosial – siyasi elmlər sahəsində, o cümlədən, politologiya, sosiologiya və iqtisadi elmlər;
- fəlsəfə, psixologiya və informasiya – kommunikasiya istiqamətləri;
- dövlət idarəçiliyi nəzəriyyəsi, menecment və digər sahələr.

Müəllif kadr qıtlığı və müvafiq mexanizmlərin işlənilməməsi səbəbindən siyasi qərarların qəbul edilməsi mərhələsinə qədər zəruri olan elmi araşdırmaların aparıla bilməməsindən yaranan narahatlığını bildirir və eyni narahatlıqla nəzərə çatdırır ki, bizdə siyasi anlayışlardan və politologiyanın müasir problemlərindən heç olmasa, baş çıxara bilən mütəxəssislər yoxdur, yalnız bir-iki həqiqi politoloqumuz ola,





ya olmaya: "Onların məqalələrində dünyanın aparıcı informasiya agentliklərinin, Rusiyanın, Türkiyənin, Avropanın analitik mərkəzlərinin mövqeləri səslənir. Deməli, hər şey var, yalnız müstəqil Azərbaycanın real siyasi mövqeyinin elmi əsaslarla təhlilindən başqa".

Görkəmli alim ölkəmizdə hələ də inkişafın Azərbaycan modeli ilə bağlı fundomental təhlillərin aparılmamasından təəssüf hissi keçirir və bu modelin uğurlarını dəstəkləyən və onun əsas meyllərini üzə çıxaran əsərlərin yazılmamasından narahatçılığını ifadə edir. Fərqindədir ki, "nəşr edilən və problemlə az-çox əlaqəsi olan cild-cild, qalın-qalın kitabların elmi səviyyəsi son dərəcə aşağıdır".

Fikrimizcə müşahidə edilən çatışmazlıqların başlıca səbəbi sözügedən sahələrdə qeyri-peşəkarların fiziki çəkisinin artmasından gəlir. Çağdaş həyatımızda iqtisadi dəyərlərin mənəvi dəyərləri hər addımbaşında üstələməyə başladığı bir mərhələ yaşanır. Bu mərhələdə daha çox iqtisadi imkanlara, maliyyə, nüfuz çevrəsinə malik olan şəxslər önə çıxır, səlahiyyət sahibləri xüsusi imtiyaz qazanırlar. Abırlı, vicdanlı insanların sahib olduqları yüksək peşəkarlıq imkanlarını isə, belə deyək ki, zərrəbinlə arayıb dəyərləndirmək qayğısı arxa plana keçir. Belə insanlar iqtisadi ehtiyac məngənəsinə yem olduqca istər-istəməz bir para işbazın əlaltısına dönmək zorunda qalır. Həyati əhəmiy-

yətli bir çox məsələlərin daha parlaq şəkildə yoluna qoyulmasında əngələ çevrilən biganəlik, süstlük mərəzi bu yerdən cəmiyyətə ayaq açır, ümidsizlik kabusuna çevrilir. Bəzən adama elə gəlir ki, bu yaşam dövlətin müəyyən icra strukturları tərəfindən yetərincə təhlil olunmur, xalqın, dövlətin taleyinə məsul olan şəxslər cəmiyyətdə baş verənlərdən xəbərsiz-dirlər.

Ancaq akademik Ramiz Mehdiyevin "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" kitabını oxuduqca aydın görünür ki, bu, heç də belə deyil. Bu problemlər daha böyük anlamda, daha aydın mövqe ucalığından araşdırılır, bu məsələlərin həlli yolları dövlətin ən məsul vəzifə sahibləri tərəfindən müzakirə edilir. Sadə vətəndaşlar üçün bu münasibəti bilmək, hiss etmək son dərəcə vacib, stimulverici məsələdir. Belə hallarda sadə insanlar özlərini arxalı, inamlı hiss edirlər. İnanırlar ki, onları düşündürən məsələlər heç də taleyin ümidinə, başlı-başına buraxılmayıb. Dövlətin taleyinə məsul olan şəxslərin özləri də bu məsələlərdə onlarla bir yerdədirlər, bu problemlərin aradan qaldırılması yolunda əsl vətəndaş çabası sərgiləyirlər. Cəmiyyəti düşündürən problemlərin həlli yollarının aranmasını öz gündəlik fəaliyyətlərinin bir hissəsi olaraq qəbul edən, bu yöndə çaba göstərən hər bir yüksək çinli dövlət məmuruna münasibət bütün dövrlərdə birmənalı şəkildə sadə insanların qarşılıqlı





hörmət hissilə izlənib.

Akademik Ramiz Mehdiyevin sözügedən kitabı ilə tanışlıq hər bir Azərbaycan vətəndaşında böyük əminlik hissi yaradır ki, cəmiyyətimizin, eləcə də ictimai və humanitar elmlər düşərgəmizin bütün sahələrində problemli şəkildə özünü büruzə verən məsələlər heç də dövlətin, bu sahələrə rəhbərlik edən ayrı-ayrı vəzifəli şəxslərin nəzarətindən kənarda deyil. Bu problemlər ən yüksək səviyyədə öyrənilir, müzakirə edilir, nöqsan və problemlərin həlli yolları araşdırılır.

Böyük Şərq filosofu Xacə Nəsirəddin Tusi "Əxlaqi – Nasiri" kitabını Əflatunun vəsiyyətlərilə tamamlayarkən qabarıq şəkildə nəzərə çatdırır ki, bu dünyanın böyük işlərinin heç birində səhlənkarlıq və laqeydlik eləmə, süstlük və iradəsizlik göstərmə, xeyirxahlıqda israfçılığa yol vermə...

Bütövlükdə, "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" kitabıyla tanışlıq şəhadət verir ki, bu dəyərli əsərin araya-ərsəyə gəlməsi "bu dünyanın böyük işlərinin heç birinə" biganəlik göstərə bilməmək zərurətindən qaynaqlanıb. İlk növbədə ölkəsinin inkişafını, xalqının xoşbəxtyliyini görmək istəyən, müstəqil, azad Azərbaycanımızın çiçəklənməsindən rahatlıq tapan hər bir azərbaycanlının qəlbinin səsi kimi yazılıb. Bu maraqlı kitab başdan-

başa, fransız yazıçısı Laroş Fukonun təbirincə desək, "Fəlsəfə keçmiş və gələcəyin dərdinə qalib gəlir..." məntiqi ilə qələmə alınıb, düz hədəfi vura bilmək məramından var olub.

Rəvayətə görə Makedoniyalı İsgəndər yunan müdriki Diogenin şöhrətini eşidib onun görüşünə gəlir. Bir qədər tamaşa etdikdən sonra böyük sərkərdə ona deyir:

- Filosof, nə arzun var, de, yerinə yetirim.

Böyük filosof cavabında:

- Arzum odur ki, günün qabağından çəkiləsən, bir az qızınım, - deyir.

Fikrimizcə akademik Ramiz Mehdiyev sözügedən əsərində ictimai və humanitar elmlər sahəsindəki bir çox məqamlar önündən məhz qaranlıq pərdəsini götürür, o, təkcə öz dərin məzmunlu, sanballı elmi təbiiliklərlə zəngin müşahidələrini ortaya qoymur, həm də bu məsələlərdə Azərbaycan dövlətinin, ölkə rəhbərliyinin xalqla həmrəyliyini ifadə edir, bir daha aydın şəkildə nəzərə çatdırır ki, elmlə məşğul olan hər bir qurum qarşısında məsuliyyətli vəzifələrin qoyulması, onlardan müasir şəraitdə konkret fəaliyyət proqramının tərtib edilməsi və genişləndirilməsinin tələb edilməsi əslində dövlətin mövqeyidir. Müəllif yazır: "İctimai elmlər sosial sifarişə çevik reaksiya verməlidir. Ancaq o, hələ də ətalət, gözləmə və passiv





seyrçi mövqeyindədir. Bunun müxtəlif səbəbləri vardır. İnformasiya cəmiyyətinə inteqrasiya prosesində isə vaxt itkisini, "gecikmə effekti"ni heç nə ilə kompensasiya etmək mümkün deyildir.

İndi birbaşa ictimai şüura ünvanlanmış humanitar texnologiyalar ən önəmli amilə çevrilmişdir. İnkişafın belə bir zamanında önləyici proqnozlar sistemini müəyyənləşdirmək üçün işlər görülməlidir. Milli elm infrastrukturunun formalaşması üçün dövlətə konkret konsepsiya təqdim edilməlidir. Bu, dünya elminin insanlara, elmə və təhsilə münasibətdə irəli sürdüyü standartlara cavab verən bir konsepsiya olmalıdır.

İctimai elmlər cəmiyyətdə baş verən proseslərin və dövlət – vətəndaş münasibətlərinin əlaqələndirilməsini təmin etməlidir. O, elmimizi obyektiv istiqamətlərə yönəltməklə millətin düşünən beyninə, insanlarımızın ictimai əxlaqının yüksəldilməsinə, bütünlükdə, inkişafın aparıcı amilinə çevrilməlidir. Bu vəzifələrin öhdəsindən gəlmək üçün ictimai elmlər sahəsində yeni ideyalar irəli sürməyə qadir şəxslərə, kreativ düşüncəli insanlara ehtiyac vardır.

Qlobal elm məkanına uğurlu inteqrasiya üçün alimlərimiz ölkədə elmin nüfuzunu və əhəmiyyətini yüksəldə bilərlər. Odur ki, tədqiqatlar yalnız şəxsi karyera üçün aparılmamalı, dövlətin, cəmiyyətin maraq və ehtiyaclarına xidmət etməlidir.

Elmin hər bir nümayəndəsi öz fəaliyyətini iki mövqedən qiymətləndirməlidir: əvvəlcə vətəndaş, sonra alim kimi..."

Görkəmli alim haqlı olaraq nəzərə çatdırır ki, ictimai elmlər sahəsində böhran yaradan əsas problemlərdən biri bütövlükdə XX əsrdə bizim dünya fəlsəfəsindən bixəbər olaraq inkişaf etməyimiz olub: "Qərbdə meydana çıxan yeni nəzəriyyələrin və ictimai-siyasi fikirdə yaranan ideyaların mövcudluğundan biz yalnız onları tənqid edən sovet ideoloqlarının məqalələri vasitəsilə tanış olurduq".

Təbii ki, yeni əsr, eyni zamanda da yeni tipli ictimai-siyasi ab-hava Azərbaycan elmi qarşısında da geniş miqyası ilə müşahidə edilən inteqrasiya qapısı açdı. Təəssüf ki, bu vacib məqamda, kitabda xüsusi olaraq qeyd edildiyi kimi, elmi bir biznesə çevirənlər də oldu, istənilən şəxs – dövlət məmuru, yaxud iş adamı müxtəlif yollarla elmi ad almağa nail oldular.

Ramiz Mehdiyevin bu sahədəki dəqiq müşahidələrinin aktuallığını nəzərə alaraq kitabdan gətirəcəyimiz aşağıdakı sitatın tamlığına və əhatəliliyinə toxunmuruq.

"Təəssüf ki, bütün bu proseslərdə elm və təhsil müəssisələrinin bir sıra əməkdaşları hazır dissertasiyaları iddiaçılara təklif edirlər. Paradoksal haldır ki, elmin paklığını qorumaq əvəzinə elm xadimlərinin





özləri təsadüfi adamların elmi adlar almasına rəvac verir, belə işləri elmi şuralarda yekdilliklə dəstəkləyirlər. Söz yox ki, bu cızmaqaralar Azərbaycanın elmi potensialının artırılmasına heç bir xidmət göstərə bilməz.

Son beş ildə Azərbaycanda müdafiə edilmiş dissertasiyalar arasında elələri vardır ki, tragikomik təsir bağışlayır. Xüsusilə filologiya sahəsində hansısa yazıçının " yaradıcılıq yolu"na həsr olunmuş dissertasiyaları qeyd etmək istərdim. Adları qədər özləri də bəsit olan həmin dissertasiyalar elmi tədqiqatdan daha çox, son dərəcə zəif yazılmış publisistik yazıları xatırladır. Eyni mənzərə ictimai və humanitar elmlərin digər sahələrində də müşahidə olunur. Yüzlərlə dissertasiya müdafiə edildiyi halda, dünyanın nüfuzlu elmi jurnallarında Azərbaycan alimlərinin məqaləsinə təkdənbir rast gəlmək mümkündür...

... Bəzi elmi işçilər çox uğursuz bir yol tutaraq xaricdən verilən qrantlar hesabına yazdıqları müxtəlif məqalələrdə elmdən uzaq və olduqca subyektiv mülahizələr ortaya atmaqla, qrant verən qurumların niyyət və məqsədlərinə xidmət göstərirlər. İş o yerə çatıbdır ki, bəziləri Azərbaycan xalqının guya heç nəyə qadir olmadığını təsdiqləmək həvəsinə düşüblər. Onlar guya vahid millət kimi formalaşmadığımızı və zamanın tələblərinə adekvat cavab vermək iqtidarında olmadı-

ğımızı sübuta yetirməyə çalışırlar. Digərləri isə açıq-aydın yazırlar ki, bizim bütün problemlərimiz adımızın "azərbaycanlı" olmağından və ya bizə kiminsə "azərbaycanlı" adını verməyindən irəli gəlir. Onların fikrincə, bəlkə millətimizin adı başqa olsaydı, problemlərimiz də olmazdı. Bu, çox təhlükəli mövqedir. Faktlar göstərir ki, bir sıra alimlər elmdən uzaqlaşaraq və siyasi oyunların qurbanlarına çevrilərək, hətta danılmaz həqiqətləri belə öz siyasi maraqlarına qurban verməyə hazırdırlar..."

Bu yazılanların qarşılığında keçid dövrünün ilk günlərindən başlayaraq inkarçı mövqedə dayanan, daha çox komsomol, bolşevik xislətindən doğan bir ədayla milli kimliyimizin formalaşmasında müstəsna xidmətləri olan görkəmli sənətkarlarımızı, böyük xalq qəhrəmanlarımızı aşağılayan bir para qələm adamlarının mətbuata çıxardıqları, teleekrandan yayımladıqları şou xarakterli fikirlər göz önünə gəlir. Belə inkarçı münasibət çərçivəsində, xalq yazıçısı Əkrəm Əylislinin təbirincə desək, əsrin sonu əvvəlinə bənzəyirdi. Yenə də Nizamini, Füzulini, Vaqifi, Cəlil Məmmədquluzadəni, S.Vurğunu, R.Rzanı, S.Rüstəmi aşağılamaq, Anarı, Elçini, Ə.Əylislini danmaq cəhdləri gündəlik mövzuya çevrildi. Bu məqamda belə yanlış münasibətə özünəməxsus təmkinlə cavab verən xalq yazıçısı Anarın fikri diqqəti çəkir: "Bu cür cəfəngiyatlara cavab verməyi ona görə lazım bilirəm ki, belələrinə fikir vermədikcə elə bir rəy yaranar ki, guya həqiqətən də hər şey onların söylədikləri kimi olub..."





Faktlara nəzər salaq; Dövlət səviyyəsində dahi Azərbaycan şairləri Məhəmməd Füzulinin, xalq şairləri Səməd Vurğunun, Rəsul Rzanın, Süleyman Rüstəmin, və b. yubileylərinin keçirilməsi haqqında ölkə başçısı sərəncam imzalayır, bu münasibətlə geniş tədbirlər planı həyata keçirilir, eyni zamanda bəzi telekanallarda, müxtəlif mətbuat səhifələrində elə həmin sənətkarların ədəbi haqqlarını danan, onları aşağılayan söhbətlər meydana çıxır, bir para cızmaqaraçılar ağına-bozuna baxmadan bu görkəmli sənətkarları sovet ideologiyasına xidmət edən, sifarişlə yazıb-yaradan qələm adamları kimi səciyyələndirirlər. Halbuki ulu öndər Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunması, ana dilimizin inkişaf etdirilməsi, Cənub mövzusunu sistemli şəkildə qabartmaqla Bütöv Azərbaycan savaşı aparılması istiqamətində göstərdikləri əvəzsiz xidmətləri öz çıxışlarında, imzaladığı sərəncamlarda dönə-dönə xatırlatmış, onların ədəbi irsinin parlaq yerini dəqiq müəyyənləşdirmişdir.

Xatırlamaq çox ağırdır ki, türk dünyasının milli-mənəvi dəyərlərinə yabançı olan bir Fransız səyyahı və yazıçısının Azərbaycanın xalq qəhrəmanı Koroğlu haqqında ola bilsin ki, hansısa erməni saqqallısının

dilindən eşidib yazdığı iftira, böhtan xarakterli hekayətləri bir Azərbaycan ziyalısı dilimizə çevirərək Azərbaycan Milli Elmlər Akademiyasının əlaqədar institutlarından birinin elmi şurasının qərarı ilə nəşr etdirir, bu "əsərin" tarixi əhəmiyyətindən elə həmin institutda çalışan tanınmış alimlər bəhsə giribmiş kimi təqdir dolu resenziyalar, rəylər yazıb çap etdirirlər, bu biri tərəfdənsə bütün türk dünyası Koroğludan qəhrəmanlıq tariximizin parlaq simalarından biri kimi bəhs edir, Azərbaycan Prezidentinin sərəncamı ilə ölkəmizin baş şəhərinin mərkəzində Koroğlunun əzəmətli abidəsi ucaldılır. Bu cür insanların milli təəssübkeşlikdən uzaq əməlləri milli qürur hissimizə utanc gətirən faktlar kimi yadda qalır.

Razılıq doğuran cəhət odur ki, ən yüksək səviyyədə akademik Ramiz Mehdiyevin humanitar elmlər, eləcə də, ədəbiyyat sahəsində problemlərin çözülməsinə yönəli elmi-nəzəri mülahizələri proqram xarakterli münasibəti özündə tam dolğunluğu ilə əks etdirir, bu sahədə gələcəkdə görüləcək işlərə aparıcı stimul verir.

Görkəmli rus yazıçısı, şair və filosofu Dmitri Merejnikovski Avropanın radikal ruhlu filosoflarına müraciətlərində deyirdi: "Bizim çevrilişimizin zahiri hadisələri ən kiçik təfərrüatlarına qədər Avropaya məlumdur. Lakin onun daxili məzmunundan qətiyyən xəbərdar deyillər. Onlar rus inqilabının döyünən ürəyini deyil, tərpənən bədənini görürlər..."





Bu münasibət eynilə nəzəri təhlillərdən daha çox quru təsvir və sözçülüklə özünü elm sahəsinə sırımaq istəyən, əksər hallarda buna müvəffəq olan dırnaqarası alimlərimizin fəaliyyətinə şamil edilə bilər. Elmi rütbə uğrunda mübarizə artıq bir dəb halı alıb. Sovetlərin Oktyabr inqilabı ərəfəsində göy rəngli mundirdən bəhs edən bir sosioloq yazırdı ki, indi hər kəsin geyimində az qala bu rəngdə bir yamaq var. Eyni dərəcədə də bizdə humanitar sahədə çalışan, əlində hər hansı ali məktəbi bitirmək haqqında diplomu olan şəxsin imzasının altında filologiya və yaxud tarix, sənətşünaslıq üzrə elmlər doktoru adının yer alması adi hal alıb. Belə insanlar müstəqillik dövrü elmimizin döyünən ürəyinin tələblərini şübhəsiz ki, duyub dərk edə bilmirlər, onlar üçün elm sahəsi şan-şöhrət, müəyyən imtiyazlar mənbəyidir.

Akademik Ramiz Mehdiyev humanitar sahədə baş alıb gedən bu görünməmiş prinsipsizliyə qarşı vaxtında həyəcan təbili çalır, konkret faktlarla bu vacib sahədə baş verənlərə münasibətini ortaya qoyur: "Etiraf etmək lazımdır ki, ictimai elmlərin cəmiyyətimizdəki mövqeyini, bütövlükdə bu elmlərin mövcud vəziyyətini ölkəmizin indiki inkişaf mərhələsinin irəli sürdüyü tələblər baxımından qənaətbəxş hesab etmək olmaz. Onun nüfuzunun yüksək olmamasının səbəbləri nədir?

Bizim fikrimizcə, başlıca səbəb ictimai biliklərin insanların artan tələbatından, həmçinin cəmiyyətin həyatında baş verən hadisələrin analitik təhlilindən geri qalmasıdır. Ölkədə cərəyan edən proseslərlə müqayisədə ictimai elmlərin geri qalması bizim üçün heç də yeni hal deyil. Bu, demək olar ki, onillər boyu xroniki şəkil almışdır...

İctimai elmlər sahəsində geriliyi, müəyyən mənada spesifik sosial şəraitlə də əlaqələndirmək mümkündür. Belə ki, sosialist dünyagörüşündən imtina edərkən alimlərimiz ictimai elmlər sahəsində yeni yollar axtarmağa da heç hazır deyildilər. İndi ölkənin kitab bazarı müxtəlif məzmunlu və çoxsaylı nəşrlərlə dolub daşır. Əli qələm tutan yazır. Nəfis tərtibatla işıq üzü görən bu nəşrlər içərisində sosial-siyasi problemlərin bəsit şərhi ilə bağlı vaxtaşırı səslənən ciddi iradları biz tamamilə haqlı sayırıq. İctimai elmlər üzrə tədqiqatların empirizm və quru təsvirçilik səviyyəsinə enməsi müşahidə olunur və həmin nəşrlərdə faktlar yalnız sadalanır, hadisələrin quru təsviri verilir, nəzəri təhlil də yox dərəcəsindədir. Hər bir elmi axtarışda isə əsas prinsip canlı müşahidədən abstrakt təhlilə və ondan praktikaya istiqamətlənməlidir.

Şübhəsiz, dünyagörüşünün elmi əsası kimi fəlsəfə və digər ictimai elmlər öz vəzifələrini yalnız o halda tam yerinə yetirə bilər ki, burada aparılan ümumiləşdirmələr və gəlinən qənaətlər aydın bir dildə





ifadə edilməklə yanaşı, məzmunca da dərin olsun.

Bu qənaətlər isə yalnız insanları düşündürən və narahat edən elmi, sosial-mədəni və mənəvi-əxlaqi problemlərin real həllində rol oynayacağı təqdirdə maraq doğurar, onların diqqətini öz üzərinə çəkə bilər.

Əlbəttə, ictimai elmlərin yeri və nüfuzu ən əvvəl bu sahədə çalışan mütəxəssislərin özlərindən asılıdır. Sirr deyil ki, son 20-25 il ərzində məlum obyektiv, yaxud subyektiv səbəblərdən ictimai elmlər sahəsində canlı diskussiyalar aparılmır, məzmunlu elmi tənqidə və nəzəri aspektli təhlillərə rast gəlinir.

İctimai elmlər öz mənbəyini məhz gerçəkliyin obyektiv şərhindən və təhlilindən alır. Cəmiyyətdəki təmayülləri hələ özünü büruzə verməyə başladığı ilk vaxtdan görməyi bacarmaq əsl sosioloqa xas olan bir keyfiyyətdir. Bunun isə çox nadir hallarda şahidi oluruq. Gerçəkliyin obyektiv təhlili, düzgün qiymətləndirillməsi və tarixi təcrübənin yeni elmi dərki olmadığı təqdirdə yeni elmi biliklər və ictimai elmlərin məzmunca zənginləşməsi də çətindir. Əgər nəyi isə tənqid ediriksə, həmin tənqid mövcud olanların köklü inkarına yönəlməməli, islahedici xarakter daşımalıdır. Əks təqdirdə o, inkişafı əngəlləyən amilə çevrilə bilər.

Bir qədər əvvəl deyildiyi kimi, ölkəmizin inkişafının yeni təcrübəsi lazımınca öyrənilmir, ümumiləşdirilmir və yeni biliklərin hasil edilməsində ondan istifadə olunmur. Həyatımızın bugünkü reallıqları

elmi-nəzəri tədqiqatlarda özünün təcəssümünü tapmalıdır. Yeni dövrün ruhuna uyğun nəzəri-ictimai fikrin yaradıcı surətdə inkişafı bu yolla təmin edilə bilər.

Ötən dövrə nəzər yetirdikdə aydın olur ki, bizim filosoflar, tarixçilər, iqtisadçılar və ədəbiyyatşünaslar ölkədə baş verən yeniliklərin heç də aparıcı qüvvəsi kimi çıxış etməyiblər. Həddən ziyadə vaxt itkisinə yol verilmişdir. Halbuki müstəqilliyimizin on doqquz ili lazımi elmi nəticələrə gəlmək üçün kifayət qədər möhkəm baza təşkil edir.

2003-cü ildən etibarən ölkəmiz öz inkişafının yeni mərhələsinə qədər qoymuşdur. Bu inkişaf yolunu bütün incəlikləri ilə aydın təsəvvür etmək və eləcə də gələcək perspektivləri müəyyənləşdirmək üçün, sözsüz ki, ictimai elmlər sahəsində yaradıcı mühitin bərqərar olması və burada vahid mövqedən çıxış edilməsi zəruridir".

Bizdə ictimai və humanitar elmlərin yeni konspsiyasının formalaşması prosesinə başçılıq etməli və yeni ideyaların, bir növ bayraqdarı olması vacib sayılan əlaqədar institutların yeni şəraitdə köhnə təfəkkürlə, iş metodları ilə kifayətlənməsi akademik Ramiz Mehdiyevin haqlı qınağına səbəb olur və o, məsələnin bu arzuolunmaz məqamları üzərində xüsusi olaraq dayanır.

Ölkəmizdə fəlsəfi fikir bu gün müəyyən böhran keçirir ki, bu böhran vəziyyətinin də əsas səbəbi





fəlsəfə sahəsində tədqiqatların sosial praktikadan, bütövlükdə, ictimai həyatın aktual problemlərindən və tələbatlardan uzaq olmasıdır. Nəticədə praktiki və elmi fəaliyyətdə də nəzəriyyə və metodologiyaların ümumi müddəalarının dəyərləndirilmə səviyyəsi aşağı düşmüşdür.

Akademik Ramiz Mehdiyev sovet şinelindən çıxmış elmi qurumların beş-on ilə Frensis Fukuyama və ya Yurgen Xabermas kimi filosoflar yetirə bilməyəcəyinin reallıqlarını önə çəkməklə yanaşı onu da qətiyyətlə bildirir ki, bu sahədə çalışan elmi işçilərin 20 il bundan öncə yazdıqları dissertasiyalar, ayrı-ayrı müddəaların ilbəil plan işi adı ilə təqdim etməyə haqları yoxdur. O, elm sahəsində çalışan insanlara ümumiləşdirici konseptual yanaşmaların vacibliyini dönə-dönə xatırladır, əsas elmi vəzifəsini unudan institut kollektivlərin nəzərinə çatdırır ki, humanitar və ictimai-siyasi elmlər sahəsində yeniləşmə işi daha sürətlə və təbii ki, məqsədyönlü şəkildə aparılmalıdır.

Proqram xarakterli bu maraqlı əsəri əslində hər bir Azərbaycan insanının fikirlərini, arzu və istəklərini ifadə edir. Müəllif haqlıdır ki, "Tarix dərsliklərimiz insanları çaşdırmaqla, onları yenə də ciddi problemlər qarşısında qoyur. Milli tariximizə vahid baxış olmadığından müxtəlif dövrdə yaranaraq, cürbəcür adlar daşımış dövlətlərin ölkəmizlə sıx əlaqələndirilməsinin məntiqi izahını tapmaqda vətəndaşlarımız çətinlik

çəkirlər. Ən qədim dövrlərdən tariximizədək Azərbaycan tarixi vahid elmi konsepsiyaya uyğun olaraq bir fənn kimi ali və orta məktəblərdə lazımınca tədris olunmalıdır".

Bunları oxuduqca gözlərim qabağına son illər bölgələrdə yaşayıb-yaradan bir para "qələm əhli"nin tarix adına ağıllarına gələni bir yerə toplayıb kitab halında nəşr etdirmələri gəlir. Nəşriyyatlar çap probemlərini yoluna qoymaq naminə belə kitabların elmi dəyərinə elə də fikir vermir. Müəllif isə "təki kitabım çap olunsun, tədqiqatçı adı ilə tanınım" marağını üstün tutur. Saatlı rayonunun tarixini araşdırmaq eşqinə düşən bir başabəla tarixçi Muğan toponimindən bəhs edərkən yazır ki, Muğan sözü bu yerlər üçün daha çox xas olan həşəratın – mığmığanın (mığ-muğ səsləşməsinə əsasən belə deyir) adından götürülüb. Təsəvvür edin, bu cür əbləh, son dərəcə heysiyyətsiz bir yozum rayon tarixi haqda yazılmış kitaba düşür, həmin rayonun rəhbərliyi belə zərərli bir fikri ifadə edən kitabın nəşrinə maliyyə yardımı edir, məktəblərə yayır, gənc nəsil bu yazılanları oxuyur və nəfis şəkildə çap edilmiş kitabda yazılanların məntiqi qarşısında çaşıb qalır... Bu cür kitabların təqdimatı keçirilir, kifayət qədər tanınan alimlər ona rəy yazır, geninə-boluna tərifləyirlər. Bir deyən də olmur ki, əgər səsləşməyə görə Muğan toponiminin mahiyyətini verirsənsə, bu toponimi bəsit baxışla mığmığa, həşərat adıyla yox, heç olmasa, 553-





cü ildə Göytürk imperatorluğunun başında dayanmış Mukan xaqanın adıyla bağla. Mukan xaqan Göytürk imperatorluğunun yaradıcısı Bumin xaqanın dövlət başına gələn ikinci oğlu idi. Onun əmisi İstəmi xaqanın qalib orduları 571-ci ildə Azərbaycana qədər irəliləmişdi. Eyni zamanda İstəmi xaqan bütün siyasi və hərbi fəaliyyətini Göytürk imperatorluğunun qurucusu Mukan xanın adıyla bağlayırdı (Bax, Rəfiq Özdək: "Türkün qızıl kitabı". 1-ci kitab. səh.93).

Başqa bir başabəla araşdırmaçı İmişli rayonunun tarixindən bəhs edərkən düzənlikdə yemişin xarab olub iylənməsi səbəbindən İmişli toponiminin "iylənmiş, iyverən yemişli"li yer adı olmasından bəhs edir. Məlumdur ki, Aran toponimindən bəhs edən etnoqraflar bu sözün isti məkan mənasında işləndiyini yazmaqdadırlar. İmişli mərkəzi Aran zonasıdı. Bu başabəla tədqiqatçı İmişli toponiminin İmaşlı, İbişli tayfa adlarından yarandığını yazmırsa, üst qatdakı səsləşməni əsas götürürsə, onda heç olmasa İmişli – imisti (yəni ən isti, ən qızmar) səsləşməsini önə çıxarmalı, həqiqətə daha yaxın olanın üzərində dayanmalıydı.

Ən azından, milli qürur, heysiyyət baxımından!

Məlum həqiqətdir ki, akademik Ramiz Mehdiyevin yazdığı kimi, "Dünya elminə inteqrasiya mərhələsində olduğumuz indiki vaxtda ictimai və humanitar elmlər sahəsində islahatların başlıca spesifi-

kası müəyyənləşdirilməlidir". "Bu elmlər hazırki fazanın əsas xüsusiyyətlərini araşdırmalı və yeni ideyalar irəli sürməlidir.

Dövlətin elm siyasəti milli ideologiya və dövlətçilik tarixi, mədəniyyət və fəlsəfə, politologiya və sosiologiya, mədəniyyətşünaslıq və hüquq sahələrinin verdiyi təklif, konsepsiya və proqramlarla sıx bağlıdır. İctimai və humanitar elm sahələri irəliləyərək bizdə bu əlaqələrin dərin surətdə təmin olunmasına gətirib çıxarmalıdır".

Görkəmli akademik təbii olaraq ictimai və humanitar elmlərin nümayəndələrinin ölkəmizin dinamik inkişafına öz töhfələrini verəcəklərinə, onun regionda həm də güclü elm mərkəzinə çevrilməsi yolunda üzərlərinə düşən vəzifələri az bir vaxtda yerinə yetirmək üçün bütün imkanlarını səfərbər edəcəklərini də inamlı şəkildə ifadə edir, inamla yazır ki, bəşəriyyət tamamilə yeni inkişaf modelinin formalaşması və köklü transformasiyalar mərhələsini yaşayır. "Bu mərhələni sözün əsl mənasında elm və intellekt yaratmışdır..."

Artur Rembo yazırdı ki, bəşəriyyət dahi bir körpənin – tərəqqinin qarşısında səcdə edib, baş əyir. Bu mənada, akademik Ramiz Mehdiyevin humanitar və ictimai elmlər sahəsində nəzərə çarpan problemləri önə çəkməkdə başlıca məqsədi bu sahədə çalışan insanların, daha çox tədqiqatçı alimlərin cəmiyyət və





müstəqil dövlətçiliyimiz qarşısında nəyə məsul və cavabdeh olmalarını önə çəkmək, diqqəti əsl hədəfə yönəltmək, bir daha xatırlatmaqdır.

Xalq yazıçısı Anar görkəmli akademikin bu haqlı təlaşını doğuran obyektiv səbəblərin bəzi nüanslarından bəhs edərkən yazır: "İndi dəhşətli bir tiraniya mövcuddur – informasiya tiraniyası; qəzetlər, radio və televiziya başımıza kürül-kürül xəbər axıdır, bununla da, nəinki kitabla ünsiyyətə, heç işləməyə, sərbəst düşünməyə də vaxt qalmır. Sözün yalnız fiziki anlamında deyil, mənəvi anlamında da elementar fikrə dalmağa imkan verilmir. Elə bil, fikrin dərinləşməsinə, təkmilləşməsinə, öz-özünü dərk etməsinə ehtiyac qalmayıb. Bu, əsasən ziyalıları – elmi və yaradıcı ziyalıları zədələyir. Estetik, mənəvi, elmi dəyərlərin istehsalçılarından istehlakçılarına çevrilirlər..."

Tamamilə doğru müşahidələrdir. Eyni zamanda məsələnin bu tərəfinə aydın vətəndaş münasibətilə yanaşan akademik Ramiz Mehdiyev də öz müsahibə və məqalələrində teleməkanda baş alıb gedən bayağı verilişlərin milli-mənəvi dəyərlərimizlə daban-dabana zidd olduğunu önə çıxarır, bu verilişlərin yaradıcılarını elə yaradıcısı xalq yazıçısı Anar olan "Poeziya", eyni zamanda, "Ovqat" və s. verilişlərin aktuallığından və səviyyəsindən nümunə götürməyə çağırır.

Yenə də Anarın "Gecə düşüncələri"ndən oxuduqlarımın üzərinə qayıdıram: "İdeologiya çox vaxt

iqtisadi sistemlərdən daha uzunömürlü olur. Elm və texnikanın tərəqqisiylə bağlı olaraq iqtisadi sistemlər inkişaf etsə də, ideoloji baxımdan nimdaş dünyəvi və dini ideyaların əsiri olaraq qalırlar... Beləliklə, cəmiyyət inkişaf yolunda ideologiyaya verməlidir. Axı, nəyə görə? Görünür ona görə ki, mədəniyyət, sənət, əxlaq kimi ideologiya da cəmiyyətin şüurunda o qədər iz salır ki, onun təməllərinin sarsıdılması insanlar tərəfindən zəlzələ-vəlvələ kimi qavranılır, həyat tərzinin kökündən dəyişməsi kimi anlaşılır..."

Təbii ki, akademik Ramiz Mehdiyevin dərin vətəndaşlıq duyğusu ilə vurğuladığı kimi, "hər bir xalqın, dövlətin milli ideallar sistemi var". Bu doğru və gərəkli fikrini ortaya qoyarkən o, ümummilli lider Heydər Əliyevin "Bizim üçün bir tarixi amil – azərbaycançılıq var" qənaətini ən mükəmməl ehkam kimi qəbul edir, ulu öndərin vaxtilə "Biz yeni əsrə, yeni minilliyə Qorqud irsinin bayrağı altında, Qorqudun övladları, Qorqud mənəviyyatını yaşadan insanlar kimi qədəm qoyuruq" dəyərləndirməsini son dərəcə yüksək qiymətləndirir. Ramiz Mehdiyev ən səmimi duyğularla "Qoy bu azərbaycançılıq ideologiyasını daim qidalandıran tükənməz çaylar heç vaxt qurumasın" – deyir. Əlavə edir ki, "Qoy, bu azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan incəsənətinin zirvələrini heç vaxt qara buludlar almasın!.. Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti





çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaq".

Yetər ki, hörmətli akademikin dərin elmi-nəzəri təhlillərə söykənən bu dərin məzmunlu əsərində qaldırdığı problemlərə vaqif ola bilək.

***"Milli ideya" xalqı və hakimiyyəti birləşdirən bir zəmindir və müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan öz tarixi ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvü şəkildə əlaqələndirməyi bacarmalıdır"***

***Akademik RAMİZ MEHDİYEV***



* * *

"Ulu öndər Heydər Əliyevin adı ilə bağlı neft strategiyasının Azərbaycan xalqına hələ uzun müddət xidmət edəcəkdir" gerçəkliyini önə çıxaran fikir adamları akademik Ramiz Mehdiyevin "İnkişafın Azərbaycan modeli" kitabından bəhs edərkən bir məsələnin üzərində haqlı olaraq dayanırlar ki, kitabın müəllifi Azərbaycanda formalaşan dayanıqlı, davamlı inkişafın qaynaqlarını çox yüksək peşəkarlıq və vətəndaşlıq qüruru ilə ortaya qoya bilib. Təbii ki, bu qaynaqlar sırasında 1994-cü ilin sentyabrında dayanan ən aparıcı, nəhəng şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasının tarixi əhəmiyyəti önəmli yer tutur. Bu tarixi müqavilənin bağlanmasından çox keçməmiş daha 21 neft müqaviləsinin imzalanması, böyük həyati əhəmiyyətə malik layihələrin həyata keçirilmə

prosesinə 400-dən çox xarici şirkətin cəlb edilməsi, bağlanmış müqavilələrə əsasən 30 il ərzində Azərbaycanın neft sənayesinə 60 milyard dollar sərmayə qoyulacağının planlaşdırılması və s. xalqda öz dövlətinin potensial istisadi gücünə fəxarət hissini daha da möhkəmləndirdi. Şübhəiz ki, xalq bu taleyüklü layihələrin reallaşması nəticəsində nail olacağı iqtisadi səmərəni də aydın şəkildə dərk etməyə başladı. Bakı – Tbilisi – Ceyhan ixrac neft boru kəmərinin inşasını cəmiyyətimiz xalqın rifah halının durmadan, sürətlə yaxşılaşacağının təminatçısı kimi qəbul etdi. Tarixdə ilk dəfə olaraq xalq özünü vətəndaşı olduğu ölkənin milli sərvətlərinin sahibi kimi görə bildi. Bu sahibliyinin öncə əhalinin sosial həyatının, güzəranının yaxşılaşmasına yönəldilməsi cəmiyyət tərəfindən dərin razılıqla qarşılandı.

Neftin Azərbaycan insanının sosial rifahının inkişafındakı əhəmiyyətini, Avropa və Asiyanın qovuşuğunda qərar tutmuş ölkəmizin neft gəlirləri sayəsində bitib-tükənməz bir kapital bazasına çevriləcəyini tam aydınlığı ilə ifadə edən Ramiz Mehdiyev sosioloq Seymur Martin Lipsetin məşhur bir fikrinə istinad edir ki, "Millət nə qədər varlı olsa, onun sabit demokratiyaya nail olmaq şansları bir o qədər yüksək olar".

Bu vacib şansın bərqərar olmasının yolu isə təbii ki, "İnkişafın Azərbaycan modeli"ndən keçir. Eyni zamanda Azərbaycanın bu gün nəinki özünü





təmin edə bilməsinin, həm də Avropa və digər bazarlar üçün alternativ bir bazaya çevrilməsinin əsasında bu model dayanır. Bu modelin qalibiyyəti Azərbaycanın neft strategiyasının uğurlu inkişafıyla birbaşa bağlıdı. Və bu strategiyanın tək Azərbaycan üçün deyil, həm də qonşu ölkələr, eyni dərəcədə də dünya iqtisadiyyatı üçün də vacib amilə çevrildiyi təkzibolunmaz bir həqiqətdir.

Akademik Ramiz Mehdiyev bu həqiqətin reallığında dünyanın aparıcı dövlətlərinin ölkəmizə olan maraqlarının daha da güclənəcəyini inandırıcı arqumentlərlə ortaya qoyur, ölkəmizin iqtisadiyyat sahəsində dünya ölkələri arasında ilk yerlərdə qərarlaşmasını təmin edən amillərin özünəməxsus xüsusiyyətlərini təhlil edir.

Təsadüfi deyil ki, "İnkişafın Azərbaycan modeli" kitabının Azərbaycan Mətbuat Evində keçirilən təqdimat mərasimində çıxış edən akademiklər Ziyad Səmədzadə, Asəf Nadirov, millət vəkili Şəmsəddin Hacıyev və başqaları da Azərbaycanda tətbiq olunan iqtisadi inkişaf modelinin bu nəşrdə son dərəcə dolğun şəkildə şərh olunduğunu önə çəkiblər.

Bu baxımdan akademik Ziyad Səmədzadənin fikirləri xüsusi maraq doğurur: "Kitabda Azərbaycanın iqtisadi inkişaf yolları və bu sahədə həyata keçirilən tədbirlər təhlil olunub. Fikrimcə, Azərbaycan dünyada yeganə dövlətdir ki, ölkənin inkişafının bütün sahələri

konkret dövlət proqramları ilə əhatələnib; Azərbaycan müstəqillik əldə etdikdən sonra çətinliklərlə üzləşib – bir iqtisadi sistemdən digərinə keçib. Çox az ölkə belə keçiddə öz iqtisadi müstəqilliyini saxlaya bilib. "İnkişafın Azərbaycan modeli" kitabı ölkəmizlə maraqlanan dövlətləri düşündürəcək".





* * *

Akademik Ramiz Mehdiyev xalqımızın minilliklərdən gələn tarixi boyunca yaşadığı olduqca mürəkkəb şəraiti, yaratdığı böyük mədəniyyəti, qurduğu dövlətlərin zaman daxilində nüfuz dairəsini "Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi" kitabında (Bakı, 2011-ci il) yüksək vətəndaşlıq qayəsi ilə araşdırır, son dərəcə qürur doğuran bir sayğıyla şəhadət verir ki, adına Azərbaycan deyilən bu şanlı vətən heç də tale tərəfindən həmişə əzizlənməsə də belə, təqdirəlayiq haldır ki, xalqımız heç vaxt əsarətlə barışmamış, parçalansa, hissələrə bölünsə belə, diz çökməmiş, qürurunu itirməmiş, özünəməxsusluğunu və tarixi dəyərlərini qoruyub saxlamaq üçün hər dəfə özündə qüvvə tapmışdır. Ramiz müəllim bu dəyərli fikirlərini dövlət quruculuğumuzun, müstəqil inkişafımızın fundomental bazası olan əzəli və əbədi

dəyərlərimizin daşıyıcısı və yaradıcısı olan ümummilli lider Heydər Əliyevin çoxillik fəaliyyətinin təhlili və dərk edilməsi kontekstində təqdim edir, nəzərə çatdırır ki, öz tarixi boyu "başı bəlalar çəkmiş Azərbaycan xalqının müasir dövrdə bəxti gətirmiş, ona zəngin dövlətçilik təcrübəsinə malik, özünü və xalqını beynəlxalq aləmdə tanıtdırmış olan Heydər Əliyev kimi bir lider, elimizin və dilimizin xilaskarı olan bir dövlət başçısı qismət olmuşdur".

Kitaba daxil edilən "Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda", eyni zamanda, "Tarixdə şəxsiyyətin məsələsinə dair" məqalələrində ulu öndərin Azərbaycan xalqının tarixini necə məqsədyönlü şəkildə və əsl ilhamla yaratmasından xüsusi bir məhəbbətlə söz açılır, bu dahi siyasətçidən xalqın əsl lideri, "milli ideya"ya xidmət göstərən böyük vətəndaş kimi bəhs edilir. Sözügedən kitabı oxuduqca H.Əliyevin əzəmətli siması böyük filosof Xacə Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" kitabında haqqında bəhs olunan tarixi şəxsiyyətin bütöv obrazı göz önünə gəlir. Tusi yazır: "Şəraitin nə tələb etdiyini müəyyənləşdirmək üçün elə bir şəxsiyyətə ehtiyac var ki, o, ülvi bir ilhama malik olmaqda başqalarından fərqlənsin, qalanlar onu təqlid etsin. Qədim alimlərin fikrincə isə belə adamlar "qanun sahibi" və onun qanunlarına "ilahi qanun deyilirdi".

Əflatun özünün "Siyasət" kitabının beşinci





məqaləsində belə adamlara işarə edərək demişdir: "Bunlar qüvvətli, böyük və fövqəladə adamlardır".

Aristotelə görə belə insanların qeybdən belə xəbərləri olur, yüksək möcüzəvi qüvvəyə malikdirlər.

Mübaliğəsiz demək olar ki, görkəmli filosof, akademik Ramiz Mehdiyev də öz böyük müəllimi, unudulmaz dahi Heydər Əliyevdən əxz etdiyi böyük idarəedicilik qabiliyyəti, yüksək qədirbilənlik və vəfadarlıq məziyyətləri ilə bir arada cəmiyyətimiz, dövlətçiliyimiz üçün mütləq vacib olan belə dəyərli insanlardandır. O, bütün yaradıcılığı, idarəetmə gücü ilə dövlətimizin, dövlətçiliyimizin və ölkə başçısı cənab İlham Əliyevin yanındadır...

Ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı dövründə reallaşdırdığı irimiqyaslı dövlət quruculuğu siyasəti həm də özlüyündə bu yenilməz insanın möcüzəli əməyinin, qüdrətinin rəhni idi. İdarəetmə sənətinin fövqündə dayanan Heydər Əliyev xalqın düşüncəsinə, böyük filosof Əflatunun meyarları ilə yanaşmış olsaq, dünya tədbir tökəni, dünya müdriki obrazı ilə daxil olmuşdu. Məhz bu cür yüksək fəzilətlərə sahib olduğundan Heydər Əliyev siyasi hakimiyyətə qayıdışının ilk illərində dövlətimizin, dövlət müstəqilliyimizin başı üstündə kabus kimi dayanmaqda olan dövlət çevrilişi cəhdlərinin qarşısını inamla aldı, Azərbaycanın dünya günəş kimi doğacağını bəyan etdi, bir çox pozuculuq əməllərinin aradan

qaldırılmasına, qanunların aliliyinin qorunmasına şərait yaratdı, ayrı-ayrı şəxslərin siyasi ambisiyalarına son qoydu.

Alman filosofu Artur Şopenhauer vaxtilə yazırdı ki, fərdlərin dava-dalaşları dövlət hakimiyyəti tərəfindən qarşısı alınıb üzə çıxara bilməyəndə daxilə qayıdır və get-gedə artan borc kimi xalqlar müharibəsinə çevrilib böyük sayda qanlı qurbanlar tələb edir.

Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışına qədər Azərbaycanda məhz bu cür fərdlərin ambisiyalı dava-dalaş, mənəmlik sindiromu yaşanırdı, bu sindiromlar ölkəmizi vətəndaş müharibəsinin astanasınacan gətirib çıxarmışdı. Ulu öndər həmin günlərdə öz dahi həmyerlisi Hüseyn Cavidin vaxtilə bəyan etdiyi "Kəssə hər kim tökülən qan izin, qurtaran dahi odur yer üzünü" səslənişinin əsl mahiyyətini öz əməli fəaliyyətinin konsepsiyası kimi reallaşdıra bildi. Cəbhə bölgələrimizdə atəşkəsə nail oldu, sürətli ordu quruculuğu işinə başladı, çevriliş cəhdlərinin qarşısını əzmkarlıqla aldı. Ulu öndər bir bütövün paraları olan türkdilli dövlətlərin türkçülük ideyası ətrafında sıx birləşməsinə yönəli beynəlxalq səviyyədə layihələrin həyata keçirilməsinə hər cür şərait yaratdı.

Akademik Ramiz Mehdiyev "Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi" kitabında bu yaşanan olaylar üzərində dərin fəlsəfi, elmi-nəzəri mülahizələrilə dayanır. Qürur hissilə bildirir: "Türkçülük ide-





yası hələ yaşayır və türk xalqlarının milli ruhuna öz təsirini itirməmişdir. Zənnimcə, düzgün yanaşılsa, sağlam davranılsa, həmin ideya hazırda öz müstəqil dövlətlərini yaratmış türklər, azərbaycanlılar, özbəklər, türkmənlər, qazaxlar, qırğızlar arasında iqtisadi və mədəni əməkdaşlığın inkişafında müəyyən müsbət rol oynayar, onların bir-birinə yaxınlaşmasına, dünya birliyinə qovuşmasına xidmət edər..."

***

Haqqında bəhs etdiyimiz tarixi məqamlar akademikin "Azərbaycan: Qloballaşma dövrünün tələbləri" kitabında da əhatəli şəkildə araşdırılır və həmin mərhələdə ulu öndər Heydər Əliyevin müstəqil, demokratik Azərbaycan dövlətinin qurulmasında liberalizm və mühafizəkarlığın sintezi olan neokonservatizm konstruksiyasından necə məharətlə istifadə etməsindən geniş bəhs olunur. Müəllif fərqindədir ki, tarixi baxımdan "qloballaşma yeni hadisə deyildir, bəşəriyyət həmişə inteqrasiya, vahid siyasi, iqtisadi və ya sosiomədəni mühitin bir hissəsi olmağa can atmışdı".

Müəllif bu mövqedən ümummilli lider Heydər Əliyevin möhtəşəm fəaliyyətini təqdir edərək göstərir ki, yalnız Heydər Əliyev kimi hakimiyyətin optimal modelini tapan, hətta barışmaz ziddiyyətləri aradan qaldıran, cəmiyyətdə vəziyyəti sabitləşdirən, millətin bütün imkanlarını səfərbər edən, müxtəlif qüvvələrin

və bütövlükdə cəmiyyətin siyasi tarazlığını yaradan insanlar siyasi uğur qazana bilərlər.

Professor Seyfəddin Qəndilov bu əsəri haqlı olaraq Azərbaycan elminə böyük töhfə kimi dəyərləndirir, dövlət idarəçiliyi sahəsində hazırlanan kadrların yeni dövrün – qloballaşma dövrünün tələb və vəzifələrini düzgün başa düşmələrinə, onlarda yeni dünyagörüşünün və yeni təfəkkürün formalaşması işinə kömək etməklə yanaşı, Azərbaycan tarixinin ən mübahisəli dövrlərinin dürüst proqnozunu verən əsər kimi də digər zümrələrin marağına səbəb olacağını qeyd edir.

Bu maraqlı əsər haqqında mülahizələrini "Biz öz taleyimizi özümüz müəyyənləşdiririk" başlıqlı məqaləsində diqqətə təqdim edən yazıçı-publisist Lyudmila Lavrova maraqlı bir fikir üzərində dayanır ki, Ramiz Mehdiyevin kitabında mən politoloqdan çox ədəbi tənqidçi gördüm: "Kitab dərin şəxsi intonasiya ilə yazılmışdır ki, bu da əsəri təkcə alimlər, mütəxəssislər, siyasətçilər üçün deyil,hazırda dünyada və öz ölkəsində baş verən hadisələrlə maraqlanan oxucuların geniş dairəsi üçün cəlbedici edir. Müəllif indi nadir olan, lakin kütləvi şüurda xeyli qiymətdən düşən, buna baxmayaraq, hər yerdə elitaların imtiyazı kimi qalan məziyyətə malikdir – o, sözün əsl qədir-qiymətini bilir".

Fəlsəfə elmləri doktoru Rəbiyyət Aslanova,





professor Alış Qasımov və başqaları da sözügedən kitabı müasir siyasi prosesləri mükəmməl araşdırma kimi dəyərləndirir, ulu öndər Heydər Əliyevlə bağlı deyilənlərin dərin qədirbilənlik faktı olduğunu önə çəkir, eyni zamanda, müəllifin ulu öndərin layiqli varisi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev fenomenini peşəkarlıqla aça bilməsini xüsusilə nəzərə çatdırırlar.

Düz qənaətdir ki, Prezident İlham Əliyevin yolu yeniliklə ənənələri ahəngdar surətdə birləşdirir və bu yol Azərbaycanı hökmən tərəqqiyə və firavanlığa çatdıracaqdır.

Qanunauyğun haldır ki, akademik Ramiz Mehdiyevin qələmindən çıxan hər bir elmi-nəzəri əsər müasir tariximizin fundomental tədqiqat faktları kimi böyük maraqla qarşılanır. Onun yazıları ilk növbədə Azərbaycanın daxili problemlərinin Avropaya çıxarılmasının qarşısının alınması yollarının arayıb tapılmasına yol açmaq istəyinin bəhrəsidi. Bu əsərlərdə müstəqillik dövründə Azərbaycan cəmiyyətində gedən təkamül prosesinin geniş elmi-fəlsəfi təhlil verilir, həyatımız, dünyamız və cəmiyyətimiz üçün çox ciddi qlobal məsələlərə diqqət yönəldilir. Eyni zamanda da ulu öndər Heydər Əliyevin dövlətçilik ənənəsinin əhatə etdiyi idarəetmə şəbəkəsinin gücü ilə alternativi olmayan siyasi kursun uğurla davam etdiriləcəyinə dərin inam hissi aşılanır.

Aydın şəkildə görünməkdədir ki, akademik Ramiz Mehdiyevin ulu öndər Heydər Əliyevin dövlətçilik ənənəsinə, həyat prinsiplərinə sədaqəti son dərəcə şəffaf və davamlıdır. Bütün həyatını insanlıq qanunları, böyük vətəndaşlıq prinsipləri əsasında yaşamış ulu öndər Ramiz Mehdiyevin düşüncəsində böyük xilaskar, əbədi ustad və yolgöstərən obrazında yaşamaqdadı, bu obraza xüsusi ehtiram, sevgi duyğuları onun hər bir əsərinin ilhamverici qüvvəsidir.

Görkəmli filosof L.Feyerbax vaxtilə öz oxucularına müraciət edərək yazırdı ki, sev, lakin həqiqi məhəbbətlə sev: "Onda bütün qalan fəzilətlərə də sahib olarsan".

Mübaliğəsiz demək olar ki, akademik Ramiz Mehdiyevin Heydər Əliyev şəxsiyyətinə, idarəetmə prinsiplərinə, bu dahi insanın parlaq mənəvi keyfiyyətlərinə olan ali ehtiram, sevgi duyğuları onu həmişə inamlı və ardıcıl şəkildə yüksək ali fəzilətlərə doğru aparıb, düşüncələrini cilalayıb, həyat mövqeyini şərtləndirib.

Ramiz Mehdiyevin ulu öndərlə bağlı düşüncələri ilə olduqca ilk növbədə sosialist inqilabının dəmir əllərindən biri kimi tarix salnaməsində yer tutan F.Djerjinskinin "Mən insanı yarıyacan sevə bilmərəm, mən insana təkcə qəlbimin yarısını verə bilmərəm, mən ya qəlbimi tamamilə verərəm, ya da heç bir şey vermərəm" fikri yada düşür. Aydın hiss olunur ki,





Ramiz Mehdiyev üçün böyük ustadı Heydər Əliyevin irsini tədqiq və təbliğ etmək zərurəti bir vəzifə bağlılığından yox, əsl insanlıq, vəfadarlıq vəzifəsini layiqincə yerinə yetirmək, ifadə etmək ehtiyacından qaynaqlanır. R.Mehdiyevin dərin elmi-nəzəri fikirləri Heydər Əliyev şəxsiyyətinin fəaliyyət dairəsindən bitib-tükənməz mənəviyyat xəzinəsi, yenilməzlik təcrübəsi kimi faydalanır. Ona görə də bu fikirlərin ehtiva etdiyi həqiqətlər insanı dərindən inandırır, onların düşüncələrinin tam aydınlığı ilə cilalanmasına meydan açır.

Onun irili-xırdalı yazmış olduğu hər bir əsərilə tanışlıq əlbəəl nişan verir ki, bu əsərlərin müəllifi bütün həyatı boyu insani vəzifələrini layiqincə yerinə yetirməklə həyat, cəmiyyət, idarəetmə prinsipləri haqqında dürüst nəticə çıxara bilən geniş təfəkkürə malik bir filosof, bənzərsiz şəxsiyyətdir. Ramiz Mehdiyev ayrı-ayrı kitablarında ümummilli lider Heydər Əliyevin irsini "fəlsəfi tarixi kontekstdə, elmi-nəzəri cəhətdən, hüquqi baxımdan dövrün, zamanın tələbləri əsasında məharətlə təhlil edilir."

Fransız filosofu Fulye Alfred (1838-1912) sosial tərəqqidə əsas qiyməti şəxsiyyətin fəaliyyətinə verirdi. Məhz şəxsiyyətin fəaliyyət şəffaflığı, məqsədyönlülüyü ona inam, etibar yaradır. Bu mənada görkəmli filosof Ziyəddin Göyüşovun ümumiləşdirməsi tamamilə doğrudur ki, bir kəsə etibar etmək ondakı insanlığı təsdiq və

etiraf etməkdir, onun şəxsiyyətinə hörmətdir.

Mübaliğəsiz demək olar ki, akademik R.Mehdiyev ona ən yüksək səviyyədə bəslənən etibarı həmişə ləyaqətlə, səbr və təmkinlə doğruldub.

Ramiz Mehdiyev görkəmli filosof, dəyərli bir alim kimi cəmiyyətə, xalqa fayda gətirən bir şəxsiyyətdir. Ulu öndər Heydər Əliyev məhz onun kimi dərin zəkalı, geniş düşüncə daşıyıcısı olan amilləri nəzərdə tutaraq demişdir: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar".

Heç şübhəsiz ki, iti zəkası, intellektual elmi-nəzəri savadı və idarəetmə qabiliyyətinin geniş dairəsi ilə bir arada Ramiz Mehdiyevin məhz ulu öndərin haqqında bəhs etdiyi alimlərin ön cərgəsində xüsusi yeri var. Onun yaradıcılığı, elmi-nəzəri fikirləri, böyük idarəetmə təcrübəsi çağdaş zəmanəmizi öyrənmək, dərk etmək və mühakimə yürütmək üçün geniş imkanlar açır, realist zəmində baş verənləri anlamağa kömək edir.

Etik dəyərlər, mənəvi-əxlaqi kriteriyalar insani münasibətlərin, eləcə də bütövlükdə cəmiyyətin ahəngdarlığının, sağlam əsaslar üzərində inkişafının çox vacib şərtlərindəndir. İctimai-iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələr mənəvi, etik-əxlaqi kateqoriyalara əsaslanmalıdır ki, qarşılıqlı münasibətlər həm şəxsi planda, həm də cəmiyyətin miqyasında ahəngdarlıq təmin olunsun. Təsadüfi deyildir ki, əxlaqi dəyərlər bütün dövlətlərdə mütəfəkkirlər tərəfindən yüksək qiymətləndirilmiş, onların fəlsəfi-estetik mahiyyəti şərh edilmiş və bütün insanlara bu keyfiyyətlərə yiyələnmək tövsiyə edilmişdir. Vəfadarlıq da bir etik, estetik, əxlaqi keyfiyyət kimi bu silsiləyə daxildir. Vətənə məhəbbətdə, ideologiyaya sadiqlikdə, sevgidə fədakarlılıqda, istər şəxsi, istərsə də ictimai münasibətlərdə vəfadarlıq ana südündür, təməl daşıdır. Vəfadarlıq olmayan yerdə heç bir ali duyğudan, ideal münasibətdən, ideoloji siyasi ardıcıllıqdan söhbət gedə bilməz. Bu kitabda vəfadarlıq məhz belə bir etik-əxlaqi, fəlsəfi estetik kateqoriya kimi götürülmüş, onun insanlar arasındakı münasibətlərdə, həm də bütövlükdə cəmiyyət həyatında, dövlət işlərində əhəmiyyəti ön plana çəkilmişdir.

Mühüm əxlaqi kateqoriya kimi vəfadarlıq duyğusunu görkəmli dövlət xadimi, böyük filosof, akademik Ramiz Mehdiyevin ulu öndər Heydər Əliyev şəxsiyyətinə, onun milli dövlətçilik ideyalarına, ümummilli liderin həm sağlığında onunla bərabər çalışdığı zaman , həm də onsuz keçən illərdə sədaqətli, vəfadarlığı zəminində şərh etməyə çalışmışam..

Bir daha demək istəyirəm ki, vəfadarlıq anlayışına mən yalnız bir şair mövqeyindən önə çıxarmaq

istəmişəm..

Çalışmışam ki, Ramiz müəllimin Heydər Əliyev şəxsiyyətinə, ideyalarına, milli dövlətçilik irsinə, əməllərinə ardıcıl vəfadarlığını qismən də olsa şərh edim. Söylədiklərim yüz minlərin, milyonların bu mövzudakı düşüncələrinlə üst-üstə düşsün.

Buna nə dərəcədə nail olduğumu deyə bilmərəm, bu barədə yalnız hörmətli oxucuların xoş niyyətlərinə güvənirəm.



**Mündəricat:**

**Müəllifdən.............................................................5**
**Ön söz: Müasir Azərbaycanşünaslığın ünvanı (Sona Vəliyeva)..............................9**
**Vəfadarlıq.............................................................19**

## Qeyd üçün:



## Qeyd üçün:

## Qeyd üçün:



## Qeyd üçün:

## Qeyd üçün:



99472

**Gьlayə Rzayeva**

*(Rzayeva Gьlayə İsrail)*

***Vəfadarlıq***

Nəşriyyat redaktor: İlahə Hidayətqızı

Dizayner: Elvin Sadıqov

Korrektor: Könül

Operator: Mənzər

Çapa imzalanmışdır: 06.07.2012
Kağız formatı: 60x90 1/16
Həcmi: 14,25 ç.v; Sifariş: 88 ; Sayı: 1 000

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202
Tel.: 433 00 43, (050) 593 27 77
(055) 870-55-09
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com